AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

*BİBLİOQRAFİK GÖSTƏRİCİ*

*"Konstitusiya və Suverenlik İli"nə həsr edilir.*

**Bakı – Elm – 2025**

**UOT 016: 94 (479.24)**
**A 99**

**Elmi məsləhətçi,**
**ön sözün müəllifi** **İsa Həbibbəyli**
*AMEA-nın prezidenti, akademik*

**Tərtibçi:** **Səbuhi Qəhrəmanov**
*filologiya üzrə fəlsəfə doktoru*

**Redaktor:** **Sərxan Xavəri**
*filologiya elmləri doktoru*

**Azərbaycançılıq məfkurəsi: Biblioqrafik göstərici /elmi məs. elmi red. tərt. red..** – Bakı: Elm, 2025. –404 s.

ISBN 978-9952-570-52-6

*"Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş biblioqrafik göstəricidə materiallar illər üzrə, əlifba sırası ilə verilmişdir. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə köməkçi aparat tərtib olunmuşdur. Vəsait elmi tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

© "Elm" nəşriyyatı, 2025



*Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir.*

**Heydər ƏLİYEV**
*Azərbaycan xalqının Ümummilli lideri*



*Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır.*

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

# Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə

və 19-20 sentyabr 2023-cü ildə həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 dekabr 2024-cü il*

**Azərbaycan Milli Elmlər Akademiyasının**
**Rəyasət Heyəti**

# Q Ə R A R

*№ 1/1*

**Bakı şəhəri** **16 yanvar 2025-ci il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncam imzalamışdır. Azərbaycan Respublikasının xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirdiyi, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda

duran strateji hədəflərə doğru inamla irəlilədiyi hazırkı şəraitdə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünün qeyd edildiyi tarixi dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" Sərəncamı xüsusi tarixi əhəmiyyətə malikdir. Sərəncamda qeyd edilir ki, "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur.

Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad və təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır". Həmçinin qeyd edilir ki, "Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkə-

mizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institutsional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır". Sərəncamda o da vurğulanır ki, "Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir". Sərəncamda diqqətə çatdırılır ki, "2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 19–20 sentyabr 2023-cü ildə həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan

Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında xalqımızın qarşıda duran strateji hədəflərə doğru inamla irəlilədiyi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu hazırkı şəraitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə AMEA yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı olmuşdur. Fərmanda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişiklikləri yer almışdır. Fərmanın icrasından irəli gələn məsələlərin həlli məqsədilə AMEA Rəyasət Heyətinin və Ümumi Yığıncağının müvafiq qərarları qəbul edilmişdir və kompleks tədbirlər həyata keçirilməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 03 noyabr 2023-cü il tarixli 2339 nömrəli Fərmanı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi təsdiq edilmişdir. Nizamnamənin təsdiq edilməsi səksən ilə yaxın şərəfli inkişaf yolu keçmiş və mövcud olduğu bütün dövrlərdə ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına mühüm töhfələr vermiş Azərbaycan Milli Elmlər Akademiyasının müasir dövrdə – ölkəmizin dünyada və regionda geosiyasi və

iqtisadi arxetektonikanın müəyyənləşməsində əsas faktora çevrildiyi bir vaxtda yeni tərəqqi mərhələsinə qədəm qoyması baxımından mühüm əhəmiyyətə malikdir. AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təşəbbüsü ilə AMEA-da geniş islahatlara start verilmişdir. Bu islahatlar, əsasən, ictimai və humanitar profilli elmi müəssisələrdən ibarət Akademiyanın dövlətin ideoloji və mədəni-mənəvi siyasətinin həyata keçirilməsindəki rolunun artırılmasına, Azərbaycan xalqının etnogenezinin, arxeologiyasının, etnoqrafiyasının, dilinin, folklorunun, ədəbiyyatının, maddi və qeyri-maddi mədəni abidələrinin, qədim əlyazmalarının, mədəniyyətinin, incəsənətinin, milli-memarlıq məktəblərinin, tarixinin müasir çağırışlar, nəzəri-metodoloji və sosial-antropoloji baxışlar, o cümlədən Azərbaycançılıq prinsipləri əsasında araşdırılmasına yönəlmişdir. Eyni zamanda, yeni dövrləşdirilmə konsepsiyası əsasında Azərbaycan ədəbiyyatı tarixinin yazılması, Azərbaycançılıq ideologiyasının və multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi, müasir dünya fəlsəfəsinin və hüquq elminin müxtəlif problemlərinin öyrənilməsi, sosiologiya, politologiya, psixologiya, o cümlədən şərqşünaslıq və qafqazşünaslıq sahəsində tədqiqatların həyata keçirilməsi, müasir nəzəri prinsiplər əsasında iqtisadi tədqiqatların aparılması da diqqət mərkəzində saxlanılır.

Akademiyada həyata keçirilən struktur islahatlarının zirvəsi isə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təşəbbüsü ilə AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu bazasında Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu bazasında

isə Arxeologiya və Antropologiya İnstitutunun yaradılması olmuşdur. Qəbul olunmuş qərarlara əsasən, dünyanın yeni çağırışları əsas götürülərək bu institutların elmi istiqamətləri, struktur-funksional kompleksləşdirilməsi tamamilə yenidən həyata keçirilmişdir. AMEA-nın fəaliyyətinin yenidən təşkil olunduğu hazırkı şəraitdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncamı milli-mənəvi baxımdan mühüm əhəmiyyətə malik olmaqla yanaşı, elmi baxımdan da son dərəcə ciddi hadisədir. Sərəncamın icrasını təmin etmək məqsədilə, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncamı AMEA-nın fəaliyyətində əsas sənəd kimi qəbul edilsin.

2. AMEA-nın Humanitar Elmlər və İctimai Elmlər bölmələrinə tapşırılsın ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə bağlı "AMEA-nın Tədbirlər planı"nın hazırlanması üçün müvafiq təkliflərini 30 yanvar 2024-cü il tarixinə qədər AMEA-nın Rəyasət Heyətinə təqdim etsinlər.

3. AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinə (filologiya elmləri doktoru Sərxan Xavəri), İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinə (filologiya

üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov), Maliyyə və mühasibat şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev), AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (texnika elmləri doktoru Hüseyn Hüseynov) və AMEA-nın "Elm" Nəşriyyatına (filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov) tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələlər həll edilsin.

4. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli

# ÖN SÖZ

## AZƏRBAYCANÇILIQ KONSEPSİYASI

Azərbaycançılıq ölkəmizdə ictimai-ədəbi fikir meydanına XIX əsrin ikinci yarısından etibarən gəlsə də, bundan əvvəlki dövrlərdəki ümumtürk təfəkkür tərzi ədəbiyyatın milli zəmində inkişafını müəyyən etmişdir. Orta əsrlər poeziyasında "səbki-Azərbaycan" üslubunun geniş yer tutması xalqımıza məxsus ədəbiyyatı ümumtürk və Şərq-müsəlman poeziyası məkanında fərqləndirmiş, ön mövqeyə, böyük sənət miqyasına çatdırmışdır. XII əsrdə meydana gəlmiş "Azərbaycan səbkisi" şeirdə təntənəli poetik üslubla bərabər, ayıqlıq və ağlın təntənəsini də göstərməyi tələb edirdi. Bundan başqa, ictimai-siyasi xarakter daşıyan qəsidədən qəzələ keçid də "səbki-Azərbaycan"ın mühüm özünəməxsusluqlarından biri idi. Qədim dövrdə və orta əsrlərdə Azərbaycan poeziyası ilə yanaşı, farsdilli şeirdə də bu səbki üstün yer tutmuşdur. Tədqiqatçıların fikrincə, "Azərbaycan üslubunda yazan şairlər ağlın, kamalın üstünlüyünü və dünyanın sirlərini göstərməmək naminə bilərəkdən elmi istilahları, peşə terminlərini şeirə gətirirdilər. Sonradan bu üslub geniş yayıldı və monqol dövrünün şairləri də klişe şəkli almış həmin istilahlardan və poetik mənalardan yararlanırdılar. Ancaq aparıcı şeir şəklinin təmtəraqlı və mənsəbpərəst qəsidədən insanın hissiyyatını və ürək sözlərini bəyan edən qəzələ keçməsi öz-özlüyündə şeirdəki çətin anlaşılan ifadələri aradan götürürdü".[1] "Azərbaycan səbkisi" ədəbiyyatda müdrik fikirləri orijinal bədii səviyyədə ifa-

[1] A.Mətləbi. Farsdilli poeziyada Azərbaycan üslubu. – Tehran, 2013, s.56.

də etməyi bacaran mütəfəkkir şairləri ön mövqeyə çıxarmışdır. Bundan başqa, XIII-XVI əsrlərdə Azərbaycan dilində yaranmış şeir türk dünyasında örnək kimi qəbul edilmişdir. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında isə xalq şeiri ilə yazılı şeir dili arasındakı fərq aradan qalxmış, poeziyada ciddi xəlqiləşmə prosesləri getmişdir. Molla Pənah Vaqifin lirikasındakı "Kür qırağının əcəb seyrangahı"nın, Qıraqbasan qışlağının tərənnümünün timsalında Azərbaycan coğrafiyası şeirdə qabarıq şəkildə görünməyə başlamış və tədricən inkişaf etdirilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində realist ədəbiyyatın ön cəbhəni təmsil etməsi ölkənin geniş coğrafi bütövlüyü, xalqın isə konkret olaraq öz adı və dəyərləri ilə ədəbiyyatda iştirakını zəruri faktora çevirmişdir. XIX əsrin axırlarından etibarən Azərbaycan dili və Azərbaycan xalqı anlayışlarının mətbuatda və ədəbiyyatda işlədilməsi ilə Azərbaycançılıq məfkurəsi formalaşmağa başlamışdır.

Nüfuzlu dilçi alimlərin gəldikləri qənaət bundan ibarətdir ki, "eradan əvvəl Azərbaycanda artıq türk etnosları yaşamış, bu dövrdə Azərbaycan ərazisində türk etnoslarının dilinə məxsus toponimlər və şəxs adları meydana gəlmişdir".[2] Azərbaycan dili Ön Asiyada şumerlərin qonşuluğunda yaşayan protoazərbaycanlıların dili əsasında formalaşmışdır. Uzun əsrlər ərzində ümumxalq danışıq dili vasitəsilə Azərbaycan dili yaranmış və inkişaf etmişdir. Nəhayət, XIII əsrdən etibarən Azərbaycan ədəbi dili təşəkkül tapmışdır. XVIII əsrdə Molla Pənah Vaqif Azərbaycan

[2] Q.Kazımov. Azərbaycan dilinin tarixi. – Bakı, TEAS-Press, 2017, s.454.

"ədəbi-bədii dilinin milli əsasda inkişafını mütləqləşdirmişdir".[3] Azərbaycan dili artıq XIX əsrdə sabit inkişaf mərhələsinə qədəm qoymuşdur.[4] Bütün bunlara baxmayaraq, XIX əsrin sonlarına qədər rəsmi şəkildə Azərbaycan dili və Azərbaycan xalqı ifadələri işlədilməmişdir. Azərbaycançılıq anlayışı üçün mühüm şərt olan xalqın və dilin necə adlandırılması XIX əsrin axırlarında meydana çıxmışdır. İlk dəfə Məhəmməd ağa Şahtaxtlı 1882-ci ildə "Qafqaz" qəzetində çap etdirdiyi "Müsəlmanlarda məktəb həyatı" adlı məqaləsində "Bizi necə adlandırmalı" sualına cavab verməklə, Azərbaycan dilinin leksikasına "azərbaycanlı" anlayışını gətirmişdir. Məqalədə deyilir: "Bizdə Qafqazda bu sözün mənası bir qədər dəyişikliyə uğramışdır, bu adla məşhur irqə aid olan müsəlmanları məhz Zaqafqaziya tatarları bilirik.

...Necə olubsa, bir şəkildə milliyyət anlayışımızı itirərək özümüzü milliyyətimizlə yox, müxtəlif millətlər və dillərin də aid olduqları dinimizlə adlandırmağa başlamışıq.

Yaxşı olardı ki, bizim özümüz kimi, başqa xalqlar da bizi dinimizdən gələn yox, milli mənsubiyyətimizdən gələn bir adla çağırsınlar. Beləliklə də "müsəlman" sözü sadəcə dini anlamda istifadə olunar və din və millət kimi iki fərqli anlayışın qarışdırılmasına son qoyular.

Onda bizi necə adlandırsınlar? Bizim dilimizdən söhbət gedəndə biz onu ya türk dili, ya da türkcə adlandırırıq – ikisi də eyni şeydir, belə ki, hər ikisi türk ismindən yaranmış sifətdir, türklər özü bu sözü bilmirlər. Bizim qonşularımız...

---

[3] N.Cəfərov. Molla Pənah Vaqif. – Bakı, Renessans-A, 2017, s.167.
[4] T.Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi. – Bakı, Elm, 2012, s.26.

da bizi türk adlandırırlar. Bu mənada biz türk adlana bilərdik, lakin bu sözün ictimaiyyət tərəfindən qəbul edilməsi üçün lazımdır ki, ruslar da bizi belə çağırsın. Amma böyük ehtimalla ruslar onu qəbul etməyəcəklər, çünki bizi tanıyana qədər onlar və bütün avropalılar bu adla Osmanlı türklərini adlandırmağa öyrəşmişdilər. Biz tatar adlanmayacağıq, çünki bu söz bizi vəhşi adlandırmaq üçün istifadə olunur. Xalqı zorla milliyyətimizi müəyyənləşdirmək və hazırda etnoqrafiya və linqvistikada istifadə olunan azərbaycanlı sözü ilə adlandırmaq olmaz ki? Ola bilsin ki, nə vaxtsa ədəbiyyatda və rəsmi cəmiyyətdə bu söz qəbul edildi".[5]

Maarifçi-publisist Məhəmməd ağa Şahtaxtlı "Kaspi" qəzetindəki "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı" (1891) məqaləsində Azərbaycançılıq məsələsinə daha aydın və konkret mövqedən yanaşmışdır: "Hansı xalqa məxsusdur və hansı dildə danışır sualına Zaqafqaziya müsəlmanı başqa cavab vermir, yalnız deyir ki, o müsəlmandır və müsəlmanca danışır.

Son vaxtlar Zaqafqaziya müsəlmanlarına onların dillərinə görə yox, xalqlarına görə ad verməyə çalışaraq Zaqafqaziya islam əhlini Qafqazda rus dilində tatar adlandırmağa başlamışdılar. Amma bu yeniliyi heç cür uğurlu hesab etmək olmaz. Zaqafqaziya müsəlmanlarının danışdığı dil tatar dili deyil, türk dilidir ki, o da öz növbəsində əsas dialektlərə ayrılır: osmanlı, səlcuq və azərbaycanlı türkcələri.

Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onların dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi.

---

[5] M.Şahtaxtlı. Seçilmiş əsərləri (tərt. ed. və müqəddimənin müəllifi İ.Həbibbəyli). – Bakı, Çaşıoğlu, 2006, s.238-239.

Böyük bir hissəsi İranın və Rusiyanın payına düşmüş Adərbedjan (Azərbaycan – İ.H.) mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır. Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar.

Ona görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı".[6]

"Kəşkül" qəzetindəki "Azərbaycanlı" imzalı müəllifin "Əvam gəzmək yuxu yatmaqmı dedin?" məqaləsindəki "Azərbaycan milləti" sözü milli özünüdərk proseslərinin xalqın dilində çap olunan mətbuatın da müzakirə mövzusuna çevrildiyini göstərir:

– "Siz nə millətdənsiniz?

– Müsəlmanam.

… – Əfəndim, millət ayrı, din ayrı.

– Ancaq, eyib olsa da, gərək dürüst ərz edəm. Mən bilmirəm ki, nə millətdənəm.

– Siz tatar deyilsiniz. Tatar Krımda, Kazanda olan müsəlmanlardır. Sizin millət azərbaycanlıdır".[7]

Böyük demokrat ədib Cəlil Məmmədquluzadənin "Azərbaycan" (1917) məqaləsi milli-mənəvi özünüdərk dərsliyi qədər anlaşıqlı və əhəmiyyətlidir: "Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram və özümdən soruşuram ki:

– Mənim anam kimdir?

Öz-özümə cavab verirəm ki:

---

[6] Yenə orada, s.28-29.

[7] "Kəşkül" qəzeti. – Bakı, 16 noyabr 1890, №115.

– Mənim anam rəhmətlik Zöhrabanu bacı idi.
– Dilim nə dilidir?
– Azərbaycan dilidir.
– Yəni Vətənim haradır?
– Azərbaycan vilayətidir".[8]

Ədəbiyyatda Azərbaycançılıq ideyası XX əsrin əvvəllərində ədəbiyyat konsepsiyası səviyyəsinə çatdırılmışdır. Cəlil Məmmədquluzadənin məşhur "Anamın kitabı" (1920) dramı Azərbaycançılıq idealının manifesti kimi meydana çıxmışdır. Sovet hakimiyyəti illərində Azərbaycançılıq vətənpərvərlik adı ilə yaşadılmışdır. Müstəqillik dövründə isə Azərbaycançılıq dövlət ideologiyasına çevrilmişdir. Beləliklə, Azərbaycançılıq uzun əsrlər ərzində ölkə ədəbiyyatının ideya əsası kimi mövcud olmuş və ədəbi fikirdə milli maraqların ifadə olunmasına meydan açmışdır.

Azərbaycançılıq – milli düşüncənin və Vətən anlayışının bir yerdə qavranılması təlimi kimi xalqın və ölkənin milli maraqlarının – maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarının ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran Ümummilli məfkurədir. Azərbaycançılıq – milli ədəbiyyatın axarını ölkə maraqlarına doğru istiqamətləndirən mühüm ədəbi-ictimai təlimdir. Azərbaycançılıq – ədəbiyyatda əsas hədəf kimi milli-mənəvi özünüdərk və vətənpərvərlik ideyalarının parlaq bədii təcəssümüdür, xalqın

---

[8] C.Məmmədquluzadə. "Azərbaycan", "Molla Nəsrəddin" jurnalı, Tiflis, 27 noyabr 1917, № 24.

hərtərəfli inkişafına xidmət edən Ümummilli məfkurədir. Nəhayət, Azərbaycançılıq – ədəbiyyatda milli istiqlal və müstəqil dövlətçilik ideallarının təcəssümü olan əbədiyaşar təlimdir! Azərbaycanda milli istiqlal ideyası XX əsrin əvvəllərində ictimai fikrin gündəmində mühüm yer tutmuşdur. Cəlil Məmmədquluzadənin başçılıq etdiyi "Molla Nəsrəddin" hərəkatı milli istiqlal uğrunda mübarizə ideyasının formalaşdırılması və xalqa çatdırılması yolunda bir ordudan çox xidmət göstərmişdir. Hətta Azərbaycançılıq baxımından liberal mövqe tutan, türkçülük və islamçılıq ideyalarını təbliğ edən füyuzatçılar da Azərbaycanda milli istiqlalın qaçılmazlığını bəyan etmişlər. Əli bəy Hüseynzadənin aşağıdakı fikirləri XX əsrin əvvəllərində ölkədə milli istiqlalçılığa münasibəti dolğun şəkildə ifadə edir: "Qafqaz türkləri (azərbaycanlılar – İ.H.) türklərin ən hürriyyətpərvərləridir. ...Bu məmləkətdə (Azərbaycanda – İ.H.) heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz. Heç bir səbr və təzyiq, ...heç bir zülm və sitəm hürriyyət odunu söndürə bilməz. Qafqaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır. Bu rolların ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir".[9]

"Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabının müəllifi Hüseyn Baykaranın aşağıdakı fikirləri Azərbaycançılığın milli istiqlal ideyasının aparıcı qayəsi olduğunu nümayiş etdirir: "Qafqaz hadisələri onları (istiqlal mücahidlərini

---

[9] Əlibəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir. "Həyat" qəzeti, 2 iyul 1906, №143.

– İ.H.) özlərinin öncədən uzaq məqsəd olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna tez sürükləndirdi. Bu vaxtadək Azərbaycan istiqlalına nə rast gəlinmiş, nə də baş verən digər siyasi hadisə olmamışdır. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır".[10]

XX əsrin əvvəllərindən etibarən milli ədəbi-ictimai fikirdə Azərbaycançılıq əsas yer tutmuşdur. Qeyd olunduğu kimi, sovet hakimiyyəti illərində Azərbaycançılıq vətənpərvərlik adı ilə yaşamış və inkişaf etdirilmişdir. Dövlət müstəqilliyi illərində isə Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycançılıq dövlət ideologiyası səviyyəsinə qaldırılmışdır.

Çoxəsrlik Azərbaycan ədəbiyyatında və müasir ədəbi-ictimai fikirdə Azərbaycançılıq təliminin yerini və əhəmiyyətini daha aydın surətdə təsəvvür etmək üçün ümumiyyətlə, Azərbaycançılıq konsepsiyasının mahiyyətini aydın surətdə müəyyənləşdirmək zəruridir.

Azərbaycançılıq – müstəqil Azərbaycan Respublikasının dövlət ideologiyasıdır! Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, Azərbaycançılıq dövlət ideologiyasının yaradıcısıdır!

**Azərbaycançılıq aşağıdakı prinsipləri əhatə edir:**[11]

---

[10] H.Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. – Bakı, Kitab klubu, 2017, s.289.

[11] İ.Həbibbəyli. Azərbaycançılıq ideologiyası konsepsiyası. //AMEA-nın "Xəbərlər" jurnalı (Humanitar elmlər seriyası). – Bakı, 2015, №3, s.3-6.

**P.S.** Sonradan işlənilib təkmilləşdirilmiş və "Azərbaycan ədəbiyyatı"

**I. Azərbaycançılıq məfkurəsi**

1. Azərbaycançılıq – ümumtürk mənşəli milli məfkurədir.

2. Azərbaycançılıq – Azərbaycanın ərazi bütövlüyünün, vahid Vətən, vətəndaş həmrəyliyi və milli birlik ideyalarının təcəssümü, ümumiləşmiş ifadəsidir.

3. Milli iftixar və Vətənçilik Azərbaycançılıq məfkurəsinin əsas ideya mənbəyidir.

4. Azərbaycançılıq bəşəri dəyərləri özündə əks etdirən Ümummilli məfkurədir.

5. Radikal millətçilik, dini ayrı-seçkilik, separatçılıq Azərbaycançılıq məfkurəsinə ziddir.

"Bizim bir ümumxalq ideologiyamız var – Azərbaycançılıq məfkurəsi!"

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

**II. Azərbaycan xalqı**

6. Azərbaycan xalqı müstəqil Azərbaycan dövlətinin yaradıcısı, sahibi, daşıyıcısı və qoruyucusudur.

7. Azərbaycan xalqı – tarixən və mənşə etibarilə Azərbaycanda yaşayıb formalaşan, ölkəni qoruyub saxlayan və inkişaf etdirən əsas hərəkətverici qüvvədir.

8. Sədaqətli olmaq, bütövlük, Vətən və torpaq sevgisi Azərbaycan xalqının xarakteridir.

9. Azərbaycançılıq – ölkədə hüquqi-demokratik dövlətin daşıyıcısı olan Azərbaycan xalqının dövlətçilik ideologiyasının ana xəttidir.

10. Azərbaycançılıq – Azərbaycanı özünə Vətən hesab

---

bölməsi yazılıb 2018-ci ildə əlavə olunmuşdur.

edən bütün xalqları birləşdirən ideologiyadır.

11. Azərbaycançılıq – dünya azərbaycanlılarının milli-mənəvi birliyinin rəmzidir.

"Hamımızın bir Vətəni var. Bu, Azərbaycandır!"

"Vətən birdir, hamı Vətən uğrunda çalışmalıdır!"

**Heydər Əliyev**
*Azərbaycan xalqının Ümummilli lideri*

**III. Azərbaycan dövlətçiliyi**

12. Azərbaycan dövləti – Azərbaycan xalqının öz tarixi ərazisində çoxəsrlik ənənələri olan, ölkənin ərazi bütövlüyünü yaşadan və qoruyub möhkəmləndirən idarəetmə sistemidir.

13. Güclü dövlət, demokratik prinsiplər, milli sərvət, iqtisadi inkişaf və hərbi qüdrət Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasıdır.

14. Hərtərəfli dinamik və davamlı inkişaf, birlik, möhkəm ictimai-siyasi sabitlik və modernləşmə Azərbaycan dövlətinin hədəfləridir.

15. Azərbaycan Respublikasının dövlət rəmzləri – himni, dövlət bayrağı və gerbi Azərbaycan vətəndaşı üçün müqəddəsdir.

16. Azərbaycan Respublikasının dövlət rəmzlərini uca tutmaq və qorumaq Azərbaycan vətəndaşının müqəddəs borcudur.

17. Azərbaycanın dövlət himni – Azərbaycan xalqının milli manifesti, səfərbərlik və birlik marşıdır.

18. Azərbaycanın dövlət bayrağı – Azərbaycan xalqının milli istiqlalının rəmzi və müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını əks etdirən əbədi simvoludur.

19. Azərbaycan Respublikasının dövlət gerbi – müstəqil dövlətimizin varlığını təsdiq edən möhürdür.

"Müstəqil Azərbaycan dövlətinin ideya əsası Azərbaycançılıqdır!"

**Heydər Əliyev**
*Azərbaycan xalqının Ümummilli lideri*

**IV. Azərbaycan dili**

20. Azərbaycan dili – Azərbaycan Respublikasının dövlət dilidir.

21. Azərbaycan dili türk mənşəli qədim və zəngin dildir.

22. Azərbaycan dili – Azərbaycan xalqının ana dili və ölkədə yaşayan bütün millətlərin, azsaylı xalqların vahid ünsiyyət vasitəsidir.

"Ana dilimiz – Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!"

**Heydər Əliyev**
*Azərbaycan xalqının Ümummilli lideri*

**V. Milli-mənəvi dəyərlər**

23. Azərbaycançılıq – xalqın milli-mənəvi özünüdərketmə təlimidir.

24. Əsrlər boyu formalaşıb inkişaf etmiş dayanıqlı adət-ənənələrimiz Azərbaycan xalqının milli-mənəvi sərvətidir.

25. Milli adət-ənənələri qoruyub saxlamaq və yaradıcılıqla inkişaf etdirib möhkəmləndirmək Azərbaycançılıq məfkurəsinin əbədiyaşarlığını təmin etməyin əsas şərtlərindəndir.

26. İslam dini – Azərbaycan xalqının dini mənsubiyyətinin əsasını təşkil edir.

27. Tolerantlıq – Azərbaycanda dinlərarası münasibətlərin və dialoqların dayaq nöqtəsidir.

28. Multikulturalizm – Azərbaycançılığın üzvi tərkib hissəsi və hərəkətverici qüvvəsidir.

**VI. Azərbaycan ədəbiyyatı**

29. Azərbaycan ədəbiyyatı – Azərbaycanda və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların yaratdıqları böyük ədəbiyyatdır.

30. Millilik və bəşərilik, Azərbaycançılıq və birlik idealları, habelə yüksək bədiilik Azərbaycan ədəbiyyatının əsas xüsusiyyətləridir.

31. Azərbaycan ədəbiyyatı – Azərbaycan xalqının dilində yaranan böyük ədəbiyyatdır.

32. Eyni zamanda, hansı dildə yazılmasından asılı olmayaraq, azərbaycanlıların ölkəmizin milli dəyərlərinə və dövlətçilik maraqlarına xidmət edən bədii əsərləri Azərbaycan ədəbiyyatıdır.

33. Azərbaycan ədəbiyyatı davamlı tarixi-ədəbi ənənəsi olan və daim inkişaf edib müasirləşən dayanıqlı ədəbiyyatdır.

34. Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatının tərkib hissəsidir.

**VII. Azərbaycanşünaslıq**

35. Azərbaycan – ana Vətən və Ümummilli ideal; Azərbaycançılıq – milli ideologiya; Azərbaycanşünaslıq – elmdir!

36. Azərbaycanı öyrənmək – Azərbaycanşünaslıqdır.

***

Məlum olduğu kimi, müxtəlif əsrlərdə Azərbaycanda

ictimai-siyasi və ədəbi-mədəni mühitdə türk və ərəb-islam sivilizasiyaları yaşanmış, böyük inkişafa təkan vermişdir. Qədim türk sivilizasiyasının tanrıçılıq təliminin xeyirlə şərin mübarizəsinə əsaslanması insanın mənəvi ucalığının aliliyi haqqında təsəvvürləri formalaşdırmışdır. Tədqiqatçıların fikrincə, türklərin başlıca inamı olan tək tanrıçılıq ideyası insanı daim şərdən qaçmağa səfərbər etmişdir: "Türklərdə həyat ikili sistem: xeyir və şərin mübarizəsi üstündə qurulmuşdur. Şər qüvvələr Tanrıdan aşağıda dayanırlar və ona qarşı çıxa bilmirlər. ...Deməli, daha çox ikili sistem üzərində qurulmuş inamlar panteonuna əsasən, insan İblisin şərindən qaçmaq üçün Allaha – Tanrıya sığınmalıdır".[12] Tanrıçılıq dini inancındakı xeyirə çağırışla islam sivilizasiyasının mənəvi kamillik ideyası çuğlaşaraq ayrı-ayrı dövrlərin böyük ədəbiyyatı və mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Lakin sovet ideologiyasının prinsiplərinə uyğun olaraq, ədəbiyyatın və incəsənətin inkişafında din faktorunun rolu unutdurulmuş, hətta bir çox hallarda, yeri oldu-olmadı, yazıçı və şairlərin "ateist" kimi təqdim edilməsinə səy göstərilmişdir. "Onları belə göstərənlər zənn edirlər ki, guya bu sənət ustadlarını müasirləşdirir və ya daha da dahi sənətkarlar edirlər. ...Əksinə, bu sənətkarları öz soykölərindən ayırır, onları böyüdən, dahi edən islami dəyərlərdən bəhrələnmələrini unudurlar".[13] İslam təlimindəki mənəvi bütövlük və humanizm

[12] Q.Qədirzadə. Tanrıçılıq və əbədi həyat məsələsi. – Naxçıvan, Əcəmi, 2013, s.45-46.

[13] F.Nurullah. Azərbaycanda islam və onun etiqad əsasları. – Bakı, Nurlan, 2013, s.92.

ideyaları, maarifçiliyə böyük dəyər verilməsi yazıçı və şairlərin dünyagörüşünün inkişafında mühüm yer tutmaqla bərabər, həm də onların bədii yaradıcılığında elmi cəhətdən əsaslandırılmış milli və bəşəri ideallarin xüsusi önəm daşımasına meydan açmışdır. Qədim dövr və orta əsrlərdə sənətkarların bədii sözü yüksək islami dəyərlər miqyasında ifadə etmək səyləri nəticə etibarilə böyük ədəbiyyatın yaranmasına təkan vermişdir. Beləliklə, Azərbaycan ədəbiyyatının inkişafında türk və islam sivilizasiyaları faktoru mühüm amillər olmuşdur.

Azərbaycanda maarifçilik hərəkatı da sivilizasiya faktoru kimi ictimai-ədəbi mühitin inkişafına müstəsna dərəcədə təsir göstərmişdir. XIX əsrdə ölkədə dünyəvi məktəblərin, milli teatrın, mətbuatın və realist ədəbiyyatın yaranıb yüksələn xətlə öz yolunu davam etdirməsi maarifçilik hərəkatının regionda mühüm sivilizasiya faktoru rolunu oynadığını söyləməyə əsas verir.

Azərbaycanın Şərq-Qərb yönlü coğrafiyaların və sivilizasiyaların qovşağında yerləşməsi burada həmin sivilizasiyalararası mədəniyyətlərin, o cümlədən də ədəbiyyatın inkişafına öz təsirini göstərmişdir.

***

Qədim dövr və orta əsrlər Azərbaycan ədəbiyyatında ölkə anlayışı geniş əraziləri əhatə etdiyi, müxtəlif dövlətlərin hüdudları çərçivəsində olduğu üçün konkret tarixi şəraitdə ayrı-ayrı coğrafiyalarda eyni metod və üslubda yazan sənətkarların yaradıcılıq birliyinin baş tutması çətin olmuşdur. Buna görə də həmin tarixi mərhələlərdə bu gün bizim düşündüyümüz for-

matda ədəbi cərəyanlar yarana bilməmişdir. Lakin orta əsrlərdə ədəbi-ictimai fikirdə geniş yer tutmuş əxilik, sufizm və hürufizm təriqətləri siyasi-ideoloji mahiyyəti ilə yanaşı, həm də ədəbi cərəyan funksiyasını daşımış, sənətkarları öz cazibəsində saxlamış və istiqamətləndirmişdir.

Təxminən, IX-X əsrlərdən etibarən sufizm Azərbaycan poeziyasında tədricən geniş yayılaraq bədii-fəlsəfi cərəyana çevrilmişdir. Xüsusən, XIII-XVI əsrlərdə Azərbaycan ədəbiyyatında sufizm özünün ən yüksək zirvəsinə çatmışdır.

"Əxi qardaşları" XII əsr Azərbaycan ədəbi-ictimai fikrini əhatə edən birlik-cərəyan olub, cəmiyyətdə ədalət, bərabərlik, insanpərvərlik, humanizm ideyalarını diqqət mərkəzinə çəkməsi, xalq kütlələrinin hüququnu müdafiə etməsi, xalq hikmətinə istinad olunması ilə səciyyələnmişdir. İntibah dövrü Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsində əxilik ideyaları xüsusi təsir gücünə malik faktorlardan biri olmuşdur. Nizami Gəncəvi "Əxi qardaşları" cəmiyyəti ilə yaxın münasibət saxlamış və onların ideyalarından yaradıcı şəkildə faydalanmışdır. Dövrün başqa şairlərinin və elm adamlarının əsərlərində də əxilik-birlik-bərabərlik, insanpərvərlik ideyalarından istifadə edilmişdir.

Hürufizm cərəyanının Şərq ölkələrində və Azərbaycanda rolu və əhəmiyyəti elmi ədəbiyyatda aşağıdakı kimi ifadə olunmuşdur: "Hürufizm Yaxın və Orta Şərqin müxtəlif ideoloji axınlarının içərisinə daxil olaraq ideoloji mühitin inkişafına əhəmiyyətli təsir göstərmişdir. ...Hürufizmin Vətəni Azərbaycan hesab olunur. Bu cərəyan XIV-XVI əsrlərdə Azərbaycan xalqının mənəvi təkamülündə mühüm

rol oynamışdır".[14] Fəzlullah Nəimi hürufizmin nəzəri-ideoloji təlimini hazırlamış, İmadəddin Nəsimi hürufi ədəbiyyatının böyük yaradıcısı kimi çıxış edərək onu ümumşərq miqyasına çatdırmışdır.

XIX əsrdən etibarən son iki əsrdən artıq dövrdə Azərbaycan ədəbiyyatında meydana gəlmiş maarifçi realizm, tənqidi realizm, romantizm kimi ədəbi cərəyanlar ədəbiyyatın yeni hədəflərini və ideallarını müəyyən etmiş, yeniləşmə və dəyişikliklərə geniş meydan açmışdır. XX əsrin sonlarına doğru Azərbaycan Respublikası artıq müstəqil bir dövlət kimi fəaliyyətini davam etdirməyə başladıqdan sonra ölkədə yaranmış demokratik ab-hava, siyasi mühitdə formalaşan çoxpartiyalı sistem və dünya ədəbiyyatı prosesləri ilə yaranmış geniş əlaqələr sovet ədəbiyyatının vahid yaradıcılıq metodu olan sosialist realizmindən çoxmetodlu ədəbiyyata keçid üçün yeni üfüqlər açmışdır. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" adlı iki cildlik nəşrdə obyektiv olaraq yazıldığı kimi, "bu tarixi mərhələ özünün meydana çıxardığı yeni ədəbi cərəyanlar da diktə etdi: ne orealizm, postmodernizm, dekadentizm və magik realizm".[15] Bütün bunlara görə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsində ədəbi cərəyanların nəzərə alınması zəruridir. Ədəbi cərəyanların diqqətdə saxlanılması, eyni zamanda, dünyada baş verən obyektiv gerçəkliklərin, elmi-texniki yeniliklərin, qlobal dəyişikliklərin ədəbi prosesə təsirini izləmək baxımından da vacibdir. XX əsrdə dünya

[14] Z.Quluzadə. Hürufizm və onun Azərbaycandakı nümayəndələri. – Bakı, Elm, 1970, s.237.

[15] Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c. – Bakı, Elm və təhsil, 2017, s.26.

ədəbiyyatı və ictimai fikrində yaranan modernizm, postmodernizm, dekadentizm, magik realizm, ekzisentializm ədəbi cərəyanları həmin qlobal dəyişikliklərin nəticəsində meydana çıxmışdır. Dünyada gedən proseslər Azərbaycana təsirsiz ötüşməmiş, cəmiyyətdə və ədəbiyyatda mühüm dəyişikliklər baş vermişdir. Adları çəkilən cərəyanların nümayəndələri Azərbaycanda da yaşayıb-yaratmış və ədəbi hərəkatı irəli apararaq daha da zənginləşdirmişlər. Bu proses hazırda da davam etməkdədir.

***

Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin müasir konsepsiyası üçün müəyyənləşdirilmiş meyarlar ədəbiyyatımızın çoxəsrlik tarixində baş vermiş ictimai-mədəni və ədəbi-tarixi proseslərin reallıqlarını, keçilmiş inkişaf yolunun özünəməxsusluqlarını obyektiv şəkildə özündə əks etdirməyə imkan yaradır. Ədəbi-tarixi proseslərin reallıqları dedikdə, ayrı-ayrı inkişaf mərhələlərində Azərbaycan ədəbiyyatının təbii məntiqindən, daxili təkamülündən doğan sənət idealları ilə xalqın müxtəlif dövrlərdəki Ümummilli ideallarının dialektik əlaqəsi, sintezi və vəhdəti nəzərdə tutulur. Bu zaman hər hansı bir kənar, yad siyasi ideologiyadan çıxış etmək ədəbi-tarixi prosesin real qiymətləndirilərək təhlil edilib ümumiləşdirilməsinə mane olar. Ona görə də ədəbi-tarixi prosesin reallıqları və üzvi əlaqəsi nəzərə alınmadan milli ədəbiyyat tarixinin inkişaf yolunun obyektiv dövrləşdirilməsini müəyyən etmək çox çətin olar.

Qeyd olunan prinsiplər – Azərbaycançılıq, sivilizasiya amili, ədəbi cərəyanlar və ədəbi-tarixi prosesin reallıqları Azərbaycan ictimai-mədəni fikrinin və ədəbiyyatının əsrlər boyu keçdiyi inkişaf yolunun ana xətlərini, əsas inkişaf istiqamətlərini və başlıca məzmununu müəyyən etməyə imkan yaradır.

Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi prinsipləri ölkə ədəbi-ictimai fikrinin reallıqları və dünya elmi-nəzəri təlimlərinin təcrübəsi əsasında müəyyənləşdirilmişdir.

Son illərdə Azərbaycan Milli Elmlər Akademiyasında xalqımızın keçdiyi çoxəsrlik tarixi inkişaf yolunun, ədəbiyyatımızın, incəsənət tariximizin, fəlsəfi fikrimizin dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri haqqında meydana çıxmış nəzəriyyələr, irəli sürülən müxtəlif versiyalar geniş mənada Azərbaycançılıq vəhminin elmi əsaslarının müəyyən edilməsinə imkan yaradır. AMEA Mərkəzi Elmi Kitabxanasının hazırladığı Azərbaycançılıq məfkurəsi Azərbaycançılıq ideyasının formalaşma mənbələrini, inkişaf proseslərini hərtərəfli şəkildə əks etdirir. Təqdim olunan biblioqrafiya yeni nəslin vətənpərvərlik tərbiyəsinin, Azərbaycançılıq məfkurəsinin elmi əsaslarından ibarət olan faydalı nəşrdir.

**İsa Həbibbəyli**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*prezidenti, akademik*

# AZƏRBAYCANÇILIQLA BAĞLI ƏDƏBİYYATIN BİBLİOQRAFİYASI

## Kitablar

### *Azərbaycan dilində*

**1918**

**1.** Çəmənzəminli, Y.V. Biz kimik və istəyimiz nədir? /Yusif bəy Vəzirov (Yusif Vəzir Çəmənzəminli). - Bakı: "Müsavat" Türk Ədəmi Mərkəziyyət Firqəsi Nəşriyyatı, 1918. - 15 s. - *Ərəb əlifbasında Azərbaycan dilində.*

**2.** Topçubaşov, Ə. Azərbaycanın təşəkkülü /Əlimərdan Topçubaşov - İstanbul, 1918. - 46 s. *Ərəb əlifbasında.*

**1920**

**3.** Çəmənzəminli, Y.V. Biz kimik və istəyimiz nədir? /Yusifbəy Vəzirov (Yusif Vəzir Çəmənzəminli). - Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1920. - 15 s. - *Ərəb əlifbasında Azərbaycan dilində*

**1923**

**4.** Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti /Məhəmməd Əmin Rəsulzadə; ön söz əvəzi Ə.Hüseynzadə. - İstanbul: Evkaf-ı İslamiye Mətbəəsı, 1923 (1339 h.). - 167 s. *Kitabda Azərbaycan milli hərəkatının inkişafı, Azərbaycan Cümhuriyyətinin quruluşu və hansı səbəblərdən bolşevik ruslarının əlinə keçdiyi ən yüksək səviyyədə bəhs edilir.*

**1929**

**5.** Çobanzadə, B. Krım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik /Bəkir Çobanzadə. - Bakı: Elmi Tədqiqat İnstitutu, 1929. - 33 s.

**1931**

**6.** Ədəbiyyatşünaslıqda burjua təmayülləri əleyhinə: [məqalələr toplusu] /M.Quliyev [və b.]. - Bakı: Azərnəşr, 1931. - 120 s. *Kitabçada A.Musaxanlı, B.Çobanzadə, Əmin Abid və başqalarının yaradıcılığında burjua ideologiyasının, millətçilik və pantürkizmin ifşasına və döyülməsinə həsr edilmiş məqalələr toplanmışdır.*

**1974**

**7.** Alməmmədov, D. Sənin mənəvi gözəlliyin: siyasi təhsil sistemində "Kommunist əxlaqının əsasları"nı öyrənənlər üçün metodik vəsait /Dəmir Alməmmədov; red.: R.Səfərov, M.Zeynalova. - Bakı: Gənclik, 1974. - 96 s.

**8.** Kommunist əxlaqının əsasları /elmi red.: L.Q.Qrinberq, V.Q.İvanov; tərt. ed. A.M.Zaqoruyuko; tərc. ed. Z.Babayev; red. M.Süleymanov. - Bakı: Gənclik, 1974. - 336 s.

**1986**

**9.** Tağıyev, Ə. Azərbaycan milli mədəniyyəti və onun antikommunist saxtalaşdırılmasının tənqidi /Əlikram Tağıyev; red. F.Q.Köçərli; AzSSR Elmlər Akad. Fəlsəfə və Hüquq İns-tu. - Bakı: Elm, 1986. - 110 s.

**1990**

**10.** Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti: (1918-1920) /tərt. ed.: B.Allahverdiyev, Ş.Mehdiyev; red. Hidayət. - Bakı: Gənclik, 1990. - 96 s.

**1991**

**11.** Cavad, Ə. Haqq bağıran səs /Əhməd Cavad; tərt. və ön söz: A.Əliyeva; red. M.Səfərli. - Bakı: Nicat, 1991. - 32 s. *Kitabda Aybəniz Əliyevanın Əhməd Cavadın həyat və yaradıcılığı haqqında yazdığı "Azərbaycan istiqlalının tərənnümçüsü" adlı ön söz və Əhməd Cavadın 1918-1919-cu illərdə yazdığı "Mən kiməm?", "Al bayrağa"," Azərbaycan bayrağına"; "Gəlmə!", "Qardaş: Milli şuraya"; "Şəhidlərə", "Türk ordusuna" və s. adlı şeirləri toplanmışdır.*

**12.** Hacıyev, H. İstiqlalın əzablı yolu: Azərbaycan Demokratik Respublikası tarixinin bəzi səhifələri /Hacı Hacıyev. - Bakı: Azərbaycan Jurnalistlər İttifaqı, 1991. - 32 s. *Kitabda 90 illik çar əsarətindən sonra bütün müsəlman Şərqində ilk Demokratik Respublika olan Azərbaycanın 23 aylıq istiqlal ömrünün süqutuna daxili faktların deyil, məhz xarici müdaxilənin səbəb olması sübut edilir.*

**13.** Rəsulzadə, M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi /Məhəmməd Əmin Rəsulzadə; red. A.Acalov. - Bakı: Gənclik, 1991. - 112 s. *M.Ə.Rəsulzadənin bu əsərləri Azərbaycan Demokratik Respublikasının tarixinə, həmin dövrün ətraflı təhlilinə və XX əsrin əvvəllərindən 50-ci illərə qədər Azərbaycanın siyasi, iqtisadi, mədəni vəziyyətinə həsr edilir.*

**14.** Rəsulzadə, M.Ə. Stalinlə ixtilal xatirələri /Məhəmməd Əmin Rəsulzadə; red. Z.Bünyadov. - Bakı: Elm, 1991. -84 s. *Kitabça M.Ə.Rəsulzadənin 1954-cü ildə Türkiyədə çap etdirdiyi məqalələrdən ibarətdir.*

**1992**

**15.** Baykara, H. Azərbaycan istiqlal mübarizəsi tarixi /Hüseyn Baykara; tərc. E.Əbülhəsənli; red. M.Əsədova. - Bakı: Azərnəşr, 1992. - 278 s. *Əsərdə Azərbaycanın Rusiya tərəfindən işğalı, yeni yaranan dövlətin problemləri, ermənilərin və bolşeviklərin törətdikləri qırğın, türklərin hərbi yardımı öz əksini tapmışdır. Kitabda həmçinin Azərbaycanın mühacirətdə olan ziyalıları haqqında da geniş məlumat vardır.*

**16.** Çıraqzadə, V. İstiqlal yollarında: tarixi oçerklər /Vahid Çıraqzadə; rəy. F.Əhmədov; red. M.Əsədova. - Bakı: Azərnəşr, 1992. - 82 s. *Kitab Stalin "sosializmin" və durğunluq dövrlərinin böhtanlarına və hücumlarına tab göstərmiş bir xalqın cəmi 23 ay fəaliyyət göstərmiş milli, suveren, beynəlxalq aləmdə tanınmış dövlət qurumunun – onun ictimai-siyasi, mədəni sahədə, ərazi bütövlüyünü təmin etmək üçün apardığı mübarizənin tarixinə həsr edilmişdir.*

**17.** Məmmədzadə, M.B. Milli Azərbaycan hərəkatı /Mirzə Bala Məmmədzadə; türkcədən azərbaycancaya uyğunlaşdıran R.Əskər; red. H.Hacıyev. - Bakı: Nicat, 1992. - 247 s. *ADR-in qurucularından olan Mirzə Bala Məmmədzadə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Türkiyəyə mühacirət etmiş, orada yazdığı bu kitabda xalqımızın XX əsrin əvvəllərindən başlayaraq rus mübarizəsini göstərmişdir.*

**18.** Rəsulzadə, M.Ə. Əsərləri /Məmməd Əmin Rəsulzadə; topl., tərt. və trans. ed. Ş.Hüseynov; red. E.Məmmədyarova. - Bakı: Azərnəşr, 1992. - C.1: 1903-1909. - 470 s.

**19.** Silahlı münaqişələr zamanı tətbiq oluna bilən beynəlxalq insansevərlik hüququnun əsas qaydaları /Beynəlxalq Qızıl Xaç Komitəsi, Qızıl Xaç Cəmiyyətləri Federasionu. - Cenevrə: 1979, 1992. - 2 s. *Beynəlxalq insansevərlik*

*hüququ silahlı münaqişələr zamanı insan şəxsiyyətinə hörməti təmin edən, yazılı və ya adət-ənənə şəklində mövcud olan beynəlxalq hüquqi göstərişlərin cəmindən ibarətdir.*

**1993**

**20.** Çəmənzəminli, Y. Biz kimik və istədiyimiz nədir? /Yusif Vəzir Çəmənzəminli. - Bakı: Bakı Universiteti nəşriyyatı, 1993. - 12 s.

**21.** İstiqlal qurbanları /tərt. və çapa haz. B.Rəfiyev; red. M.Əsədova; rəssam Xosrov Qasımov. - Bakı: Azərnəşr, 1993. - 35 s. *Kitabda çap olunan məqalələr xalqımızın rəşadətli oğullarının 1929-cu ildə İstanbulda nəşr etdirdikləri "Odlu yurd" toplusundan götürülmüşdür*

**1994**

**22.** Çəmənzəminli, Y.V. Müstəqilliyimizi istəyiriksə... /Yusif Vəzir Çəmənzəminli; topl., ərəb qraf. translit., tərt., müqəd. və qeyd müəll. A.Bayramoğlu; red. T.Muxtarova. - Bakı: Gənclik, 1994. - 72 s.

**23.** Elçin. Məmməd Əmin Rəsulzadə: oçerk /Elçin; red. G.Əmrullah qızı. - Bakı: Şərq-Qərb, 1994. - 21 s.

**24.** Məmmədzadə, M. Azərbaycanın diplomatik mübarizəsi: Milli hərəkatı, 27 aprel işğalı və Müsavat /M.Məmmədzadə. - Bakı, 1994. - 19 s. *Kitabda Azərbaycan Demokratik Respublikasının süqutundan sonra xaricə mühacirət etmiş müsavatçıların istilaya qarşı mübarizələri haqqında məlumat verilir.*

**25.** Mürsəlov, R. Millətçilik təfəkkürü-birlik və parçalanma meyilləri: ərəb ölkələrinin təcrübəsi 60-90-cı illər /Ramiz Mürsəlov; red. R.Əliyev; Azərbaycan Respublikası

Elmlər Akademiyası Şərqşünaslıq İns-tu. - Bakı: Elm, 1994. - 176 s. *Monoqrafiyada müasir ərəb millətçiliyinin daxilində baş verən başlıca proseslər və onların ərəb vəhdəti məsələsində inikası məsələlərinə əsas yer verilir.*

**1995**

**26.** Hacıbəyli, Ü. Fitnələr qarşısında /Üzeyir Hacıbəyli; topl., ərəb əlifb. translit. ed., ön söz və sözlüyün müəl. Aslan Kənan; elmi red. T.Həsənzadə. - Bakı: Azərnəşr, 1995. - 187 s. *Kitabda dahi bəstəkar Ü.Hacıbəylinin 1918-1920-ci illərdə çıxan "Azərbaycan" qəzetindəki ədəbi fəaliyyəti və sənətkarın bu günümüzlə səsləşən publisistik yazıları dərc edilmişdir.*

**27.** Həmidova, İ. Azərbaycan Demokratik Respublikasının milli siyasətinin nəzəri problemləri /İlahə Həmidova; elmi red. A.Şükürov. - Bakı, 1995. - 101 s. *Əsərdə XX əsrin əvvəllərində milli müstəqillik uğrunda "Müsavat" partiyasının mübarizəsi işıqlandırılmışdır. Fevral inqilabının milli oyanma prosesinə kömək etməsi, milli dövlət yaratmaq ideyasının geniş yayılması, ADR yarandıqdan sonra onun milli dövlət quruculuğu prinsiplərini tətbiq etməsi cəhdləri, həmçinin gənc respublikada demokratiya və iqtisadi müstəqillik uğrunda mübarizənin çətinliyi nəzərdən keçirilir.*

**28.** İsmayılov, İ. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri /İsrafil İsmayılov; rəyçilər: İ.Ə.Rüstəmov, İ.B.Cəfərzadə. - Bakı: ADNA, 1995. - 200 s. *Kitabda müəllif Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələlərini mövcud sənədlər və faktiki material əsasında şərh edir. Başa vurduğumuz*

*əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli siyasi xadimlərinin fəaliyyətlərinə qiymət verməyə müəllifin cürət etməsi diqqətəlayiqdir.*

**29.** Mustafayev, R. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda /Rövşən Mustafayev. - Bakı: Azərnəşr, 1995. - 233 s. *Monoqrafiyada dövlətin rolu və liderlik məfhumu, inkişafın iqtisadi yolları və iqtisadiyyatın intellektual idarəetmə sistemi məsələlərindən, xarici siyasətin genişlənmə fəlsəfəsindən və s. bəhs edilir.*

**30.** Nəzirli, Ş. Cümhuriyyət generalları /Şəmistan Nəzirli; rəy. Ç.Məmmədov. - Bakı: Hərbi nəşriyyat, 1995. - 212 s. *Kitabda Azərbaycan Demokratik Hökumətinin sərkərdələri haqqında sənədli hekayələr və oçerklər toplanmışdır.*

**31.** Sultanov, O. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə: [Monoqrafiya] /Oqtay Sultanov; elmi red. R.Z.Xəlilov. - Bakı: Maarif, 1995. - 232 s. *Monoqrafiyada 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində sovet imperiyasında baş verən ictimai-iqtisadi və siyasi proseslərlə, beynəlxalq aləmdə baş verən iqtisadi-siyasi dəyişikliklərlə Azərbaycanda genişlənən siyasi mübarizənin vəhdəti ümumiləşdirilir, milli müstəqillik uğrunda mübarizənin səbəbləri təhlil olunur.*

**32.** Tarixi keçmişsiz bu günümüz və gələcəyimiz yoxdur: Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçılarının üçüncü Respublika elmi konfransının məruzələr məcmuəsi /red. hey.: H.Q.Qəniyev və b.; Azərbaycan Tarixi Tədqiqatçılarının Müstəqil Assosiasiyası; "LUKoyl" Neft Şirkəti Səhmdar Cəmiyyəti (Rusiya). - Bakı: Azərbaycan, 1995. - 304 s. *Kitabda arxeologiya, etnoqrafiya, sosiologiya, mə-*

*dəniyyət, sosial-siyasi və ictimai fikir problemləri üzrə Azərbaycan tarixi problemlərinin gənc tədqiqatçılarının üçüncü Respublika elmi konfransının məruzələr məcmuəsi verilmişdir.*

**1996**

**33.** Hüseynov, Ş. Müstəqilliyin çətin yolu /Şirməmməd Hüseynov. - Bakı, 1996. - 326 s. *Kitaba müəllifin 1988-1993-cü illərdə yazılmış AXC-nin fəaliyyətinə dair bir sıra sənədlər, məqalələr daxil edilmişdir.*

**34.** İsmayılov, İ. Azərbaycanda dövlətçilik fikri oçerkləri /İsrafil İsmayılov. - Bakı: Maarif, 1996. - 148 s. *Əsərdə xalqımızın dövlətçilik ənənələri daha geniş tarixi miqyasda, təxminən minillik dövrə aid görüş və fəaliyyətlər oçerk şəklində şərh edilir.*

**35.** Şəmsizadə, N. Azərbaycan ideologiyası /Nizaməddin Şəmsizadə; red. Şirindil. - Bakı: Sabah, 1996. - 103 s. *Əsərdə qədim çağlardan günümüzə qədər Azərbaycan xalqının keçdiyi milli özünüdərk, təfəkkür və dövlətçilik yolu müxtəsər nəzərdən keçirilir.*

**1997**

**36.** Binnətova, A.Ü. Poeziyada milli azadlıq duyğuları: (1985-1992-ci illər): [Monoqrafiya] /Almaz Ülvi Binnətova; elmi red. T.Əhmədov; ön söz müəl. V.Arzumanlı; Azərb. EA, Milli Münasibətlər İns-tu, Nizami ad. Ədəbiyyat İns-tu. - Bakı: Ağrıdağ, 1997. - 116 s. *Kitabda müasir poeziyamızın ən gərgin dövründən, milli özünüdərk, milli oyanış, milli azadlıq hərəkatı prosesində yaranan yeni məzmunlu poetik nümunələrin*

*aktual əhəmiyyətindən danışılır. Demokratiya və milli müstəqillik uğrunda mübarizənin poetikası elmi kontekstdə geniş araşdırılmışdır.*

**37.** Əliyev, H. Müstəqillik yolu: seçilmiş fikirlər /Heydər Əliyev; burax. məsul R.Mehdiyev; tərt. ed.: Ş.Əsgərov, S.Xəlilov; red. Ə.Həsənov. - Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1997. - 136 s. *Kitab Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin siyasi-hüquqi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın aktual problemləri ilə bağlı fəlsəfi yüklü fikirləri toplanıb təsnif edilmişdir.*

**38.** Əzizov, T. Azərbaycan XX əsrin əvvəllərində: Ümumi tarixi icmal /Türyan Əzizov; elmi red. X.Köçərli; rəyç.: Q.Bayramov, S.Allahverdiyev. - Bakı: Zaman, 1997. - 256 s. *Kitab 1901-aprel 1920-ci illərdə Azərbaycanın iqtisadi-sosial və ictimai-siyasi həyatından, mədəniyyətindən bəhs edir. Bu dövrün hadisə və məsələləri hazırkı milli müstəqillik şəraitində təşəkkül tapmış elmi konsepsiyalara uyğun şəkildə gözdən keçirilir.*

**39.** Xəlilov, P. Ədəbiyyat dərslərində milli məfkurə təbliğinin imkan və üsulları: elmi-metodik vəsait /Pənah Xəlilov. - Bakı: Maarif, 1997. - C. 1. - 32 s. *Vəsaitdə tariximizin inkişaf boyu xalqın mənəvi sərvəti folklorumuzu, klassik yazılı ədəbiyyatımızı və aşıq şeirini, yeni (XIX) və ən yeni (XX) əsr ədəbiyyatımızın milli azadlıq məfkurəsinin inikasında əldə etdiyi nailiyyətlər ümumiləşdirilmişdir.*

**40.** Quliyev, V. Ağaoğlular /Vilayət Quliyev; red.: A.Rüstəmli. - Bakı: Ozan , 1997. - 236 s. *Kitabda yazılmış xatirələr Ağaoğlular nəslinin həyat və mübarizələrinə, eyni zamanda Azərbaycan tarixinin qeyri-obyektiv təqdim olunmuş bir sıra səifələrinin üzərinə işıq salır.*

**41.** Nəsibzadə, N. Bölünmüş Azərbaycan, bütöv Azərbaycan: [Məqalələr toplusu] /Nəsib Nəsibzadə; ön söz:

X.İbrahimli; Azərbaycan Araşdırmaları Vəqfi. - Bakı: Ay-Ulduz, 1997. - 246 s. *Kitab iki bölümdən ibarətdir. Birinci bölümündə Şimali Azərbaycanın bir sıra problemləri araşdırılır. İkinci bölüm Cənubi Azərbaycanın əsas problemləri haqqındadır.*

**42.** Öməroğlu, İ. Burulğanlar içində: [Məqalələr toplusu] /İsmayıl Öməroğlu; xüs. red. və ön söz müəl. T.Əhmədov. - Bakı: Günəş, 1997. - 216 s. *Kitabda sovet imperiyasının, sosializm formasiyasının dağılması gedişində Azərbaycan xalqının və dövlətinin başına gətirilən oyunlar, yeni şəraitdə necə yaşayacağımıza dair qayğılar, yeni müstəqillik şəraitində ideologiya məsələləri və insan problemi araşdırılır.*

**43.** Şeyxzamanlı, N. Azərbaycan istiqlal mücadiləsinin xatirələri /Nağı Şeyxzamanlı; red. V.Quliyev; ön söz: Anar. - Bakı: Azərbaycan, 1997. - 176 s.

**44.** Yusifov, M. Dahi şəxsiyyətin nitq fenomenliyi /Mübariz Yusifov. - Bakı, 1997. - 144 s. *Kitabda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin nitqinin xəlqiliyi, Azərbaycan ədəbi dilinin yeni sözlərlə zənginliyi və nitqin təbliği haqqında verilmişdir.*

**1998**

**45.** Abdullayev, V. Millət ideyası: siyasi aspekt /Vaqif Abdullayev; red. A.X.Mustafayev. - Bakı: Təbib, 1998. - 48 s. *Bu kiçik kitabçada ümumiyyətlə millətin yaranmasında, milli şüurun formalaşmasında mühüm mərhələ olan millət ideyasından bəhs edilir.*

**46.** Abdullayev, V. Milli şüur və siyasi proseslər /Vaqif Abdullayev; elmi red. və ön söz: V.Arzumanlı. - Bakı: Təbib, 1998. - 112 s. *Bu kitabda milli şüurun formalaşmasında si-*

*yasi amillərin rolundan bəhs olunur. Oxucular milli şüurun politoloji təhlili, milli şüurun formalaşmasında siyasi amillərin rolu, həmçinin bu sahədə ictimai elmlər qarşısında duran vəzifələrlə tanış olacaqlar.*

**47.** Azərbaycan Xalq Cümhuriyyətinin milli siyasəti /tərt. ed. və elmi red. V.Arzumanlı. - Bakı: Qartal, 1998. - 200 s. *ADR-in 80 illiyi münasibətilə hazırlanmış kitaba əsasən, Cümhuriyyətin milli siyasətini, dövlət quruculuğu məsələlərini, ilk demokratik dövlət qurumunun ictimai-siyasi fəaliyyətinin bir sıra maraqlı səhifələrini əhatə edən araşdırmalar daxil edilmişdir.*

**48.** Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri: Azərbaycan Araşdırmaları Vəqfinin 25-26 aprel 1997-ci ildə "Azərbaycanın Türkçülük və Azərbaycançılıq problemləri" mövzusunda keçirdiyi elmi-nəzəri konfransın materialları /Azərbaycan Araşdırmaları Vəqfi; red.: S.Hacı; ön söz: Ə.Kərimov. - Bakı: Ay-Ulduz, 1998. - 160 s. *Kitaba milli ideologiyamızın təməli olan Türkçülük və Azərbaycançılıq problemlərinə dair son araşdırmalar daxil edilmişdir. Elm adamları ilə yanaşı, siyasət adamları da Türkçülüyün və Azərbaycançılığın çağdaş yozumunu verməyə çalışmışlar.*

**49.** Bəşirli, A. Prezident '93-'97 /Aynur Bəşirli (tərtibçi müəl.); foto.: R.Bağırov, O.Məmmədov. - Bakı: WestPrint Digital Design Center, 1998. - Kb.1: Xronika (1993-1997). - 200 s. *Müstəqillik tariximizin ağır və məsuliyyətli bir dövrünü əhatə edən bu nəşr Azərbaycan Prezidenti Heydər Əliyev cənablarının 1993-cü il iyun ayının 9-dan 1997-ci il oktyabr ayının 10-a qədər olan siyasi fəaliyyətinin salnaməsidir.*

**50.** Əhmədov, Q. Müsahiblərim: Demokratik idarəetmənin rəhbər kadrları /Qalib Əhmədov. - Bakı: Siyasət, 1998. - 272 s. *Kitabda müəllif tez-tez müraciət etdiyi dövlətçilik*

*mövzusuna sadiq qalmış, lakin bu dəfə problemi nəzəri-siyasi aspektdən deyil, daha çox konkret əməli misallar əsasında işıqlandırmışdır.*

**51.** Köcərli, T. İstiqlal və suverenlik /Tofiq Köçərli; red. N.Hacızadə. - Bakı: Diplomat, 1998. - 42 s. *Kitabda AXC-nin xarici dövlətlərlə münasibətlərində Azərbaycanın ardıcıl və prinsipial mövqeyi əks olunmuşdur.*

**52.** Müstəqil Azərbaycan 80 il tarix səhnəsində: (Sənədlər, məqalələr toplusu) /tərt. Ed. Qurban İbrahimoğlu. - Bakı: Vətən, 1998. - 215 s. *Kitabda ilk Demokratik Azərbaycan Respublikasının elan edilməsi, xarici və daxili siyasəti verilmişdir.*

**53.** Nuriyev, S. Müasir sivilizasiya və milli inkişafın xüsusiyyətləri /Sabir Nuriyev; ixt. red. Ə.M.Tağıyev. - Bakı: Çaşıoğlu, 1998. - 88 s. *Monoqrafiya müasir milli inkişafın aktual problemlərindən birinə – sivilizasiya ilə milli inkişaf xüsusiyyətlərinin qarşılıqlı əlaqəsinə həsr olunmuşdur. Kitabda müasir milli inkişafın xarakter xüsusiyyətləri, onların sivilizasiya ilə əlaqəsi və nisbəti məsələsi araşdırılır.*

**54.** Rəsulzadə, M.Ə. Azərbaycan davası /Məhəmməd Əmin Rəsulzadə. - Bakı: Ay-Ulduz, 1998. - 64 s. *Kitabda Rəsulzadənin mühacirətdəki əsərləri; Azərbaycan davası; Milli Azərbaycan hərəkatınıın xarakteri; Azərbaycan dövlətinin böyük dövlətlər tərəfindən tanınması; "Amerikanın səsi" radiosu ilə Azərbaycan xalqına müraciətləri və s. verilmişdir.*

**55.** Seyidzadə, D. Azərbaycan XX əsrin əvvəllərində: Müstəqilliyə aparan yollar /Dilarə Seyidzadə. - Bakı: Azərbaycan Respublikasının Kitab Cəmiyyəti, 1998. - 253 s. *AXC-nin yaranması dövrünü tədqiq edən bu kitabda Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərin geniş mənzərəsi öz əksini tapmış, mükəmməl təhlil olunmuşdur.*

**56.** Şeyxzamanlı, N. Azərbaycan istiqlal mücadiləsi xatirələri / Nağı Şeyxzamanlı; red. V.Quliyev; ön söz: Anar. - Bakı: Azərbaycan, 1998. - 176 s. *Kitabda Azərbaycan istiqlal mücadiləsi dövrü haqqında qiymətli məlumatlar verilmişdir.*

**1999**

**57.** Əliyev, H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir /Heydər Əliyev; red. hey.: A.Paşazadə [və b.]; ön söz: R.Əliyev; "İrşad" İslam Araşdırmaları Mərkəzi. - Bakı: Əbilov, Zeynalov və oğulları, "İrşad" mərkəzi, 1999. - 166 s. *Kitabda Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin Bakıda keçirilmiş "Müasirlik və dini-mənəvi dəyərlər" beynəlxalq konfransında və Qafqaz müsəlmanlarının X qurultayında (30 sentyabr - 1-2 oktyabr 1998-ci il) və "İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumda, simpoziumun iştirakçılarının bir qrupu ilə görüşündə (9-11 dekabr 1998-ci il) nitqləri yer almışdır.*

**58.** Xudiyev, N. Yüksəliş yollarında: (məqalələr, müsahibələr) /Nizami Xudiyev; elmi red. Q.Mustafayeva. - Bakı: Təhsil, 1999. - 166 s. *Kitabda müstəqillik dövründə cəmiyyətin ictimai-siyasi həyatında, eləcə də mənəvi, elmi və mədəni həyatımızda baş verən mühüm hadisələr və onlara vətəndaş-ziyalı münasibəti əsas yer tutur.*

**59.** Köçərli, X. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahəsində fəaliyyəti: 1918-1920-ci illər. Tədris vəsaiti: /Xəlil Köçərli, X.Məmmədov; elmi red. C.P.Həsənli. - Bakı: Biznes Universiteti, 1999. - 89 s. *Kitabda ilk mənbələr - arxiv materialları, sənədli mənbələr və dövri mətbuat materialları əsasında çarizmin Azərbaycanda təhsil, elm və mədəniyyət sahəsində şovinizm siyasəti, cümhuriyyətəqədərki*

*dövrdə təhsil, elm və mədəniyyətin vəziyyəti araşdırılır, Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyəti inkişaf etdirmək sahəsindəki fəaliyyəti işıqlandırılır.*

**60.** Quliyev, İ. İstiqlalın sabahına doğru /İlqar Quliyev; N.Qədirov; məsl. A.Novruzov; red. T.Kərimli. - Bakı: Elm, 1999. - 188 s. *Kitabda Azərbaycan Sərhəd Qoşunlarının AXC dövründə təşəkkülü, formalaşması, respublikanın suverenliyinin qorunması işində şərəfli fəaliyyəti və keçdiyi şanlı yol işıqlandırılır.*

**61.** Məmmədov, Ə. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə: [80-cı illərin sonu - 1997-ci il] /Əli Məmmədov; elmi red.: M.Qasımov, S.Məmmədov. - Bakı: Elm, 1999. - 360 s. *Monoqrafiyada 80-ci illərin axırı, 90-ci illərdə müstəqil Azərbaycan dövlətinin bərpası və onu möhkəmləndirmək uğrunda xalqın gərgin və ardıcıl mübarizəsi araşdırılır, habelə müstəqil azərbaycan dövlətinin xarici ölkələrlə iqtisadi, siyasi, mədəni əlaqələrinin bərpası, möhkəmləndirilməsi, ölkənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan mübarizə ümumiləşdirilir.*

**62.** Məmmədov, X. Aydınlarımızın istiqlal mücadiləsi /Xaqani Məmmədov; elmi red. C.P.Həsənli; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Biznes Uni-ti. - Bakı: Biznes Universiteti, 1999. - 88 s. *Kitabda Azərbaycan xalqının milli azadlıq mübarizəsində görkəmli rol oynayan, maarifçilik hərəkatında, milli demokratik fikrin formalaşmasında, istiqlal mücadiləsinin ümumi məcraya yönəldilməsində və gerçəkliyə çevrilməsində, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz tarixi xidmətləri olan aydınlarımızın həyat və fəaliyyəti haqqında məlumat verilmişdir.*

**2000**

**63.** Azərbaycan gömrüyü mənəvi dəyərlərin keşiyində /red. Y.Şeyxov; diz.: F.Həsənov, O.Məlikov; foto.: R.Gülməmmədov, S.Ələsgərov; Caspian Communications LTD. - Bakı: Azərbaycan, 2000. - 93 s. +1 CD-ROM. *Bu nəşrdə ölkədən qanunsuz çıxarılarkən gömrük əməkdaşları tərəfindən götürülmüş islam dininə aid əski kitabələri təqdim olunmuşdur. Məhəmməd peyqəmbərə ithaf olunmuş "Varlığın zinəti" adlı musiqili-poetik Nəti-şərifin kompakt-diski sizə təqdim olunur. Əsərdə N.Gəncəvinin "Xosrov və Şirin" poemasının məşhur "Peyğəmbərin tərifi"ndən istifadə olunub. Musiqi kompozisiyasının müəllifi bəstəkar R.Mirişlidir.*

**64.** Azərbaycanda dövlətçilik və onun rəmzləri /Azərbaycan EA Azərbaycan Tarixi Muzeyi; tərt. və mətnin müəl. N.Vəlixanlı. - Bakı, 2000. - 96 s. - *Azərbaycan və rus dilində. Kitab beşminillik tarixi əhatə edir, dövlətçiliyin rəmzləri olan sərhədlər, hökmdarlar, dövlət xadimləri, şəhərlər, pul nişanları, rəmzlər haqqında məlumat verilir.*

**65.** Babayev, T. Ömrünüzə nur calansın /Tofiq Babayev. - Bakı: Azərnəşr, 2000. - 62 s. *Kitab xalqımızın zaman-zaman qazandığı milli-mənəvi inciləri, dəyərləri, mədəniyyəti yada salır, Azərbaycan dövlətçiliyinin daha da inkişaf etdirilməsində və möhkəmləndirilməsində bu mütərəqqi adətlərin, xeyirli ənənələrin qorunmasından və daha da zənginləşdirilməsindən söhbət açır, vətəndaşlıq problemləri qaldırır.*

**66.** Bayrağımız, gerbimiz, himnimiz /tərt. ed. H.Cəmilzadə. - Bakı: Nağıl evi, 2000. - 19 s. *Kitabçada Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 1918-1920-ci illərdə ADR-in qəbul etdiyi dövlət rəmzləri haqqında*

*məlumat verilir və Azərbaycanın 2-ci müstəqillik dövründə də həmin atributların müstəqilliyinin simvolu kimi qəbul etdiyi göstərilir.*

**67.** Heydər Əliyev və Gürcüstan /bur. məs., tərt. ed. və ön söz: H.Hacıyev; gürcü varian. red., tərc. M.Mamaladze; tərc. L.Qabeçava. - Bakı, Tbilisi, 2000. - 423 s. *Gürcüstan və Azərbaycan müstəqillik əldə etdikdən sonra iki xalq, iki dövlət arasında münasibətləri əks etdirən bu kitab Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əlirza oğlu Əliyevin Gürcüstanla bağlı fəaliyyətinə həsr olunmuşdur.*

**68.** Qubatoğlu, B. Milli münasibətlərin təkmilləşdirilməsi və mənəvi mədəniyyətin tərbiyəvi rolu /Böyükağa Qubatoğlu; elmi red.: N.Mikayılov, Ə.Tağıyev. - Bakı: Nurlan, 2000. - 205 s. *Monoqrafiyada milli-iqtisadi mənafeyin, milli ideologiyanın, sosial-siyasi məqsədlərin vəhdəti əsasında sıx birləşmiş, keyfiyyətcə sosial və mənəvi birlik olan Azərbaycan xalqında dostluq, həmrəylik, humanizm, vətənpərvərlik, milli münasibətlərin təkmilləşdirilməsi, mənəvi mədəniyyətin beynəlmiləl şüurun formalaşdırılmasında rolu, əhəmiyyəti tədqiq və təhlil edilir.*

**69.** Nəcəfli, T. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında /Tofiq Nəcəfli; elmi red.: O.Ə.Əfəndiyev; AEA A.Bakıxanov adına Tarix İnstitutu. - Bakı: Çaşıoğlu, 2000. - 198 s. *Əsərdə Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi problemi, həmin dövlətlərin siyasi tarixi, dövlət quruluşu, hərbi və idarə sistemi istifadə edilərək təhlil edilmişdir.*

**70.** Orucov, T. Zamanın ruhu /Telman Orucov. - Bakı: Şuşa, 2000. - 360 s. *Kitab dövrün siyasi və sosial problemlərinə dövlətçilik fəlsəfəsinə həsr edilmişdir. Kitabda insan haqları, demokratik prinsiplər, qanunların aliliyi məsələlərinə xeyli yer*

*verilir. Esselərdə ədəbiyyat və incəsənət sahəsindəki proseslər öz əksini tapmışdır.*

**71.** Rasim, M. Türkçülüyün babası: Əli bəy Hüseynzadənin fikir dünyası /Mirzə Rasim; elmi red. Y.Qarayev. - Bakı: Elm, 2000. - 172 s. *Kitabda dahi şəxsiyyətin ictimai fikir tariximizdə, milli ideologiyanın formalaşmasında, ədəbiyyatımızın və mətbuatımızın inkişafındakı rolu göstərilmişdir.*

**72.** Şüküroğlu, L. Cümhuriyyət hökuməti repressiya məngənəsində: [2 cilddə] /Lətif Şüküroğlu; red. F.İskəndərov; məsl. B.Əhmədov. - Bakı: Şirvannəşr, 2000. - C. 1. - 296 s. *Kitabda 1920-ci il aprel çevrilişindən sonra sovet cəza orqanları tərəfindən repressiyalara məruz qalmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hər iki sədri, nazirləri və digər yüksək vəzifə sahiblərinin nəsillərə örnək olan həyat və fəaliyyətlərindən bəhs edilir.*

**73.** Şüküroğlu, L. Cümhuriyyət hökuməti repressiya məngənəsində: [2 cilddə] /Lərif Şüküroğlu; red. F.İskəndərov; məsl. B.Əhmədov. - Bakı: Şirvannəşr, 2000. - C. 2. - 256 s. *Kitabda 1920-ci il aprel çevrilişindən sonra sovet cəza orqanları tərəfindən repressiyalara məruz qalmış Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri, nazirləri və digər yüksək vəzifə sahiblərinin nəsillərə örnək olan həyat və fəaliyyətlərindən bəhs edilir.*

**2001**

**74.** Arzumanlı, V. Azərbaycan diasporu: Reallıqlar, qayğılar, problemlər /Vaqif Arzumanlı; red. Vəli Həbiboğlu; AMEA, Beynəlxalq Münasibətlər İnstitutu. - Bakı: Qartal, 2001. - 800 s. *Monoqrafiyada Azərbaycan diasporunun aktual problemləri nəzərdən kecirilir. Müəllif dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diasporumuzun ictimai siyasi, sosial*

*mədəni həyatını izləmiş, onun bəzi maraqlı və qiymətli səhifələrini araşdırmışdır.*

**75.** Azərbaycanın dövlətçilik tarixində Səfəvilər dövlətinin yeri: Elmi-nəzəri konfransın materialları /Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi; red. Ş.Səlimbəyli. - Bakı: Sərbəst Düşüncə, Ağrıdağ, 2001. - 136 s.

**76.** Azərbaycan Respublikası: 1991-2001 /A.Fatma və b.; red. R.Mehdiyev. - Bakı: XXI-Yeni nəşrlər evi, 2001. - 359 s. *Kitabda Vətənimizin qədim tarixi, zəngin dövlətçilik ənənələri, milli-mənəvi dəyərləri, ədəbiyyat və incəsənəti, elmi, təhsili və s. barədə ümumi şəkildə yığcam – ensiklopedik xarakterli məlumatlar verilmişdir.*

**77.** Azərbaycan yeni minillikdə. Dövlət Kitabı /ümumi red.: A.Rasizadə, R.Mehdiyev, F.Abdullazadə. - Bakı: Books for the Establishment Ltd, 2001. - 432 s. *Azərbaycan Dövlət Kitabında Azərbaycan Respublikasının Ərazisi, Konstitusiyası, Prezidenti, Dövlət Bayrağı, Dövlət Gerbi, Dövlət Himni, Milli Məclisi, Bakı, Qobustan, İçəri Şəhər, neft sənayesi, iqtisadiyyatı, ədəbiyyatı, təhsili, silahlı qüvvələri, Milli geyimləri, dövlətçilik rəmzləri, təsviri sənəti, zərgərlik məmulatları və s. haqqında məlumat verilmişdir.*

**78.** Bayramov, Q. Yaşar Qarayev: milli yaddaş təlimi - Azərbaycançılıq /Qurban Bayramov, J.Qurbanqızı; elmi red. N.Cəfərov; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Uni-ti. - Bakı: BDU, 2001. - 138 s. *Kitabda müasir dövrün tanınmış, görkəmli tənqidçi və ədəbiyyatşünası, filologiya elmlər doktoru, professor, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı Yaşar Qarayevin zəngin, çoxistiqamətli yaradıcılıq yolu milli yaddaş və azərbaycançılıq elmi-nəzəri təliminin problemləri işığında tədqiq olunur.*

**79.** Cəfərov, N. Azərbaycan: dil, ədəbiyyat və mədəniyyət: [məqalələr toplusu] /Nizami Cəfərov; elmi red. H.İmanov; baş red. M.Əlizadə. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2001. - 78 s. *Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor N.Q.Cəfərovun bu kitabına müəllifin azərbaycançılığa dair məqalələri daxildir.*

**80.** Cəfərov, N. Azərbaycanlılar: Etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri /Nizami Cəfərov. - Bakı: YNE, 2001. - 176 s.

**81.** Həbiboğlu, V. Azərbaycanlıların soyqırımının təşkilatçısı /Vəli Həbiboğlu; elmi red. İ.Məmmədov. - Bakı: Qartal, 2001. - 100 s. *Kitabda xalqımızın qəddar düşməni Stepan Şaumyanın qatı şovinist millətçilik rolu açılıb göstərilir, 1918-ci ildə azərbaycanlıların soyqırımında təşkilatçılıq fəaliyyəti işıqlandırılır.*

**82.** Hüseynova, İ. Dövlətçilik naminə /İradə Hüseynova; elmi red. və ön söz: Ə.Əhmədov. - Bakı: Bakı Universiteti, 2001. - 285 s.

**83.** Xalqa bağışlanan ömür: Bu kitab Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əlirza oğlu Əliyevin ömrünün 78-ci ildönümünə həsr olunur /tərt.: Ş.Mirzəyev, S.İsmayılov; red. Ş.Şəmsizadə. - Bakı: Nurlan, 2001. - Kb.1. - 218 s. *Kitabda H.Əliyevin 30 ildən artıq bir dövrdə Vətənin, xalqın inkişafı naminə misilsiz xidmətlər göstərməsi, ölkənin ən ağır günlərində ona rəhbərliyi öz üzərinə götürərək, yenicə müstəqillik qazanmış respublikanı parçalanıb məhv olmaqdan xilas etməsi haqqında bütün dünyada etiraf olunmuş və ən müxtəlif səviyyəli insanların dilindən ürək sözləri verilmişdir.*

**84.** Xəlilov, S. Lider. Dövlət. Cəmiyyət /Səlahəddin Xəlilov; elmi red. Ə.Həsənov. - Bakı: Azərbaycan Universiteti, 2001. - 358 s. *Kitab Azərbaycan Respublikasının müstəqillik illərində keçirdiyi*

*inkişaf yolunun fəlsəfi təhlilinə və bu müstəqilliyin dönməzliyinin təminatçısı olan cənab Heydər Əliyevin ideyalarının elmi-nəzəri şərhinə həsr olunmuşdur.*

**85.** İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur /tərtibçi: Ana Vətən Partiyasının Siyasi Araşdırmalar Mərkəzi və Mətbuat Xidməti; burax. məsul və ön söz: F.Ağamalı. - Bakı: Azərbaycan, 2001. - Kb.1. - 552 s.

**86.** Kərimli, E. Moskvada Azərbaycan diasporu: nəzəriyyə və praktika /Etibar Kərimli; red. N.Rəhmanlı. - Bakı: Şuşa, 2001. - 240 s. *Kitab bir zamanlar Moskva şəhərində müxtəlif silsilələr altında qələmə alınmış və Respublika mətbuatında çap olunmuş məqalələr toplusundan, eləcə də son aylar ərzində Bakıda yazılıb tamamlanmamış nəzəri hissədən ibarətdir. Burada daspor və cəmiyyət, diaspor və siyasət, diaspor və mədəniyyət məsələlərinə xüsusi yer ayrılmışdır.*

**87.** Quliyev, A. Nəsirəddin Tusi dövlət, siyasət və qanun haqqında /Aqşin Quliyev. - Bakı: Qanun, 2001. - 268 s. *Kitabda Məhəmməd Nəsirəddin Tusinin dövlət, qanunçuluq və siyasət haqqında təliminin təhlili verilmişdir.*

**88.** Mərdanov, M. Azərbaycan Respublikasının dövlət rəmzləri /Misir Mərdanov, Ə.Q.Quliyev; elmi red. R.Mehdiyev. - Bakı: Çaşıoğlu, 2001. - 272 s. *Kitabda ilk dəfə olaraq sistem halında müstəqil Azərbaycanın dövlət rəmzlərinin yaranması tarixi izlənilir, milli rəmzlərin bərpası və qəbulu yolunda Prezident cənab Heydər Əliyevin müstəsna rolu göstərilir, milli himnimizin təkamülü və ideya-məzmun xüsusiyyətləri tarixi-filoloji planda təhlil edilir.*

**89.** Müstəqil dövlətimiz və parlamentimiz /məs. red. M.Ələsgərov; tərt.: A.Babayev, H.Babayev. - Bakı: Azərbaycan Respublikası Milli Məclisi, 2001. - 554 s. *Kitab Azərbaycanın müstəqilliyindən, dövlət quruculuğundan və parlamentindən bəsh edir.*

**90.** Rəsuloğlu, B. Azərbaycan yolunda: Məqalələr toplusu /Böyük bəy Rəsuloğlu; elmi red. və ön sözün müəll.: V.Arzumanlı; Azərbaycan Elmlər Akademiyası Beynəlxalq Münasibətlər İnstitutu. - Bakı: Qartal, 2001. - 340 s. *Kitabda Şimali və Cənubi Azərbaycanın müxtəlif problemlərini əhatə edən məqalələr toplanmışdır. İqtisadi, siyasi, ictimai, tarixi mövzularda yazılmış məqalələrlə yanaşı, burada elmi, elmi-texniki və dövlətçilik məsələlərini əhatə edən yazılar da verilmişdir.*

**91.** Səfərov, S. 10 il müstəqillik və iqtisadiyyat /Səttar Səfərov; red. A.Abdullayev. - Bakı: Azərnəşr, 2001. - 328 s. *Kitabda faktiki materialların sistemləşdirilməsi, müqayisəli təhlili əsasında 10 ildə keçdiyimiz yolun, qazandığımız uğurların və uğursuzluqların, qarşıda duran vəzifələrin şərhi verilir.*

**92.** Yaqublu, N. Azərbaycan milli istiqlal mübarizəsi və Məmməd Əmin Rəsulzadə /Nəsiman Yaqublu; rəy.: Ş.Hüseynov, İ.Musayev, N.Nəsibli və b. - Bakı, 2001. - 154 s. *Kitabda M.Ə.Rəsulzadənin Azərbaycan İstiqlalı uğrunda apardığı mübarizənin müəyyən məqamları açıqlanır.*

**2002**

**93.** Abbasov, A. Milli dövlətçilik məfkurəsi və layiqlik: Genezis və təkamül /Aydın Abbasov; elmi red. Ş.Məmmədov. - Bakı: Bakı Universiteti, 2002. - 251 s. *Kitab Türk dövlətlərinin genezisinə, müasir dövrdə milli dövlətçilik, azərbaycançılıq və türkçülük prinsiplərinə, milli siyasət və milli hədəf və s. məsələlərə həsr olunmuşdur.*

**94.** Atabəyi, T. Azərbaycan: etnik mənsubiyyəti və İranda qüdrət uğrunda mübarizəsi /Turac Atabəyi; tərcümə edəni Nigar Eynulla qızı Mədətli; elmi red. Yaqub Mahmudlu. - Bakı: Təhsil, 2002. - 248 s. *Kitabda Səttar xan və*

*Məşrutə hərəkatı, Şeyx Məhəmməd Xiyabani hərəkatı, Azərbaycan Xalq Cümhuriyyəti tarixi, S.C.Pişəvarinin başçılığı ilə Azərbaycan Milli hökumətinin yaranması və süqutu məsələləri küll halında oxucuların mühakiməsinə verilir.*

**95.** Azərbaycan Dövlət Müstəqilliyinin 10 illiyinə həsr olunmuş "Suverenlik, demokratiya, dövlət idarəçiliyi" mövzusunda elmi sessiyanın materialları: (10 oktyabr 2001-ci il) /red. hey.: S.T.Qəndilov (baş red.) və b.; Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı, 2002. - 163 s.

**96.** Azərbaycan Xalq Cümhuriyyətinin 84-cü ildönümünə həsr olunmuş Respublika Elmi Konfransının materialları /nəşriyyat red. E.Ə.Məhərrəmov; red. hey.: T.T.Mustafazadə [və b.]. - Bakı: Ağrıdağ, 2002. - 157 s.

**97.** Azərbaycan 1994: [toplu]: 2 hissədə. - Bakı, 2002. - H.1: Milli dövlətçilik sınaq qarşısında. - 472 s. *Kitab 1994-cü ildə Azərbaycanda ictimai-siyasi və sosial-iqtisadi vəziyyəti, AR Prezidenti H.Əliyevin müstəqil dövlət quruculuğu sahəsində həyata keçirdiyi daxili və xarici siyasətin əsas istiqamətlərini əks etdirir.*

**98.** Azərbaycan 1994: 2 hissədə: [toplu]. - Bакı, 2002. - H.2: Milli dövlətçilik sınaq qarşısında. - 432 s. *Topluya Prezident Heydər Əliyevin müxtəlif görüşlərinin materialları, ən mühüm çıxış və müsahibələri daxil edilmişdir.*

**99.** Azərbaycan müstəqillik yollarında mövzusunda elmi-nəzəri konfransın materialları: [tarixi həqiqətlər, faktlar və reallıqlar]: (2 may 2002-ci il) /çapa haz. Siyasi Partiyaların Məşvərət Məclisi; tərtib ed. və ön sözün müəll. X.Kazımlı; red. heyəti: M.Əlizadə [və b.]. - Bakı: Bakı Universiteti, 2002. - 526 s.

**100.** Azərbaycançılıq - birliyimizin əsasıdır: 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında və "Gülüstan" sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. - Bakı: Azərbaycan nəşriyyatı, 2002. - 34 s. *Kitabda Azərbaycan Prezidenti nitqində Dünya Azərbaycanlılarının qarşısında duran vəzifələrdən, onların daha sıx əlaqə qurmalarının vacibliyindən, öz həmrəyliklərini bəyan etməsindən və s. ətraflı danışmışdır.*

**101.** Budaqov, B. Heydər Əliyev fenomeni /Budaq Budaqov. - Bakı: İsmayıl NPM, 2002. - 136 s. *Əsərdə xalq içərisindən çıxmış, xalqla yüksələrək xalqı yüksəltmiş böyük tarixi şəxsiyyət - Heydər Əliyev haqqında mülahizələri verilir.*

**102.** Cəfərov, N. Azərbaycanşünaslığa giriş /Nizami Cəfərov; elmi red. H.R.İmanov; red. S.A.Nəzərli; Azərbaycanda Atatürk Mərkəzi. - Bakı: AzAtaM, 2002. - 600 s. *Əsərin ideya-metodoloji əsasında böyük mütəfəkkir Heydər Əliyevin- azərbaycançılıq (və azərbaycanşünaslıq) barədəki fikirləri, mülahizələri dayanır ki, həmin fikirlərin, mülahizələrin əməli nəticəsi Azərbaycan xalqının tarixi idealı (və şah əsəri) olan Azərbaycan Respublikasıdır.*

**103.** Dünya Azərbaycanlılarının I Qurultayı: Bakı şəhəri, 9-10 noyabr 2001-ci il /bur. məsul R.Ə.Mehdiyev; tərt. Ə.M.Həsənov. - Bakı: Azərbaycan nəşriyyatı, 2002. - 351 s. *Kitabda 2001-ci ilin noyabrın 9-10-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayının materialları toplanmışdiır. Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, qurultayın açılışında Prezident H.Əliyevin nitqi, nümayəndələrin və komissiya sədrlərinin çıxışları, qurultayın hesabat məruzəsi və*

*qəbul etdiyi sənədlər, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurası, onun idarə heyətinin tərkibi, qurultay iştirakçılarının siyahısı və s. materiallar verilmişdir.*

**104.** Heydər Əliyev və azərbaycançılıq məfkurəsi /elmi red., ön sözün müəl. R.Ə.Mehdiyev; tərt. -müəl. S.S.Xəlilov. - Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2002. - 232 s. *Kitab Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin ideyaları əsasında formalaşan azərbaycançılıq təliminin elmi-nəzəri və ideoloji bir sistem kimi şərhinə həsr olunmuşdur. Burada H.Əliyevin ana dili, milli-mənəvi dəyərlərimiz və mədəniyyətimizlə bağlı fikirləri sistemli şəkildə şərh olunmuşdur.*

**105.** Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə /İsa Həbibbəyli; red. Dilsuz; naşir Q.İsmayıloğlu. - Bakı: Çinar-Çap, 2002. - 60 s. *Kitabda görkəmli Azərbaycan yazıçısı, böyük demokrat və ictimai xadim Cəlil Məmmədquluzadənin (1869-1932) həyat və yaradıcılığından, milli müstəqillik və azərbaycançılıq uğrunda apardığı mübarizədən bəhs olunur.*

**106.** İbrahimli, Ə. Yusif Vəzir Çəmənzəminli və milli məsələ: [monoqrafiya] /Əli İbrahimli; elmi red. V.Arzumanlı; rəy.: T.Hüseynoğlu, Ə.Tağıyev; AMEA, Beynəlxalq Münasibətlər İns-tu. - Bakı: Qartal, 2002. - 152 s. *Monoqrafiya görkəmli yazıçı, folklorşünas, tarixçi-etnoqraf, publisist və diplomat Y.V.Çəmənzəminlinin yaradıcılığında milli məsələyə həsr olunmuşdur. Kitabda tarixən problematik görünən milli məsələnin əsasları, özünəməxsus xüsusiyyətləri aydınlaşdırılmış, müasirlik və aktuallıq kəsb edən məsələnin dövrə münasib izahı verilmişdir.*

**107.** Quliyeva, X. Heydər Əliyev və mənəvi-estetik dəyərlər: [Monoqrafiya] /Xatirə Quliyeva; elmi red. və ön söz müəl. V.Həbiboğlu; red. N.Məmmədli. - Bakı: Azərnəşr,

2002. - 176 s. *Monoqrafiyada Azərbaycan Respublikasının Prezidenti, dünya şöhrətli siyasi xadim, cənab Heydər Əliyevin irsi konteksində Siyasət və Estetika: təsir, əlaqə, münasibətlər problemi tədqiq-təhlil olunur.*

**108.** Mahmudov, Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti /Yaqub Mahmudov; elmi red.: Ə.M.Həsənov. - Bakı: Təhsil, 2002. - 328 s. *Kitabda Heydər Əliyev şəxsiyyətinə Azərbaycanın dövlətçilik tarixi fonunda nəzər salınır.*

**109.** Ümumtürk pedaqoji fikrində əxlaqi-mənəvi dəyərlər /F.Rüstəmov [və b.]; elmi red. və ön söz: Vilayət Əliyev; rəy.: Əmrulla Paşayev, Buludxan Xəlilov; ADPU-nun "Dədə Qorqud" Elmi-Tədqiqat Mərkəzi.- Bakı: Nurlan, 2002. - 104 s. *Kitab ADPU "Dədə Qorqud"elmi-tədqiqat mərkəzinin pedaqogika-psixologiya-fəlsəfə bölməsinin əməkdaşlarının 2002-ci ildə apardıqları elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuşdur.*

**110.** Vəliyeva, S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi: məsələnin qoyuluşuna dair /Sona Vəliyeva; elmi red. Y.Qarayev. - Bakı: Azərbaycan Universiteti, 2002. - 140 s. *Kitabda azərbaycançılığın milli ideologiyaya və ədəbi-estetik təlimə çevrilməsinin tarixi zəmini işlənmiş, milli-mənəvi və ideya-siyasi əsaslarını təşkil edən azərbaycançılığın mürəkkəb prosesi araşdırılır.*

**111.** Vəziroğlu, A. Ayağa dur Azərbaycan!: Çağdaş Azərbaycan poeziyasında milli vətənpərvərlik mövqeyi (1980-1990-cı illər) /Anar Vəziroğlu; elmi red. A.Hacıyev. - Bakı: Ulu, 2002. - 168 s. *Publisist-jurnalist A.Vəziroğlunun bu kitabında 1980-1990-cı illər Azərbaycan poeziyasının keçdiyi yol işıqlandırılır.*

**2003**

**112.** Anar. Azərbaycançılıq haqqında düşüncələr = Раздумия об Азербайджане /Anar; Azərb. dilindən tərc.: S.Məmmədzadə. - Bакı: Nurlan, 2003. - 90 s. - *Mətn paralel azərb. və rus dillərindədir.*

**113.** Cəfərov, N. Ədəbiyyatdan siyasətə /Nizami Cəfərov; elmi red. N.S.Əhmədli; red. S.A.Nəzərli; Azərbaycanda Atatürk Mərkəzi. - Bakı: AzAtaM, 2003. - 106 s. *Professor, Azərbaycan MEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Nizami Cəfərovun "Ədəbiyyatdan siyasətə" kitabına son illərdə yazdığı elmi-publisistik məqalələri daxildir*.

**114.** Cəfərova, V. Azərbaycan müstəqillik dövründə: Problemlər, perspektivlər: (1991-2003) /Vəsxanım Cəfərova; elmi red. Ə.Əhmədov. - Bakı: Şirvannəşr, 2003. - 294 s.

**115.** Cəlal oğlu, Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi /Qoşqar Cəlal oğlu; elmi red. P.Ə.Mehdiyev. - Bakı: Qismət, 2003. - 248 s.

**116.** Dünya azərbaycanlıları: tarix və müasirlik: (Elmi-nəzəri toplu) /Bakı Dövlət Uni-ti, Tarix fakültəsi, Azərbaycanşünaslıq Elmi-tədqiqat Mərkəzi "Dünya azərbaycanlıları" bölməsi; red. hey.: Y.M.Mahmudov, K.K.Şükürov, U.M.Paşayeva; red. M.M.Əlizadə. - Bakı: Bakı Universiteti, 2003. - Bur. 1. - 156 s.

**117.** Elçibəyin bütöv Azərbaycan düşüncələri /tərtibçi: Ə.Tahirzadə; red. A.Rəhimoğlu. - Bakı, 2003. - 44 s.

**118.** Əhmədov, B. Bir istiqlal yolçusu...: Əmin Abid: həyatı, mühiti, yaradıcılığı /Bədirxan Əhmədov; elmi red. Nazif Qəhrəmanlı; AMEA Nizami ad. Ədəbiyyat İnstitutu. - Bakı: Elm, 2003. - 204 s. *Müəllif monoqrafiyada tariximizin görkəmli tədqiqatçısı-folklorşünas, qorqudşünas, axundovşünas və*

*istiqlal şairi Ə.Abidin (Gültəkin) elmi tərcümeyi-halını, ədəbi tənqidi və poetik irsini araşdırmağa nail olub.*

**119.** Əliyev, Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi /Qoşqar Əliyev; elmi red. R.Ə.Mehdiyev. - Bakı: Qismət, 2003. - 248 s. *Bu kitabda H.Əliyevin sosial fəlsəfəsinin və xalqın mentalitetinin elmi-metodoloji prinsipləri açıqlanır. Xalqın mentalitetinin qaynaqları, tarixi yaddaş, vətən amalı, azərbaycançılıq ideyası, milli həmrəylik və siyasi mentalitet kimi az tədqiq olunan problemlər şərh olunur.*

**120.** Əliyev, V. Heydər Əliyevin dil siyasəti: Azərbaycan Respublikası Prezidenti möhtərəm Heydər Əliyevin anadan olmasının 80 illik yubileyinə həsr olunur /Vilayət Əliyev; red. Nizami Cəfərov. - Bakı: Nurlan, 2003. - 100 s.

**121.** Əliyeva, N. Müstəqilliyimiz, mənəviyyatımız: (Məqalələr toplusu) /Nurlana Əliyeva; red. Nizami Cəfərov. - Bakı: Araz, 2003. - 494 s.

**122.** Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu: Konfrans materialları /Yeni Azərbaycan Partiyası. - Bakı: Azərbaycan, 2003. - 640 s.

**123.** Hacıyev, İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası /İsmayıl Hacıyev; red. İ.Həbibbəyli; AMEA, Naxçıvan bölməsi. - Bakı: Elm, 2003. - 164 s.

**124.** Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. - Bakı: Səda, 2003. - 72 s. - *Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş elmi-praktik konfransın materialları.*

**125.** Heydər Əliyev və Müasir Azərbaycan: I Ümumrespublika Əliyevşünaslıq konfransının materialları (Bakı,

6 may 2003-cü il) /Azərbaycan Fəlsəfə və Sosial-Siyasi elmlər Assosiasiyası; Əliyevşünaslıq İns-tu; elmi red. R.Mehdiyev. - Bakı: Azərbaycan Universiteti, 2003. - 362 s.

**126.** İsmayılov, İ. Azərbaycan vətənpərvərliyi XX əsrdə: uğurlar və problemlər /İsrafil İsmayılov; rəy.: İ.Cəfərzadə, İ.Məmmədov. - Bakı: Mütərcim, 2003. - 200 s. *Bu əsər XX əsrdə Azərbaycan xalqının müstəqillik və milli varlıq uğrunda mübarizəsinin təhlilinə həsr olunmuşdur.*

**127.** Qasımova, L. "Azərbaycan tarixi" fənninin tədrisi prosesində şagirdlərin milli mənəvi dəyərlər əsasında tərbiyə edilməsi: V-IX siniflər /Ləzifə Qasımova; red. H.Ə.Əlizadə; rəy.: N.M.Muxtarova və b.; Bakı Dövlət Universiteti. - Bakı: BDU, 2003. - 122 s. *Monoqrafiya V-IX siniflərdə "Azərbaycan tarixi" fənninin tədrisi prosesində şagirdlərin milli mənəvi dəyərlər əsasında tərbiyəsi məsələlərinin şərhinə həsr olunmuşdur. Əsərdə bir sıra məktəblərdə "Azərbaycan tarixi" fənni tədris olunarkən aparılan eksperimentlər əsasında elmi ümumiləşdirmələr edilmişdir. Monoqrafiya pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdur.*

**128.** Mehdi, D. Səs verəkmi: Azərbaycan qadınına seçki fəallığı üçün yaddaş kitabı /Dilarə Mehdi, R.Bədəlov, N.Nehdi; red. S.Adıgözəlova; Azərbaycanı Modernləşdirmə Mərkəzi; İqtisadi Tədqiqatlar Mərkəzi. - Bakı: Qanun, 2003. - 156 s. *Yazı Azərbaycanda qadınların seçki passivliyinə yönəlmiş ilk kitabdır. Kitab "Azərbaycan qadınının seçki passivliyi" (problemi necə dəf etməli) proqramı çərçivəsində yazılmışdır.*

**129.** Məmmədov, A. Cəlil Məmmədquluzadə yaradıcılığında azərbaycançılıq /Allahverdi Məmmədov; elmi red. İ.Həbibbəyli; red. C.Məmmədli; AMEA Nizami ad. Ədəbiyyat İns-tu. - Bakı: Elm, 2003. - 190 s.

**130.** Məmmədov, Ç. Birinci Azərbaycan Respublikası: [Dərs vəsaiti] /Çingiz Məmmədov; red. N.Ə.Hacıyev. - Bakı: Adiloğlu, 2003. - 122 s. *Vəsaitdə 1917-1920-ci illərdə Şimali Azərbaycanda gedən ictimai-siyasi proseslər, Azərbaycan Xalq Cümhuriyyətinin yaşadığı 23 ay ərzindəki fəaliyyətindən, süqutundan bəhs edir.*

**131.** Məmmədov, M. III Respublika: milli inkişaf modeli və strategiyası /Məhərrəm Məmmədov; elmi red. N.Məmmədov; bur. məs. Q.Əliyev; elmi məsl.: A.Mirzəzadə, L.Məmmədova. - Bakı: Elm, 2003. - 148 s. *Kitab III Azərbaycan Respublikasının milli inkişaf modelindən bəhs edir. Burada Azərbaycan dövlətinin mübarizələrdə möhkəmlənməsi, hüquqi, demokratik, unitar dövlətin yaranma və möhkəmlənmə prosesində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin əvəzolunmaz rolu təhlil olunur.*

**132.** Vəliyev, İ. Heydər Əliyev və türk dünyası /İsmayıl Vəliyev, K.Muxtarov; elmi red. N.Cəfərov; red. S.Nəzərli; Azərbaycanda Atatürk Mərkəzi. - Bakı: AzAtaM, 2003. - 88 s. *Bu kitabda təkcə Azərbaycan xalqının deyil, eyni zamanda bütün türk dünyasının şanlı oğullarından biri, dünya şöhrətli siyasətçi və dövlət xadimi, son 10 ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti və nüfuzlu lider Heydər Əliyevin bizimlə eyni kökdən olan türk xalqlarını bir-birinə daha da yaxınlaşdırmaq, qovuşdurmaq, onları vahid ailədə sıx birləşdirmək sahəsində göstərdiyi məqsədyönlü fəaliyyəti təkzibedilməz faktlarla işıqlandırılmışdır.*

**133.** Vəliyeva, S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası /Sona Vəliyeva; elmi red. N.Q.Cəfərov. - Bakı: Azərbaycan nəşriyyatı, 2003. - 128 s. *Kitabda azərbaycançılıq ədəbi-estetik*

*təlimə və milli ideologiyaya çevrilməsinin tarixi və əsas məqamları izlənmiş, Azərbaycanda milli dövlətçilik hərəkatının yüksəlişi dövründə maarifçilərin, Xalq Cümhuriyyətinin ictimai-siyasi xidmətlərinin, dövrün qabaqcıl düşüncə adamlarının əsərlərində məsələnin qoyuluşu və mahiyyəti ardıcıl tədqiq olunmuşdur.*

**134.** "Yeni Azərbaycan Partiyası Müstəqil Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır": Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri zati-aliləri cənab Heydər Əliyevin YAP-ın 10-cu ildönümünə həsr olunmuş təntənəli yığıncaqdakı nitqi. - Bakı: Azərbaycan, 2003. - 35 s.

**135.** Yeni Azərbaycan - Yeni lider /Ana Vətən Partiyasının Siyasi Araşdırmalar Mərkəzi və Mətbuat Xidməti; buraxılışa məsul F.Ağamalı; tərc.: S.Abbasbəyli, R.Rəhimov. - Bakı: Oskar, 2003. - C. 9. - 252 s. *Kitab ictimai-siyasi xadim, Azərbaycan Respublikasının Baş naziri İlham Heydər oğlu Əliyevin Yeni Azərbaycan Partiyasının sədrinin birinci müavini kimi fəaliyyətindən bəhs edir.*

**136.** Yusifov, M. Heydər Əliyev və azərbaycançılıq ideologiyası: Heydər Əliyev məktəbinin dinləyiciləri üçün vəsait /Mübariz Yusifov; bur. məsul, red. Q.Əliyev. - Bakı: Nurlan, 2003. - 204 s. *Kitabda Heydər Əliyevin azərbaycançılıq ideyaları və milli ideologiyamız haqqındakı təliminə dair müəllifin Heydər Əliyevin məktəbində apardığı mühazirələr ümumiləşdirilmişdir. Kitabın bütün bölmələrində ardıcıl olaraq, azərbaycançılıq və milli ideologiyamızın Heydər Əliyev təlimi barədə bəhs edilir.*

**2004**

**137.** Babayev, X. Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi /Xanəli Babayev; red. N.Abdullayev. - Bakı: Borçalı NPM, 2004. - 160 s.

**138.** Cəmiyyət. İdeologiya. Təfəkkür: məqalələr toplusu /AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu; red. Y.İ.Rüstəmov [və b.]. - Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004. - 202 s. *Məcmuəyə daxil edilən məqalələrdə cəmiyyət, ideologiya, təfəkkür problemlərinin ontoloji, qnoseoloji, metodoloji, aksioloji aspektləri, yeniləşən cəmiyyətdə milli dövlətçilik ideologiyasının prinsipləri, millətçilik və azərbaycançılıq ideyasının mahiyyəti, qloballaşma, milli adət-ənənələr, milli təhlükəsizlik məsələləri, təfəkkür - kommunikasiya prosesi, postqeyri-klassik təfəkkür, milli təfəkkür, insan hüquq və azadlıqları məsələləri araşdırılır.*

**139.** Çobanov, M. Azərbaycanşünaslığın əsasları: ali məktəblərin tələbələri üçün dərs vəsaiti /Mədəd Çobanov; red. N.Cəfərov; Azərb. Resp. "Təhsil" Mərkəzi. - Bakı: Borçalı NPM, 2004. - 36 s.

**140.** Əliyev, H. Müstəqil Azərbaycan dövlətinin inkişafının yeni mərhələsi /Həmzə Əliyev, İ.Zeynalov. - Bakı: Renesans, 2004. - 58 s.

**141.** Heydər Əliyev Ümummilli lider: [Heydər Əliyevin xatirəsinə həsr edilmiş konfrans materialları] /hazırl. Yeni Azərbaycan Partiyasının İcra Katibliyi. - Bakı: Azərbaycan, 2004. - 776 s. *Kitaba Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Azərbaycanın Ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Heydər Əliyev – Ümummilli lider" mövzusunda keçirilən konfransın materialları daxil edilmişdir.*

**142.** Hüseynov, Ş. Milli haqq və ədalət axtarışında /Şirməmməd Hüseynov; red. Ü.Hüseynova. - Bakı: Adiloğlu, 2004. - 420 s. *Kitaba müəllifin 1988-2000-ci illərdə yazdığı və respublikanın müxtəlif mətbuat orqanlarında dərc olunmuş ictimai və tarixi əhəmiyyət daşıyan, dövrün cox mühüm problemlərinə həsr olunmuş məqalə, müsahibə, çıxış və s. daxil edilmiş, eləcə də AXC haqqında məqalələr də verilmişdir.*

**143.** Hüseynova, İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu /İradə Hüseynova; elmi red. Ə.M.Həsənov. - Bakı: Təhsil, 2004. - 472 s.

**144.** Xalqa bağışlanan ömür: (Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, bütün azərbaycanlıların Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin ruhuna bağışlanır) /tərt. və ön söz. müəl. M.Xəlilov; red. M.Urud. - Bakı: Şəms, 2004. - Kb.3. - 544 s. *Azərbaycanın dahi oğlu, zəmanəmizin ən qüdrətli şəxsiyyətlərindən biri olan Heydər Əliyevin böyüklüyü, otuz ildən artıq bir dövrdə Vətənin, xalqın inkişafı naminə misilsiz xidmətlər göstərməsi, ölkənin ən ağır günlərində ona rəhbərliyi öz üzərinə götürərək, yenicə müstəqillik qazanmış respublikanı parçalanıb məhv olmaqdan xilas etməsi bütün dünyada etiraf olunur və ən müxtəlif səviyyəli insanların dilindən səslənmişdir.*

**145.** Xalqa bağışlanan ömür: (Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, bütün azərbaycanlıların Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 35 illiyinə həsr olunur) /tərt. Ə.Əliyev; elmi red. M.Urud. - Bakı: Şəms, 2004. - Kb.5. - 428 s.

**146.** Xudiyev, N. Xalq və dövlət naminə /Nizami Xudiyev; elmi red.: F.Şahbazlı.- Bakı: Azərbaycan, 2004. - 400 s. *Kitab*

*müasir dünyanın görkəmli dövlət xadimi və siyasətçisi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyev və onun siyasi xəttinin layiqli davamçısı, qısa müddətdə beynəlxalq aləmdə böyük nüfuz qazanmış gənc siyasi lider İlham Əliyev haqqındadır.*

**147.** Kazımlı, G. Heydər Əliyevin yadigarları: [məqalələr toplusu] /Gülhüseyn Kazımlı. - Bakı: Ozan, 2004. - 72 s. *Bu kitabda Heydər Əliyevin – həyatını xalqının və doğma torpağının inkişafına və çiçəklənməsinə həsr etmiş dahi şəxsiyyətin həyat və fəaliyyətinin bir hissəsi – müstəqillik illərində apardığı mübarizə, habelə Sovet hakimiyyəti illərində onun ədəbiyyata, incəsənətə, xalqın tarixinə və mədəniyyətinə göstərdiyi diqqət və qayğı haqqında söhbət açılır.*

**148.** Qasımova, L. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən /Ləzifə Qasımova; elmi red.: H.Ə.Əlizadə. - Bakı: Nurlan, 2004. - 220 s. *Monoqrafiya çox aktual və vacib bir pboblemə - böyüməkdə olan nəslin Azərbaycan xalqının milli-mənəvi dəyərləri əsasında tərbiyəsi məsələsinə həsr olunmuşdur.*

**149.** Məmmədov, Ç. Azərbaycan istiqlal yollarında: Dərs vəsaiti /Çingiz Məmmədov; red.: V.İ.Məmmədova. - Bakı: Adiloğlu, 2004. - 102 s.

**150.** Müstəqillik yollarında: Azərbaycan Xalq Cümhuriyyətinin 86 illiyinə həsr olunmuş məqalələr toplusu /AMEA A.Bakıxanov ad. Tarix İns-tu; elmi red. N.Ə.Maksvell; red. E.Ə.Məhərrəmov. - Bakı: Elm, 2004. - 167 s. *Topluda AXC-nin yaranması ərəfəsində Azərbaycanda və Cənubi Qafqaz regionunda baş verən siyasi proseslər, "Bakı Kommunası"nın fəaliyyəti və ingilislərin müdaxiləsi, AXC dövründə partiyalararası münasibətlər, Cümhuriyyətin mədəni həyatı və mədəni siyasəti, ordu quruculuğu və s. problemlər xüsusi yer tutur.*

**151.** Novruzov, V. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli /Vahid Novruzov; red. Ş.Yaqubov. - Bakı: Azərnəşr, 2004. - 288 s. *Kitabda müstəqillik tariximizin siyasi və dövlət quruculuğu prosesləri fonunda Heydər Əliyev müstəqil Azərbaycan quruculuğu siyasətinin düzgünlüyü, həyatiliyi, alternativsizliyi və yaşarlığı elmi-nəzəri mülahizələrlə və praktik nəticələrdən doğan faktlarla əsaslandırılır.*

**152.** Seyidzadə, D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar /Dilarə Seyidzadə; red. A.Həsənov. - İşlənmiş, əlavələr olunmuş II nəşri. - Bakı: OKA Ofset, 2004. - 348 s. *Şərqdə ilk demokratik respublika olan AXC-nin yaranmasına doğru aparan dövrün tədqiq olunduğu bu kitabda XX əsrin əvvəllərində Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslərin geniş mənzərəsi öz əksini tapmış, mükəmməl təhlil olunmuşdur.*

**153.** Şərq-Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr: beynəlxalq elmi konfransın materialları: Aida İmanquliyeva 65 /red. A.Əsədova. - Bakı: Elm, 2004. - 159 s. *Kitab görkəmli şərqşünas, tədqiqatçı alim A.İmanquliyevanın Şərq və Qərb elmi-mədəni əlaqələr probleminin tədqiqində, ortaq mənəvi dəyərlərin inkişafında əvəzsiz roluna və onun elmi irsinin bugünkü Azərbaycan ictimai fikrinə təsiri məsələlərinə həsr olunmuşdur.*

**154.** Ulusel, R. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası: Nizami Cəfərovun elmi araşdırmalarında /Rahid Ulusel; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu; elmi red. Y.Rüstəmov. - Bakı: Elm, 2004. - 148 s. *Kitabda təməli Atatürk və H.Əliyev tərəfindən qoyulan dünya türk milli dövlətlərinin vahid siyasət və mədəniyyət strategiyasının mahiyyəti aydınlaşdırılır. Nizami Cəfərovun həmin istiqamətdə Azərbaycan dövlətinin*

*humanitar siyasət konsepsiyasının mükəmməl elmi-nəzəri əsaslarda hazırlanmasındakı fəaliyyəti dəyərləndirilir.*

**155.** Yusifov, M. Dövlətçilik və dil /Mübariz Yusifov; red.: Ş.Yusifli, R.Ələkbərov; Azərb. Resp. Təhsil Nazirliyi, Gəncə Dövlət Uni-ti. - Bakı: Nurlan, 2004. - 176 s. *Azərbaycan Respublikası Prezidentinin Ana dilinin tətbiqi işinin təkmilləşdirilməsi ilə bağlı 18 iyun 2001-ci il fərmanı xüsusi tarixi əhəmiyyətə malikdir. Kitabda bu tarixi fərmanla əlaqədar olaraq, ana dilinin daxili strukturunun formalaşdığı mərhələlərdən bəhs olunur, tarix və müasirlik arasındakı norma prosesləri barədə təhlil aparılır.*

**156.** Zeynalova, T. Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-30-cu illər) /Təranə Zeynalova; elmi red. A.N.Abbasbəyli. - Bakı: Elm, 2004. - 172 s. *Monoqrafiya Azərbaycanın Muxtar qurumları – Naxçıvan MSSR və DQMV və DQMV-nin timsalında həyata keçirilən milli dövlət quruculuğu problemlərinin öyrənilməsi sahəsində milli dövlətçilik mövqeyindən yazılmış araşdırmadır.*

**2005**

**157.** Abdallı, H. Azərbaycan: müstəqilliyimizin sosial-siyasi problemləri /Həcər Abdallı; elmi red. Ə.Tağıyev; red. H.Dayızadə. - Bakı, 2005. - 239 s. *Müəllif əsas diqqəti bədii-fəlsəfi fikirdə siyasi-mədəni problemlərin, Azərbaycanın milli dövlətçilik tarixində sosial-siyasi məsələlərin aktuallığı, Qafqazda müasir beynəlxalq münasibətlər və beynəlxalq təşkilatlar kimi son dərəcə aktuallıq kəsb edən problemlərə yönəldir.*

**158.** Cəfərov, N. Azərbaycanşünaslığın əsasları /Nizami Cəfərov; elmi red. H.R.İmanov. - Bakı: Pedaqogika, 2005. - 256 s. *Bu kitabda Azərbaycan xalqının, dilinin, ədəbiy-*

*yatının, mədəniyyətinin formalaşması tarixi barədə sistemli məlumat verilir, azərbaycançılıq ideologiyasının təşəkkül mərhələləri araşdırılır.*

**159.** Əlişanoğlu, T. Azərbaycan, Azərbaycan /Tehran Əlişanoğlu; red. M.Nur.- Bakı: Nurlan, 2005. - 108 s. *Kitaba müəllifin konseptual ideya ətrafında düzülmüş esseləri, publisist düşüncələri, elmi-tənqidi oçerkləri və yazıları daxil edilmişdir. Bütövlükdə kitabın predmetini və ideoloji mənbəyini dövlət ideologiyamız olan azərbaycançılıq təşkil edir.*

**160.** Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi: konfrans materialları /Yeni Azərbaycan Partiyası. - Bakı: Azərbaycan, 2005. - 912 s.

**161.** Həsənov, H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti /Həsən Həsənov; elmi red. Q.M.Bayramov. - Bakı: Elm, 2005. - 248 s. *Kitabda vətənpərvər bir dövlət xadimi kimi yaşayan Nəriman Nərimanovun Azərbaycan dövlətçiliyi qarşısında tarixi rolu, ictimai-siyasi fəaliyyəti, milli dövlətçilik baxışları oxuculara yeni faktlarla təqdim olunur.*

**162.** İmanov, R. Azərbaycanın ərazi bütövlüyünə qəsd – qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti /Rəftar İmanov; Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Dövlət Dəniz Akademiyası; elmi red.: İ.Babayev, E.Məhərrəmov. - Bakı: Adiloğlu, 2005. - 260 s. *Kitab dövlət müstəqilliyimizin müasir dövrdə müstəqillik uğrunda mübarizəmiz, eyni zamanda düşmənlərimizin tarixən müstəqilliyimizin məhvinə yönəlmiş siyasətinin mahiyyət və metodlarını öyrənib, ibrət dərsi almaq baxımından diqqətəlayiqdir.*

**163.** Qəndilov, S. Dövlət İdarəçilik Akademiyası Heydər Əliyev dühasının bəhrəsidir /Seyfəddin Qəndilov; elmi red. Ə.Həsənov; rəyç.: N.Cəfərov, V.Həbiboğlu. - Bakı: Çaşıoğlu,

2005. - 444 s. *Kitaba Azərbaycan xalqının Ümummilli lideri H. Əliyevin dövlətçilik fəaliyyətinə, dövlət idarəçiliyi sahəsindəki zəngin elmi-nəzəri və əməli fəaliyyətinin araşdırılmasına dair müəllifin son illərdə yazdığı məqalələr daxil edilmişdir.*

**164.** Mahmudov, Y. Azərbaycan: qısa dövlətçilik tarixi /Yaqub Mahmudov; elmi red.: M.N.Mirzəyev; red.: E.M.Lətifova. - Bakı: Təhsil, 2005. - 140 s. *Müəllif ayrı-ayrı fəsillərdə e.ə. IV minilliyin sonlarından başlayaraq yaşadığımız günlərədək Azərbaycan ərazisində dövlət qurumlarının meydana gəlməsi və inkişafının əsas mərhələlərini şərh edir.*

**165.** Məmmədov, X. Azərbaycan xalqının milli istiqlal mübarizəsi: XIX yüzilliyin sonları – XX yüzilliyin əvvəlləri: dərs vəsaiti /Xəqani Məmmədov; elmi red. S.S.Əliyarlı; rəy.: C.P.Həsənli, F.F.İbrahimli; Bakı Dövlət Universiteti. - Bakı: Elm, 2005. - 249 s. *Dərs vəsaitində Azərbaycanın sosial-siyasi, iqtisadi və mənəvi vəziyyəti, maarifçilik hərəkatı və milli-mənəvi oyanışın başlanması, milli-demokratik ideyaların formalaşmasında görkəmli ictimai-siyasi xadimlərin rolu şərh olunmuşdur. Vəsaitdə 1918-ci il mart soyqırımının milli istiqlal uğrunda mübarizəsinin inkişafında rolu, Azərbaycan xalq Cümhuriyyətinin yaradılması yeni faktlarla, arxiv sənədləri əsasında araşdırılmışdır.*

**166.** M.Ə.Rəsulzadə və ictimai-siyasi ideyalar: [M.Ə.Rəsulzadənin 120 illiyinə həsr olunmuş elmi konfransının materialları 28 yanvar 2004-cü il] /red. H.İsaxanlı. - Bakı: Xəzər Uni-ti, 2005. - 286 s. - *Mətn Azərbaycan və rus dilindədir.*

**167.** "Müstəqillik dövründə gənclik" müsabiqəli tələbə elmi konfransının materialları: 29 aprel 2005 /Azərb. Respub. Təhsil Nazirliyi, Qafqaz Universiteti. - Bakı: Adiloğlu, 2005. - 318 s.

**168.** Rəhimzadə, M. Sabaha saçılan nur /Mirvari Rəhimzadə, İ.Əsgəroğlu; elmi red.: R.Novruzoğlu, M.Əhmədoğlu; rəyçi: X.Əhmədov, Ə.Qədriov. - Bakı: Ozan, 2005. - 304 s. *Kitabda azərbaycançılıq məfkurəsi, xalqın milli ruhunun, milli şüurunun, tarixi yaddaşının oyanması, kadr potensialının milliləşdirilməsi, milli-mənəvi dəyərlərin bərpası və inkişafı, demokratikləşmə, azad fikrin, hüquqi dövlət quruculuğunun, milli təfəkkürün çiçəklənməsi məsələləri, bir sözlə, müstəqilliyimizin qarantı, memarı, dövrümüzün qurucusu, xalqımızın xilaskarı Heydər Əliyevin qazandığı nailiyyətlər, gördüyü işlər öz əksini tapıb.*

**169.** Yusifov, M. Heydər Əliyev işığında /Mübariz Yusifov; red. Ç.Hüseynzadə. - Bakı: Nurlan, 2005. - 184 s. *Kitabda müəllifin mətbuatda, eləcə də ayrı-ayrı kitab və məcmuələrdə dərc olunmuş məqalələri toplanmışdır. Məqalələrin ümumi məzmunu azərbaycançılıq ideyaları və bu ideyaların təbliği məsələləri ilə bağlıdır.*

**170.** Yusifov, M. Milli lider və müstəqil dövlətçilik /Mübariz Yusifov; buraxılışa məsul Qafar Əliyev; red. Çingiz Hüseynzadə. - Bakı: Nurlan, 2005. - 212 s. *Kitabda müstəqil dövlətçiliyin yaranması üçün zəruri olan ictimai-siyasi proseslər və bu proseslərin reallaşmasında aparıcı qüvvə olan milli lider amilindən bəhs edilir.*

**2006**

**171.** Abdullayev, S. Azərbaycan Respublikasının xarici ticarət sahəsində qanunvericiliyinin təhlili /Sabit Abdullayev, G.Dadaşeva, C.Feyzullayev. - Bakı: Adiloğlu, 2006. - 86 s. *Hazırkı nəşrdə Azərbaycan Respublikasında mallarla xarici ticarətin tənzimləməsinin inkişafı tarixi nöqteyi-nəzərdən təhlil olunur və*

*müstəqillik qazandığı vaxtdan başlayaraq qanunverici tənzimləmənin bu günə qədər keçdiyi yol göstərilir.*

**172.** Ağayev, M. Məhəmməd Əmin Rəsulzadə: ictimai-siyasi və fəlsəfi görüşləri /Müstəqil Ağayev; elmi red. Ə.Abbasov; rəy.: Ə.Tağıyev, A.Şükürov; AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu. - Bakı: Nurlan, 2006. - 146 s. *Kitabda türk dünyasının böyük oğlu, milli demokratik dövlətin yaradılması uğrunda mübarizə hərəkatının lideri, xalqımızın fəxri Məmməd Əmin Rəsulzadənin yaradıcılıq yolu, sosial-siyasi və fəlsəfi görüşləri, Azərbaycanın ictimai-siyasi və fəlsəfi görüşləri Azərbaycanın ictimai-siyasi, mədəni həyatına aid tədqiqatları və s. işıqlandırılır.*

**173.** Azərbaycan və Avropa: Qarşılıqlı münasibətlərin problemləri və perspektivləri: Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş V Respublika Tələbə elmi-praktik konfransının materialları (4 noyabr 2006-ci il) /burax. məsul: A.Rəcəbli; Bakı Slavyan Universiteti, Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi. - Bakı: BSU, Kitab aləmi NPM, 2006. - 160 s.

**174.** Babaoğlu, H. İnsan hüquqları və azadlıqları: tarixi təkamülü, beynəlxalq və politoloji aspektləri, Azərbaycan təcrübəsi /Hikmət Babaoğlu; red. Ə.Əhmədov; rəy.: R.Mustafayev, V.Abdullayev, Q.Əliyev. - Bakı: Elm, 2006. - 244 s. *Bu əsərdə insan hüquqları və azadlıqlarının təşəkkülü, tarixi təkamülü, müasir cəmiyyətdə insan hüquqları problemləri, onların konseptual əsasları, beynəlxalq-hüquqi aspektləri və Azərbaycan Respublikasının təcrübəsinin politoloji təhlili əsasında demokratik cəmiyyətdə insan hüquq və azadlıqlarının müdafiəsi və təmin edilməsi mexanizmləri tədqiq edilmişdir.*

**175.** Dünya Azərbaycanlılarının II Qurultayı: Bakı şəhəri, 16 mart 2006-cı il /Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi; tərt.: N.Qurbanov, R.Hüseynov, E.Miraləm; bur. məsul: N.İbrahimov. - Bakı: Çaşıoğlu, 2006. - 192 s. *Kitabda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Dünya Azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə bir qrup ictimai xadimin təltif edilməsi haqqında" sərəncamları, dövlət başçısının Qurultaydakı nitqi, nümayəndə və qonaqların çıxışları, qəbul olunmuş sənədlər və digər materiallar bu möhtəşəm hadisənin əhəmiyyətini, azərbaycançılıq ideyalarının tarixi və siyasi məzmununu özündə əks etdirir.*

**176.** Əliyev, P. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi /Piralı Əliyev; H.H.Əhmədov; elmi red. Z.İ.Qaralov; rəy.: A.N.Abbasov, V.C.Xəlilov, H.B.Bayramov; Azərb. Resp. Təhsil Nazirliyi, Təhsil Problemləri İns-tu; Beynəlxalq Kollec. - Bakı: Təhsil, 2006. - 264 s. *Kitabda milli-mənəvi dəyərlərin mahiyyəti, məktəbdə bu işin təşkilinin pedaqoji əsasları, proqram və dərsliklərdə problemlərin qoyuluşu, məktəb təcrübəsində vəziyyət, dərsdə, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə milli-mənəvi tərbiyənin aşılanması yolları işlənmişdir.*

**177.** Göyüşov, N. Milli sənətin nəzəri təhlilinə giriş /Nəsib Göyüşov; elmi məsl. V.Məmmədəliyev; elmi red.: K.Allahyarov, M.Quliyeva; AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. - Bakı: Nurlan, 2006. - 290 s. *Kitabda tarixi-mədəni yaddaşımızı və milli dirçəliş ruhumuzu yaşadan sənətin əksi və ortaçağ qaynaqları, onun təkamül yönlərini istiqamətləndirən milli-mənəvi dəyərlər toplusu, özəlliklə də islam sivilizasiyasının Azərbaycan bədii təfəkkürünün təşəkkülü, yetkinləşməsi və bütövləşməsindəki önəmli yeri elmi-nəzəri müstəvidə işıqlandırılır.*

**178.** Heydər Əliyev və azərbaycançılıq: Qusarda, Lənkəranda və Şəkidə keçirilmiş bölgə müşavirələrinin materialları /tərt. -red. M.Talıblı. - Bakı: MASTER, 2006. - 186 s.

**179.** Xəlilov, C. Milli təhlükəsizlik mənlik şüuru kontekstində /Cəlil, Xəlilov; elmi red. Əlikram Abdullayev. - Bakı: Vətən, 2006. - 220 s. *Monoqrafiya müstəqil elm sahəsi kimi formalaşmaqda olan və Azərbaycan siyasətşünaslığında az öyrənilmiş – dövlət quruculuğu prosesində milli təhlükəsizliyə etibarlı təminat yaratmaq probleminin tədqiqinə həsr olunmuşdur.*

**180.** Qasımlı, M. Heydər Əliyev – İstiqlala gedən yol (1969-1987-ci illər) /Musa Qasımlı; məsləhətçi: R.Mehdiyev; red. Ə.Həsənov; rəyçi: Ə.Mehdiyev. - Bakı: Bakı Universiteti, 2006. - 608 s. *Bu monoqrafiyada sovet hakimiyyəti illərində Azərbaycan xalqını düşündürən başlıca problemlər, Heydər Əliyevin müstəqil dövlətçilik baxışlarının formalaşması elmi-tarixi baxımdan öyrənilmişdir.*

**181.** Qəndilov, S. Müstəqillik illərinin düşüncələri: [Dərs vəsaiti] /Seyfəddin Qəndilov; elmi red. Ə.Həsənov. - Bakı: Naksuana, 2006. - 502 s. *Dünya azərbaycanlılarının birliyi məsələləri, azərbaycanlıların soyqırımı, 20 yanvar faciəsi, Daglıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir və mülahizələr bu kitabdakı məqalələrdə öz əksini tapmışdır.*

**182.** Quliyeva, N. Müstəqillik illəri Azərbaycan ailəsi /Nərgiz Quliyeva; ARMEA Arxeologiya və Etnoqrafiya İnstitutu; elmi red. A.Ə.Məmmədov. - Bakı: Elm, 2006. - 94 s. *Əsərdə müstəqillik illərində Azərbaycan ailələrində gedən proseslər, həmçinin müstəqillik illərində azərbaycanlıların ailə-məişət həyatının bəzi aktual məsələləri, müasir ailədə və ictimai həyatda Azərbaycan qadınlarının mövqeyi, Azərbaycanda qaçqınların və məcburi köçkünlərin ailə-məişət məsələləri əhatə olunur.*

**183.** Məmmədli, A. Yüz ilin ədəbi abidəsi: [monoqrafiya] /Allahverdi Məmmədli; elmi red. İ.Həbibbəyli; red. K.Niftəliyeva. - Bakı: [Nafta-Press], 2006. - 131 s. *Tədqiqatçı alim-jurnalist Allahverdi Məmmədlinin bu monoqrafiyasında "Molla Nəsrəddin" jurnalında azərbaycançılıq ideyalarının ictimai-ədəbi və publisistik ifadə xüsusiyyətləri zəngin faktlar əsasında təhlil edilmişdir.*

**184.** Mirzəyev, H. Müstəqillik uğrunda mübarizə yollarında /Həsən Mirzəyev; elmi red. Z.M.Həsənalıyev. - Bakı: Elm, 2006. - C.10. - 688 s. *Kitabda professor Həsən Mirzəyevin siyasi mübarizə istiqamətindəki fəaliyyəti ilə bağlı bir çox məqalə, çıxış, müraciət və s. rəsmi sənəd və yazılarda öz əksini tapmışdır.*

**185.** Mustafayeva, A. Bioetika və cəmiyyət: məqalələr toplusu /Aytən Mustafayeva; elmi red. R.F.Məmmədov; AMEA İnsan Hüquqları İns-tu. - Bakı, 2006. - 59 s. *Məqalələr toplusunda təqdim olunan materiallar müasir cəmiyyətin üzləşdiyi mənəvi-hüquqi problemlərin tədqiqinə, onların həlli üzrə xarici təcrübənin, mövcud beynəlxalq hüquqi bazanın təhlilinə, milli mənəvi-etik dəyərlər nəzərə alınmaqla müvafiq ümumbəşəri prinsiplərin Azərbaycan Respublikası qanunvericiliyinə unifikasiyası məsələlərinə həsr edilmişdir.*

**186.** Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası: monoqrafiya /AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu; red. Ə.Tağıyev. - Bakı: Səda, 2006. - 287 s. *Kitabda qlobal sosial-syasi proseslər, onların milli inkişafa təsiri və əksinə, milli inkişafın qloballaşmaya təsiri məsələləri araşdırılmışdır.*

**187.** Şəmsizadə, N. Azərbaycançılıq: [Azərbaycan xalqının milli ideologiyası] /Nizaməddin Şəmsizadə; red.: K.Talıbzadə. - Bakı: Nurlar, 2006. - 192 s. *Əsərdə qədim çağlardan*

*günümüzə qədər Azərbaycan xalqının yaşadığı özünüdərk, təfəkkür və dövlətçilik yolu nəzərdən keçirilir.*

**2007**

**188.** Adil Abdulla Əl-Fəlah. Heydər Əliyev və milli-mənəvi dəyərlər /Adil Abdulla Əl-Fəlah; elmi red. və ön sözün müəll. A.Paşazadə. - Bakı: Qismət, 2007. - 108 s. *Təqdim edilən bu əsərdə xalqımızın Ümummilli lideri Heydər Əliyev Qurani-Kərimə və İslam elmlərinə dərin hörmət və ehtiramla yanaşan dahi siyasi xadim kimi təqdim olunur, onun müxtəlif münasibətlərlə çıxışlarında İslam dini, islam əxlaqı və dəyərləri ilə bağlı fikirlərini müəllif böyük məharətlə göstərmişdir.*

**189.** Ağayev, M. Azərbaycan ictimai fikrində milli məsələ: 1917-1920-ci illər: [Monoqrafiya] /Müstəqil Ağayev; elmi red. Ə.M.Tağıyev; rəy.: M.M.Ağamirov, Ə.S.Şakirzadə. - Bakı: Nurlan, 2007. - 148 s. *Müəllif zəngin fakt materialları əsasında həm bolşevik, həm də müsavat partiyasının milli məsələyə dair proqram sənədlərini şərh və təhlil edir.*

**190.** Asif Ata. Uluyurd aqibəti – bütöv Azərbaycan: İzharlar. Müsahibələr. Məqamlar... /Asif Ata-İnam Ata; nəşrə haz. və burax. məs. N.Ulusəs; tərt. Safruh. - Bakı: Adiloğlu, 2007. - 296 s. *Kitabda Türkçülüyün, Azərbaycançılığın, Dövlətçiliyin insanilik və mütləqilik yönündən ruhani, tarixi-siyasi, ideoloji mahiyyəti, habelə ayrı-ayrı jurnalistlər tərəfindən götürülmüş izharlar, müsahibələr və məqamlar toplanmışdır.*

**191.** Cəfərov, H. Azərbaycanda gənclər hərəkatı yeni inkişaf mərhələsində: 1940–2007-ci illər /Həmzə Cəfərov; elmi red. və ön sözün müəl. İ.Hacıyev; rəyç.: İ.Həbibbəyli, O.Sultanov. - Bakı: Adiloğlu, 2007. - 224 s. *Monoqrafiyada Azərbaycan gənclərinin İkinci Dünya müharibəsində iştirakı,*

*gənclərin 50-80-ci illərdə və müstəqillik dövründə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında fəaliyyəti arxiv və dövri mətbuatın materialları əsasında təhlil edilmişdir.*

**192.** Cəfərov, N. Azərbaycanşünaslığın əsasları /Nizami Cəfərov. - Təbriz: ALP, 2007. - 292 s.

**193.** Cəfərov, N. Seçilmiş əsərləri: beş cilddə /Nizami Cəfərov; elmi red. H.İmanov. - Bakı: Elm, 2007. - C. 4. - 328 s. *Müəllifin bu kitabına ümumi azərbaycanşünaslığa, Azərbaycan xalqının etnik, sosial-siyasi və mədəni tarixinə həsr olunmuş əsərləri daxil edilmişdir.*

**194.** Çobanov, M. Zabit etikasının əsasları: Ali hərbi məktəblərin magistratura pilləsi və zabit kursları üçün dərs vəsaiti /Mədəd Çobanov, H.K.Piriyev; red. C.Mustafayev; rəyçilər: Ə.Paşayev, R.Duyğun. - Bakı, 2007. - 116 s. *Dərs vəsaitində hərbi etikanın, xüsusilə zabit etikası ilə bağlı olan nəzəri və təcrübi anlayışlar, o cümlədən hərbi-zabit etikasının predmeti, vəzifələri, məqsədi, metodologiyası, tədqiqat metodları, mahiyyəti, zabit-müəllimin etik-pedaqoji funksiyaları, etnik-pedaqoji mədəniyyəti, etnik-pedaqoji hazırlığı və nitq mədəniyyəti, həmçinin azərbaycançılıq ideologiyası və onun səciyyəvi cəhətləri yığcam halda şərh olunmuşdur.*

**195.** Dadaşov, A. Demokratiya və islam /Aydın Dadaşov; elmi red. F.Qasımzadə; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu. - Bakı: Elm, 2007. - 280 s. *Kitabda dünyanın ən gənc dininin təşəkkül tarixi izlənilməklə, ideoloji prinsipləri nəzərdən keçirməklə onun dövlətçilik ideyasının tətbiqi demokratik prosesla paralel olaraq araşdırılır.*

**196.** Əhmədli, R. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi: türkçülük, müasirlik, islamçılıq: monoqrafiya /Rafail Əhmədli; elmi red. Q.Mürşüdlü. - Bakı: Elm, 2007. - 280 s. *Monoqrafiyada ilk Azərbaycan dövləti Arattadan*

*XX əsrin 18-20-ci illərində mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinə qədərki Azərbaycan dövlətçiliyi tarixi və Zərdüştdən başlamış XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında məqalələr araşdırılır.*

**197.** Fərəcov, Y. XXI əsrin parlaq günəşi /Yalçın Fərəcov, İ.Əzizxanoğlu; red.: V.Süleymanov, S.Orucov. - Bakı: Azərbaycan, 2007. - 192 s. *Kitab Azərbaycan dövlətinin müstəqillik dövrünün İlham Əliyevlə bağlı qısa tarixi əks olunmuşdur.*

**198.** Gözəlov, A. Müasir ictimai inkişafın qlobal – fəlsəfi və sosial - siyasi problemləri /Ariz Gözəlov; elmi red. Ə.Tağıyev; AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu. - Bakı, 2007. - 170 s. *Kitabda müasir dünyanın elmi ictimaiyyətinin diqqət mərkəzində olan qlobal problemlər fəlsəfi, sosial və siyasi baxış bucaqlarından təhlil olunur.*

**199.** Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər /Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi; H.Orucovun ümumi redaktəsi ilə; tərt. G.İsmayılov; red. S.Nəzərli. - Bakı: Əbilov, Zeynalov və oğulları, 2007. - 400 s. *Kitaba Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə 3-4 aprel 2007-ci il tarixdə keçirilmiş "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda Beynəlxalq konfransın materialları – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı məktub, təbriklər, çıxışlar, məruzələr və konfransda qəbul olunmuş rəsmi sənədlər daxil edilmişdir.*

**200.** Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi: [məqalələr toplusu] /hazırl. Ş.Kaleder; red. S.Aran; təşəbbüscüsü Azərbaycan İstanbul Başkonsolosluğu. - İstanbul: Kutub Yıldızı reklam, 2007. - 307 s. *Kitaba Türkiyədə oxuyan*

*tələbələr arasında keçirilən "Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi" elmi-praktik konfransın qaliblərinin məqalələri daxil edilmişdir.*

**201.** Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində: [konfrans materialları] /Yeni Azərbaycan Partiyası; red. G.Adıgözəlqızı, E.Əsgərova, R.Cəfərov; rəssam N.Rzaquliyev. - Bakı: Azərbaycan, 2007. - 864 s.

**202.** Həmidov, H. Heydər Əliyev və Azərbaycanda təhsil siyasəti: [monoqrafiya] /Habil Həmidov; elmi red. A.Mustafayev; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu. - Bakı: Gənclik, 2007. - 104 s. *Kitabda Ümummilli lider, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikada həyata keçirilən təhsil siyasətinin müxtəlif aspektləri tədqiqata cəlb edilmişdir.*

**203.** Hüseynova, F. Müstəqillik dövründə Azərbaycan-Türkiyə əlaqələrinin kulturoloji aspektləri: elm, təhsil, mədəniyyət /Fərqanə Hüseynova; elmi red. M.Süleymanlı. - Bakı: Nurlan, 2007. - 302 s. *Kitabda Azərbaycan – Türkiyə əlaqələrinin milli-tarixi kökləri və siyasi aspektləri araşdırılır, xalqlarımız arasındakı əlaqələrin inkişafında tarixilik amilinə və siyasi-ideoloji faktorlara diqqət yetirilir.*

**204.** Xəlilov, S. Mənəviyyat fəlsəfəsi /Səlahəddin Xəlilov; elmi red. və ön söz. müəl. R.Mehdiyev. - Bakı: Azərbaycan Universiteti, 2007. - 520 s. *Kitab insan mənəvi aləminin strukturunda əxlaqi, estetik və intellektual məqamların nisbətindən bəhs edir. Əxlaqla yanaşı, dini-mənəvi dəyərlər, elmi-nəzəri və əməli biliklər, təfəkkür mədəniyyəti və əməli vərdişlər vahid bir müstəvidə, qarşılıqlı əlaqə və vəhdətdə götürülür.*

**205.** Rzayev, Y. Bədii söz və milli azadlıq şüuru: Milli azadlıq şüurunun formalaşmasında Azərbaycan ədəbiyyatının rolu: 1960-1990-cı illər /Yaşar Rzayev; elmi red. A.Hüseynli. - Bakı: Nurlan, 2007. - 150 s. *Kitabda milli şüurun formalaşmasında Azərbaycan ədəbiyyatının tarixi roluna nəzər yetirilməklə, 1960–1990-cı illərdə milli azadlıq, milli müstəqillik şüurunun formalaşmasında ədəbi prosesin rolu araşdırılmış və əsaslandırılmışdır.*

**206.** Səmədov, A. Həqiqət – necə varsa. Azərbaycan-1993: /Abutalıb Səmədov; məsl. S.Nuriyev. - Bakı, 2007. - C.1. - 520 s. *Kitabın I cildində AXC-Müsavat iqtidarının 1993-cü ilin iyununda Gəncədə törətdiyi qardaş qırğınından sonra başlayan vətəndaş müharibəsindən, bu fəlakətin qarşısını almaq üçün xilaskarlıq missiyası ilə Bakıya gələn Ulu Öndər Heydər Əliyevin fədakarlığından, vətəndaş qeyrətindən, atdığı müdrik addımlardan bəhs edilir.*

**207.** Səmədov, A. Həqiqət – necə varsa. Azərbaycan-1993 /Abutalıb Səmədov; məsl. S.Nuriyev. - Bakı: Nurlan, 2007. - C.2. - 524 s. *Kitabın II cildi qanlı-qadalı 1993-cü il Azərbaycanına, o dövrdə ölkədə baş verən hadisələrə və bu hadisələrin qarşısının alınmasında Heydər Əliyevin roluna həsr olunmuşdur.*

**208.** Şəmsizadə, N. Azərbaycançılıq: Azərbaycan xalqının milli ideologiyası /Nizaməddin Şəmsizadə. - Tehran: Bilik yayim, 2007. - 135 s. *Əsərdə qədim çağlardan günümüzə qədər Azərbaycan xalqının yaşadığı özünüdərk, təfəkkür və dövlətçilik yolu nəzərdən keçirilir.*

**209.** Şükürov, A. Müstəqil dövrün fəlsəfəsi və filosofları /Ağayar Şükürov; elmi red. Ə.Tağıyev; rəy.: S.Hüseynov,

M.Rzayev. - Bakı: Səda, 2007. - 396 s. *Əsərdə müstəqillik dövrün fəlsəfəsi, yeni dövrə yeni baxış, çağdaş problemlərin müasir baxımdan təhlili mühüm yer tutur.*

## 2008

**210.** Abbasov, A. Milli əxlaq və ailə etikası: orta ixtisas məktəbləri üçün dərslik /Akif Abbasov; elmi red.: Ə.Əlizadə, Ə.Ağayev; rəy.: V.Xəlilov [və b.]. - Bakı: Mütərcim, 2008. - 296 s. *Kitabda "Avesta"da, "Kitabi-Dədə Qorqud"da, islam dinində, Azərbaycan şifahi xalq yaradıcılığında, Nizami Gəncəvi və N. Tusinin, Azərbaycan maarifçilərinin əsərlərində əxlaqi təlimin mahiyyəti, mənəvi tərbiyə və milli-mənəvi dəyərlər araşdırılır, etikanın vicdan, yaxşılıq və xeyirxahlıq, mənəvi borc, şərəf və ləyaqət, namus, həya, məsuliyyət və s. kateqoriyalarına aydınlıq gətirilir.*

**211.** Ağamalı, F. Harmonik inkişafın yüksəliş dövrü /Fəzail Ağamalı; elmi red.: Ə.Əhmədov, A.Mənsimli. - Bakı: Ozan, 2008. - 293 s. *Müəllifin hazırladığı kitab Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin bütün aspektlərini lakonik şəkildə əhatə edir.*

**212.** Azərbaycan Cümhuriyyətinin qurulmasının və Bakının azad olmasının 90 illiyinə həsr edilmiş "Azərbaycan dövlətçilik ənənələrinin tarixi" beynəlxalq simpoziumunun tezisləri: Bakı şəhəri 13-14 sentyabr /AMEA A.A.Bakıxanov ad. Tarix İns-tu, Azərb. Tarix Qurumu; Təşkilat komitəsi: Y.M.Mahmudov [və b.]. - Bakı: Victory, 2008. - 90 s.

**213.** Azərbaycan tarixi günbəgün: kitab-təqvim /Azərb. Resp. Prezidenti Yan. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Effektiv Təşəbbüslər Mərkəzi Demokratik Də-

yərlərin Öyrənilməsi və Təbliği İctimai Birliyi; tərt. ed. V.Əliyev; red. X.Məmmədov; məsl. F.İsmayılov. - Bakı: Təknur, 2008. - 368 s. *Kitab Azərbaycanın qədim dövrdən bugünədək keçdiyi dövlətçilik tarixi, ictimai-siyasi, mədəni həyatının önəmli hadisələri, şəxsiyyətləri haqqında yığcam bilgiləri əhatə edir.*

**214.** Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları: Beynəlxalq konfrans: (7 may 2008-ci il): [Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr edilmiş] /ideya və layihənin müəl.: Ə.Əhmədov, A.Aslanov; red.: V.Musayev [və b.]; tərc.: N.Xıdırov [və b.]. - Bakı: AzərTac, 2008. - 432 s.

**215.** Dövlət, demokratiya, qanunçuluq haqqında: çıxış və nitqlərdən sitatlar /toplayıb tərtib edəni H.T.İsmayılov. - Bakı, 2008. - 40 s. *Hər bir sitat dahi şəxsiyyətin, böyük siyasətçinin, əsl vətənpərvər bir insanın müdrikliyindən xəbər verir. Hər bir sitatdan, hər bir sözdən oxucu özü üçün çox şey əldə edə bilər, müdrik bir şəxsiyyətin məsləhət və tövsiyələrindən faydalana bilər.*

**216.** Əhmədli, R. Azərbaycan dövlətçilik fəlsəfəsi: [monoqrafiya] /Rafail Əhmədli; elmi red.: L.C.Mövsümova, M.B.Ağayev. - Bakı: Nurlan, 2008. - 360 s. *Monoqrafiyada ilk Azərbaycan dövləti Arattadan XX əsrin 18-20-ci illərində mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinə qədərki Azərbaycan dövlətçiliyi tarixində və Zərdüştdən başlamış XX əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan mütəfəkkirlərinədək dövlətçilik məsələlərindən bəhs etmiş görkəmli şəxsiyyətlərin fikir və mülahizələrindən çıxış edilərək, Azərbaycan fəlsəfəsi və ictimai-siyasi fikir tarixində dövlətçilik məfkurəsinin yaranması, inkişaf məsələləri araşdırılır.*

**217.** Əhmədova, S. Heydər Əliyevin dil siyasəti /Salatın Əhmədova; elmi red. N.Cəfərov; rəy. N.Xudiyev; Azərbaycanda Atatürk Mərkəzi. - Bakı: MBM, 2008. - 96 s. *Kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin işləyib həyata keçirdiyi dil siyasəti, Azərbaycan dilinin solinqvistik vəziyyətini, mövcud tarixi şəraiti nəzərə alırsa, digər tərəfdən liderin iradəsi ilə yeni vəziyyət və şərait diqtə edir, yəni prespektivlər müəyyənləşdirir.*

**218.** Əliyev, İ. Azərbaycan Respublikasının Dövlət rəmzləri /İqrar Əliyev, E.Məhərrəmov; red. Y.M.Mahmudov; AMEA A.Bakıxanov ad. Tarix İns-tu; AMEA Arxeologiya və Etnoqrafiya İns-tu. - Bakı: Nurlan, 2008. - 56 s. *Kitabçada Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1918-1920-ci illərdə qəbul edilmiş Dövlət bayrağı və qəbulu nəzərdə tutulan Dövlət gerbi ilə Dövlət himni haqqında məlumat verilir. Həmin rəmzlər Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra müxtəlif vaxtlarda rəsmi dövlət rəmzləri kimi təsdiq edilmişdir.*

**219.** Əliyeva, N. Müstəqillik ərəfəsi və mədəni inqilab dəyərləri: Monoqrafiya /Nurlana Əliyeva; elmi red. və rəyçi: B.Nəbiyev. - Bakı: Azərnəşr, 2008. - 368 s. *Monoqrafiyada müstəqillik ərəfəsi və mədəni inqilab dövrünün fikir irsi, müstəqillik məfkurəsində ana dili probleminin yeri, İslama qayıdış və milli təhsil problemi, mədəni inqilab dəyərləri və milli şüurun inkişafı və s. mövzular geniş şəkildə şərh olunur.*

**220.** Əsədov, O. Azərbaycan Respublikasının Parlamenti: [Azərb. və ing. dillərində] /Oqtay Əsədov, R.Cəbrayılov; red. S.Mirzəyev; tərc. ed.: Q.Əhmədov, Q.Bayramov, İ.Qafarova. - Bakı: Çaşıoğlu, 2008. - 520 s. *Kitabda milli mən-*

*lik şüurunun oyanması, azadlıq, müstəqillik, demokratiya, parlament siyasi mədəniyyəti və qanunvericilik fəaliyyətinin inkişafının 90 illik tarixi geniş əks olunmuşdur.*

**221.** Əsədov, O. Heydər Əliyev /Oqtay Əsədov; red. R.Cəbrayılov; tərc. ed.: Z.Əhmədov, Ə.Əfəndiyev; ön söz: S.Mirzəyev. - Bakı: Çaşıoğlu, 2008. - 408 s. *Kitabda Azərbaycanın milli dövlətçilik tarixinə publisistik münasibət əks olunmuşdur. Müəllif mənbələrə istinadən Azərbaycanın zəngin dövlətçilik ənənələrinə nəzər salmış, müstəqil Azərbaycan Respublikasının yaradılması və inkişafı ilə yeni bir mərhələyə qədəm qoyan bu tarixin işığında xalqımızın faciə və zəfərləri, mübarizə yolu, nailiyyətləri haqqında geniş söhbət açmışdır.*

**222.** Əsgərov, Ş. Düşüncə tərzi /Şahlar Əsgərov. - Bakı: Azərbaycan, 2008. - 336 s. *Kitabda bəzi ictimai-sosial hadisələrə, proseslərə müəllifin publisistik, fəlsəfi baxışı şərh edilmişdir.*

**223.** Heydər Əliyev dövlətçilik haqqında: [kəlamlar, sitatlar, aforizmlər] /red. və ön söz müəl. X.Vəliyev. - Bakı: Adiloğlu, 2008. - 168 s. *Kitabda Heydər Əliyevin irsi kontekstində siyasi-hüquqi, sosial-iqtisadi və mədəni-mənəvi həyatın aktual problemləri ilə bağlı fəlsəfi yüklü fikirləri toplanıb təsnif edilmişdir.*

**224.** Heydər Əliyev və qanunçuluq: çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar /red. və ön sözün müəl. X.Vəliyev. - Bakı: Adiloğlu, 2008. - Kb.1. - 432 s. *Kitabda müasir Ulu Öndərimiz H.Əliyevin 1993-cü ilin iyunundan sonrakı dövrdə müstəqil dövlətimizin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi, qanunçuluğun, insan hüquq və azadlıqlarının təmin olunması, eləcə də hüquq-mühafizə orqanları ilə keçirdiyi çoxsaylı görüşləri, söhbətləri, çıxışları, müraciətləri, bəyanatları, müvafiq fərman və sərəncamları əksini tapmışdır.*

**225.** Həmidov, H. Azərbaycanda təhsil siyasəti strategiyası: monoqrafiya /Habil Həmidov; elmi red. R.Mirzəzadə; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. - Bakı: Qartal, 2008. - 92 s. *Kitabda Azərbaycanda həyata keçirilən təhsil siyasəti strategiyasının müxtəlif aspektləri tədqiqata cəlb edilmişdir.*

**226.** Həsənova, M. Azərbaycanın milli dövlətçilik tarixində görkəmli qadınlar /Məlahət Həsənova, Ş.Cəlilli; layihənin rəhbəri M.İ.Həsənova; tərc. M.Rizvan qızı; rəssam F.Əli; ön söz: müəl. R.Mehdiyev. - Bakı: İmakofset, 2008. - 213 s. *Kitabda milli dövlətçilik tarixində Azərbaycanın görkəmli qadınları haqqında məlumat verilmişdir.*

**227.** İsmayılov, X. XIX əsrin II yarısı – XX əsrin əvvəllərində Azərbaycanda yerli özünüidarəetmə: təşkilati və hüquqi aspektləri: [monoqrafiya] /Xəyyam İsmayılov; elmi red. M.F.Məlikova. - Bakı: Elm və təhsil, 2009. - 272 s. *Monoqrafiya XIX əsrin II yarısı – XX əsrin əvvəllərində mürəkkəb hüquqi, siyasi, iqtisadi və sosial problemlərin həlli məqsədilə həyata keçirilən islahatlar fonunda Azərbaycanda tətbiq edilən və formalaşdırılan yerli özünüidarəetmə təsisatlarının təşkilati, struktur-funksional və hüquqi aspektlərinin öyrənilməsi və təhlilini əhatə edir.*

**228.** Qaralov, Z. İdeologiya və mənəviyyat /Zahid Qaralov; məs. red. G.Z.Qaralova. - Bakı: Hüquq ədəbiyyatı, 2008. - 484 s. *Kitabın yazılmasında əsas məqsəd özünüidarəetmə və idarəetmə orqanlarına seçim zamanı insanları böyük səhvlərdən çəkindirməkdir.*

**229.** Məmmədov, E. Bölgələrdə milli düşüncənin yüksəldilməsinə yardım /Elxan Məmmədov (red. və layihənin rəhb.), [N.Cəfərov]; "Mahmud Kaşqari" adına Beynəlxalq Fond; Azərb. Respublikasının Prezidenti yanında QHT-lərə

Dövlət Dəstəyi Şurası. - Bakı: Nur, 2008. - 36 s. *Kitabçada Azərbaycanın və Türk dünyasının böyük fikir adamı – görkəmli alim və ictimai xadim, AMEA-nın müxbir üzvü, prof. Nizami Cəfərovun Azərbaycan dövlətçiliyi barədə düşüncələri verilmişdir.*

**230.** Məmmədov, K. Millət və millətçilik: [monoqrafiya] /Kamran Məmmədov; elmi red. Ə.Tağıyev; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. - Bakı, 2008. - 200 s. *Monoqrafiya millət və millətçilik məsələlərinin konseptual və siyasi praktiki əsaslarının tədqiqinə həsr olunmuşdur.*

**231.** Məmmədov, M. III Respublika: milli inkişaf modeli və strategiyası /Məhərrəm Məmmədov; məsl. Z.Məmmədov; elmi red.: S.Qəndilov, N.Məmmədov; red. V.Hümbətov; bur. məs. G.Hacıyeva. - Bakı: Nurlan, 2008. - 200 s. *Kitabda Prezident İlham Əliyevin prezidentlik fəaliyyətini əhatə edən, Azərbaycan dövlətçiliyinin daha da möhkəmləndirilməsi, ölkəmizin siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdə dinamik inkişafın təmin olunması, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı görülən genişmiqyaslı işlər öz əksini tapmışdır.*

**232.** Milli dövlətçilik: özümüzü və dünyanı dərketmə yolunda: AMEA İnsan Hüquqları İnstitutunun aspirant və dissertantlarının elmi nəşrləri: 2008 dekabr /layihənin elmi rəh. R.Mustafayev; məsl.: N.Əliyev [və b.]; nəşrə məsul: M.Musayev, E.Hacıyev; nəşri hazırlayan: A.Qurbanov [və b.]; Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İns-tu. - Bakı: Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu, 2008. - 112 s. *Bu nəşrə Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutunun bir sıra aspirant və dissertantlarının son bir il ərzində apardıqları elmi araşdırmaların nəticələri toplanmışdır.*

**233.** Mir Cəfər. Düşüncələr /Mir Cəfər; red. T.Kərimli. - Bakı: Sabah, 2008. - 112 s. *Kitabda müəllifin müxtəlif illərdə qələmə aldığı tarixi, dini, milli-mənəvi dəyərlər haqqında düşüncələri toplanmışdır.*

**234.** Seyidov, M. Qədim dövrdə və erkən orta əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunvericiliyinin formalaşması /Mirafərim Seyidov; elmi red. A.İ.Quliyev; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu. - Bakı: Səda, 2008. - 140 s. *Kitabda Azərbaycanın dövlət və hüquq tarixi kontekstində dövlətin idarə edilməsi və qanunvericilik məsələlərinin tədqiqinə geniş yer verilmişdir.*

**235.** Şəfiyev, Ə. UNESKO-İKOM – Azərbaycan milli-iftixarımızdır /Əfqan Şəfiyev; məsl. C.Əliyev. - Bakı: Nurlan, 2008. - 164 s. *Kitabda Azərbaycan Müstəqillik qazandığından sonra YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının (İKOM) tərkibinə tamhüquqlu üzvlüyə qəbul olunması, İKOM-un Azərbaycan Milli Komitəsinin mövcudiyyatının 10 illiyi, yəni 1992-2002-ci illər ərzində istər Beynəlxalq miqyasda, istərsə də Azərbaycanda gördüyü işlər geniş işıqlandırılmışdır.*

**236.** Şəmsizadə, N. Seçilmiş əsərləri: 3 clddə /Nizaməddin Şəmsizadə. - Bakı: Elm, 2008. - C.1. - 560 s. *Kitabın birinci cildinə alimin "Azərbaycançılıq" və "Azərbaycan ədəbiyyatşünaslığı" monoqrafiyaları daxil edilmişdir. "Azərbaycançılıq"da qədim çağlardan günümüzə qədər Azərbaycan xalqının yaşadığı özünüdərk, təfəkkür və dövlətçilik yolu nəzərdən keçirilir.*

**237.** Şirinov, A.Ə. Sosial fəlsəfə və sosial gerçəklik /Aydın Şirinov; elmi red. Ə.F.Abbasov; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. - Bakı: Qanun, 2008. - 340 s. *Monoqrafiyada totalitarizmdən demokratiyaya keçid dövrünü ya-*

*şayan cəmiyyətlərin bütövlükdə və eləcə də Azərbaycanın həyatında baş verən dəyişikliklərin səbəbləri araşdırılır, onların pozitiv və neqativ cəhətləri göstərilir.*

**238.** Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları /təşkilat komitəsi: R.S.Həsənov (sədr) [və b.]. - Bakı, 2008. - 552 s. *Mətn Azərb. və rus dillərindədir.*

**239.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti" ümumrespublika konfransı materialları /təşk. kom.: M.Mərdanov [və b.] ön söz. S.Sadıq (məsul katib). - Bakı: Qafqaz Uni-ti, 2008. - 208 s.

**240.** Yaqublu, N. Türkiyənin Azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi: Sovetlər dönəmi: 1920-1991-ci illər /Nəsiman Yaqublu; elmi red. S.Məmmədli. - Bakı: Abşeron Nəşr, 2009. - 196 s. *Kitabda Azərbaycan Milli İstiqlal Mübarizəsinin ayrılmaz tərkib hissəsi olan mühacirət dövrü araşdırılıb. Müəllif, əsasən, Türkiyədə yaşamış və orada fəaliyyət göstərmiş azərbaycanlı mühacirlərin nəşr etdiyi mətbuat orqanlarını daha çox araşdırıb.*

**2009**

**241.** Abbasov, N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər /Namiq Abbasov; elmi red. və ön sözün müəl. M.Süleymanlı. - Bakı, 2009. - 452 s. *Kitabda Azərbaycan Respublikasının müasir dövrdə mədəniyyət siyasətinin elmi-müqayisəli təhlili verilir, bu siyasətin milli-mənəvi dəyərlərimizin inkişafındakı rolu araşdırılır.*

**242.** Abdullayev, E. Hüquqi dövlət quruculuğunun nəzəri-praktik məsələləri /Elşad Abdullayev; elmi red. L.Hüseynov; məsləhətçi Z.Əsgərov; burax. məsul: H.Əhmədov; Heydər Əliyev ad. Beynəlxalq Strateji Araşdırmalar və Proqnozlaşdırma Mərkəzi; Azərbaycan Beynəlxalq Universiteti. - Bakı: Beynəlxalq Universitet, 2009. - 568 s. *Kitab Azərbaycan Respublikasında milli müstəqillik və dövlətçilik təfəkkürünün, hüquqi cəmiyyətin formalaşması sahəsində Ümummilli lider Heydər Əliyevin çoxsahəli fəaliyyətinin ayrı-ayrı mərhələləri tarixi-politoloji aspektdən araşdırılır, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu sahəsindəki xidmətlərindən söz açılır.*

**243.** Abdullayev, F. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq /Fətəli Abdullayev; elmi red. H.Hüseynova. - Bakı: Elm və Təhsil, 2009. - 328 s. *Müasir Azərbaycan dövlətinin milli miqrasiya siyasətinin əsas prinsipləri, bu sahədə dünya təcrübəsi və beynəlxalq əməkdaşlığın aktual məsələlərinə həsr olunmuş kitabda miqrasiya prosesləri, onların mahiyyəti ilə bərabər, həmin sualların cavablandırılmasına da cəhd edilmişdir.*

**244.** Akimova, E. Azərbaycan ədəbi tənqidi müstəqillik illərində: (1990-cı illər): [monoqrafiya] /Elnarə Akimova; elmi red. T.Əlişanoğlu; ön söz A.Hüseynli. - Bakı: MBM, 2009. - 160 s. *Özlüyündə düşüncə tipi olan tənqidin yeni şəraitdə yeni təfəkkürə çixmaq, yiyələnmək zərurəti, ədəbiyyat tarixçiliyinə yeni baxış cəhdləri, ədəbi irs problemi və məxsusən sovet dövrü ədəbiyyatına münasibət və yenidənbaxışın gündəmdə olması məsələləri, eləcə də tənqidin əsas təhlil və qiymətləndirmə predmeti olan çağdaş ədəbi prosesdəki fəaliyyəti ətraflı tədqiq olunur.*

**245.** Dünya azərbaycanlıları: Tarix və müasirlik: (Elmi-nəzəri toplu) /BDU, Tarix fakültəsi, "Azərbaycanşünaslıq" Elmi-Tədqiqat Mərkəzi, "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" bölməsi; baş red. A.M.Məhərrəmov; elmi red.: S.T.Hacıyev [və b.]; red. hey.: U.M.Paşayeva [və b.]. - Bakı: MBM, 2009. - Bur. 3. - 298 s.

**246.** Əhmədli, R. Azərbaycan dövlətçilik fəlsəfəsinə dair: monoqrafiya /Rafail Əhmədli; elmi red.: L.Mövsümova, M.B.Ağayev. - Bakı: Təknur MMC, 2009. - 380 s.

**247.** Əmrahov, M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı: ali məktəblər üçün dərslik /Mais Əmrahov; elmi red. O.B.Sultanov; red. N.N.Əsədov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Ped. Uni-ti. - Bakı: ADPU, 2009. - 368 s. *Dərslikdə XX əsrdə Azərbaycan xalqının milli-azadlıq hərəkatının mərhələləri – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti, Azərbaycanda sovet rejiminin təşəkkülü, sovet dövlət quruculuğu, inzibati-amirlik sistemi şəraitində Azərbaycanda milli müstəqillik uğrunda mübarizə və b. proseslər haqqında geniş məlumat verilmişdir.*

**248.** Heydər Əliyevin dil siyasəti: rəsmi sənədlər /tərt. S.Əhmədova; elmi red. N.Cəfərov. - Bakı, 2009. - 136 s. *Kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin yürütdüyü dil siyasətini əks etdirən sənədlər, dillə bağlı çıxışları, müdrik kəlamları, deyimləri və tövsiyələri toplanmışdır.*

**249.** İbrahimov, Ə. Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri: [monoqrafiya] /Əli İbrahimov; elmi red. Ə.Tağıyev; AMEA Fəsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İns-tu, "Politologiya" şöbəsi. - Bakı: Elm və təhsil, 2009. - 252 s. *Kitabda çağdaş dünyamızın mühüm problemlərindən biri olan, milli intibah ideyaları üzərində formalaşan Yusif Vəzirin el-*

*mi-nəzəri yaradıcılığına kompleks şəklində yanaşılmış, onun sosial ədalət, milli ədalət, milli mətbuat və milli dil kontekstində dövlətçilik və maarifçilik baxışları şərh edilmişdir.*

**250.** Qəndilov, S. Dövlətçilik təfəkkürü, idarəçilik məharəti: [dərs vəsaiti] /Seyfəddin Qəndilov; red. Ə.Həsənov; rəyçilər: Ə.Abdullayev, E.Azadov. - Bakı: Azərbaycan, 2009. - 431 s. *Müəllifin 2006-cı ilin ikinci yarısından 2009-cu ilin sonunadək olan dövrü əhatə edən bu kitabına onun müasir narahat dünyamızın aktual hadisələrinə və respublikamızın ictimai-siyasi həyatının müxtəlif məsələlərinə dair mətbuat səhifələrində dərc edilmiş məqalələri, Dövlət İdarəçilik Akademiyasında keçirilmiş müxtəlif tədbirlərdəki, məruzə, nitq və çıxışları daxil edilmişdir.*

**251.** Məmmədov, Ə. Azərbaycanda milli-azadlıq hərəkatı: XIX - XX əsrin birinci yarısı: dərs vəsaiti /Əli Məmmədov; elmi red. X.S.Köçərli; rəyç.: S.A.Məmmədov, R.Ə.Əliyev, E.Hacıyev; Azərb. Resp. Təhsil Nazirliyi, ADPU. - Bakı: ADPU, 2009. - 208 s. *Vəsaitdə bütövlükdə dünyada, eləcə də Rusiya imperiyası və İranda cərəyan edən hadisələr, eləcə də hakimiyyət uğrunda mübarizə fonunda Azərbaycanın həm şimalı, həm də cənubunda baş qaldıran milli-azadlıq hərəkatı, prosesin gedişatı, nəticələri və nəhayət, Sovet imperiyasının çökməsi nəticəsində Şimali Azərbaycanda milli dövlətin yaradılmasından bəhs edilir.*

**252.** Məmmədzadə, İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında /İlham Məmmədzadə; elmi red. R.Mirzəzadə; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. - Bakı: Təknur, 2009. - 221 s. *Əsərdə qlobal məkanda yeniləşən Azərbaycan fəlsəfəsinin elmi təfəkküründə, düşüncəsində baş verən sosial-mədəni prosesləri metodoloji planda təhlil olunur.*

**253.** Mikayılov, Ş. İnsan – təbiət münasibətləri: Əxlaqi-estetik dəyərlər: [monoqrafiya] /Şasəddin Mikayılov; elmi red. M.Əfəndiyev. - Bakı: Elm, 2009. - 156 s. *Monoqrafiyada müasir qlobal problemlərin kəskinləşdiyi şəraitdə insan – təbiət münasibətlərinin mahiyyəti, həmin problemlərin həlli yolları təhlil olunur, bu istiqamətdə dünya ölkələrinin birgə fəaliyyətinin əhəmiyyətinə diqqət yetirilir. Eləcə də insan – təbiət münasibətləri kontekstində təzahür edən mənəvi-əxlaqi və estetik dəyərlər əhatəli araşdırılır.*

**254.** Milli dövlətçilik: özümüzü və dünyanı dərketmə yolunda: AMEA İnsan Hüquqları İnstitutunun aspirant və dissertantlarının elmi nəşrləri: 2009 dekabr /layihənin elmi rəh. A.Mustafayeva; məsl.: H.Hüseynova [və b.] nəşrə məsul: G.Nuriyeva, A.Mustafayev; nəşrə hazırlayan: M.Bekker [və b.]; Milli Elmlər Akademiyasının İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İns-tu. - Bakı: Milli Elmlər Akademiyası İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İns-tu, 2009. - 152 s.

**255.** Rəsulzadə, M.Ə. Azərbaycanda Milli hərəkat = Национальное движение в Азербайджане /Məhəmməd Əmin Rəsulzadə; təqd. ed. Ş.Hüseynov; tərc. red. N.Əhmədli; ümumi red. Ü.Hüseynova. - Bakı: Elm, 2009. - 127 s. *Kitabda müəllifin 1933-cü ildə yazdığı tarixi əsəri öz əksini tapmışdır. Əsərdə Azərbaycanda Milli hərəkat tarixi araşdırılmışdır.*

**256.** Rəsulzadə, M.Ə. Milli birlik /Məmməd Əmin Rəsulzadə; tərt. və elmi red. Y.Türkel; ön söz: Azərbaycan Kültür Dərnəyi Mərkəzi. - Bakı: Çıraq, 2009. - 176 s. *M.Ə.Rəsulzadənin bu əsərində, dili və üslubu eynilə qorunduğu kimi, məqalələrin bu sistem daxilində yeri və tarixləri göstərilmək şərtilə kitabda yer almışdır. Kitabda verilən məqalələr dərgi və qəzet səhifələri arasından çıxarılaraq yayımlanmışdır.*

**257.** Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr: Aida İmanquliyeva – 70 /AMEA; red. A.Əsədova. - Bakı: Elm, 2009. - 143 s. *Kitabda Azərbaycan ictimai fikir tarixində Şərq və Qərb elmi-mədəni əlaqələrini bir nəzəri problem kimi əsaslı və sistemli şəkildə tədqiq və təhlil edən, ölkəmizdə bu sahədə aparılan tədqiqatlarda yeni mərhələ açan, XX əsrin görkəmli şərqşünası, tədqiqatçı-alim, professor A.İmanquliyevanın yaradıcılığında Şərq-Qərb mədəniyyətlərinin qarşılıqlı təsiri və əlaqələri, ortaq mənəvi dəyərlər və s. mövzulara həsr olunmuş məqalələrin xülasələri öz əksini tapmışdır.*

**258.** Ulusel, R. Nizami Cəfərov. Həyat və düşüncə ritmləri: Azərbaycanın görkəmli elm, mədəniyyət və siyasət xadimi Nizami Cəfərovun 50 illiyinə /Rahid Ulusel; elmi red. F.Qasımzadə; red.: O.Musayev, O.Dəyanət. - Bakı: Çaşıoğlu, 2009. - 200 s. *Kitabda Nizami Cəfərovun həyat və fəaliyyətinin əsas məqamları nəzərdən keçirilir, azərbaycanşünaslıq sahəsində apardığı tədqiqatların böyük əhəmiyyətindən, humanitar elmlərin metodologiyasının təkmilləşdirilməsindəki, xüsusilə Azərbaycan mədəniyyət siyasətinin inkişafındakı rolundan bəhs edilir.*

**2010**

**259.** Abbasov, A. Milli əxlaq və ailə etikası: orta ixtisas məktəbləri üçün dərslik /Akif Abbasov; elmi red.: Ə.Əlizadə, Ə.Ağayev; rəy.: V.Xəlilov [və b.]. - Bakı: Mütərcim, 2010. - 320 s. *Dərslikdə milli əxlaq və ailə etikasının ümumi məsələləri, əxlaqın əsas kateqoriyaları, ailə etikası haqqında geniş və ətraflı məlumat verilmişdir.*

**260.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hey-

dər Əliyev və insan hüquqları: əqli mülkiyyət, elm və mədəniyyət sahələrində töhfələr" mövzusunda dəyirmi masanın materialları: 3 may 2010-cu il /tərt. ed.: Z.Əliyev [və b.]; üm. red.: E.Süleymanova, K.İmanov. - Bakı: Azərb. Respublikasının Müəllif Hüquqları Agentliyi, 2010. - 75 s.

**261.** Baharlı, M. Azərbaycan tarixi: Baharlılar /Məhəmməd Baharlı; red. M.Çabanov; rəyçi Z.Məmmədov Baharlı. - Bakı: Adiloğlu, 2010. - 44 s. *Müəllif "Azərbaycan tarixi: Baharlılar" adlı bu kitabında xalqımızın tərkib hissəsi olan, onun formalaşmasında, dövlətçilik ənənələrinin möhkəmlənməsində müstəsna rolu olan böyük bir tayfadan söz açır.*

**262.** Əhmədova, S. Heydər Əliyevin dil siyasəti: [monoqrafiya] /Salatın Əhmədova; red. C.İsgəndər. - Bakı: İncə, 2010. - 212 s. *Kitabda Azərbaycan dövlət dil siyasətinin formalaşması tarixindən, Azərbaycan dilinin dövlət dili kimi inkişafı uğrunda Heydər Əliyevin mübarizəsindən və s. ətraflı məlumat verilir.*

**263.** Əliyev, A. Ədəbiyyat nəzəriyyəsindən mühazirələr: [dərslik] /Akif Əliyev; elmi red. N.Əliyeva; rəyçilər: A.Hacıyev, M.Allahmanlı. - Bakı: ADPU, 2010. - 216 s. *Dərsliyə daxil edilən mühazirə mətnləri Ümummilli lider Heydər Əliyevin "Azərbaycançılıq" ideologiyası əsasında hazırlanmışdır. Burada ədəbiyyat nəzəriyyəsinin predmeti tədqiq obyekti və başqa elmlərlə əlaqəsi, ədəbi-nəzəri fikrin formalaşması və inkişafı, ədəbi cərəyanlar, bədii yaradıcılıq metodu, epik əsərlərin janrları, bədii dil və s. mövzular verilmişdir.*

**264.** Həmidov, H. Azərbaycanda təhsil siyasəti: mərhələli inkişaf və konseptual aspektlər: [monoqrafiya] /Habil Həmidov; elmi red. A.Bəşirov; AMEA, Fəlsəfə, Sosiologiya

və Hüquq İns-tu. - Bakı: Təknur, 2010. - 160 s. *Kitabda Azərbaycanda müxtəlif dövrlərdə mərhələli şəkildə həyata keçirilən təhsil siyasətinin müxtəlif aspektləri tədqiqata cəlb edilmişdir. Eyni zamanda problem konseptual baxımdan da müqayisəli təhlillər aparılaraq Azərbaycanın Yeni Təhsil Qanunu kontekstində də araşdırılır.*

**265.** Lənkəran Dövlət Universiteti Heydər Əliyev siyasəti və onun uğurlu davamının işığında /Lənkəran Dövlət Universiteti; elmi red., ön sözün müəl. A.İsgəndərov. - Bakı: Nurlan, 2010. - 116 s. *Kitabda Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla və yeni dövrün tələblərinə uyğun inkişaf etdirilməsi nəticəsində ölkənin böyük iqtisadi və siyasi yüksəlişi fonunda təhsilə və elmə göstərilən qayğı sayəsində Lənkəran Dövlət Universitetinin keçdiyi inkişaf yoluna nəzər salınmışdır.*

**266.** Mərdanov, M. Azərbaycan Respublikasının dövlət rəmzləri: [soraq kitabı] /Misir Mərdanov, Ə.Quliyev; elmi red. R.Mehdiyev. - Bakı: Çaşıoğlu, 2010. - 288 s. *Kitab Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncam (13 mart 1998-ci il) əsasında hazırlanmışdır. Bu əsərdə ilk dəfə olaraq sistem halında müstəqil Azərbaycanın dövlət rəmzlərinin (bayraq, gerb, himn) yaranması tarixi izlənilir, milli rəmzlərin bərpası və qəbulu yolunda Prezident cənab Heydər Əliyevin müstəsna rolu göstərilir, dövlət rəmzlərimiz Azərbaycan Xalq Cümhuriyyətindən (1918-1920-ci illər) bizə miras qalan tarixi milli-mənəvi dəyər kimi qiymətləndirilir.*

**267.** Mərdanov, M. Azərbaycan təhsili: islahatların uğurlu nəticələri: 2009-2010-cu illər /Misir Mərdanov; red.

F.Qədirov; burax. məs. A.Əzizov; Azərb. Resp. Təhsil Nazirliyi. - Bakı: Şərq-Qərb, 2010. - 244 s. *Kitabda 2009-2010-cu tədris ilində Azərbaycanda təhsilin inkişafı, beynəlxalq qurumlarla birlikdə həyata keçirilən islahatlar, ayrı-ayrı təhsil pillələri və səviyyələri üzrə reallaşdırılan dövlət proqramları və əldə olunan nailiyyətlər, eyni zamanda mövcüd problemlər və qarşıda duran vəzifələr öz əksini tapmışdır.*

**268.** Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr: Professor Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş Beynəlxalq İbnül-Ərəbi Simpoziumunun materialları: (9-11 oktyabr, 2009 - Bakı) /baş red.: N.Paşayeva [və b.]; red. hey.: V.Məmmədəliyev [və b.]; red. A.Əsədova; tərc.: N.Koltaş [və b.]. - Bakı: Elm, 2010. - 624 s.

**269.** Tağıyev, Ə. Qloballaşma və millilik fəlsəfi-siyasi reallıqlar kontekstində /Əlikram Tağıyev; red. A.X.Mustafayev. - Bakı: Təknur, 2010. - 147 s. *Kitab müasir şəraitdə qloballaşma ilə milliliyin nisbəti məsələsinə həsr olunur. Bundan əlavə müasir şəraitdə regionda və dünyada baş verən mühüm siyasi hadisələrə münasibət bildirilir, milli fəlsəfənin və ictimai siyasi fikrin bəzi məsələləri işıqlandırılır.*

**270.** Topçubaşov, Ə. Azərbaycanın yol göstərəni /Əlimərdan bəy Topçubaşov; tərt., tərc. və müqəd. V.Quliyev; elmi red. K.Adbulla. - Bakı: BSU Kitab aləmi, Mütərcim, 2010. - 96 s. *1925-ci ildə Parisdə yazılan və indiyə qədər əlyazma şəklində qalan bu əsərdə görkəmli publisist və ictimai-siyasi xadim, Azərbaycan Cümhuriyyətinin qurucularından biri olan Əlimərdan bəy Topçubaşov (1862-1934) milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin geniş və çoxcəhətli fəaliyyətini araşdırmışdır.*

**271.** Unudulmaqda olan milli-mənəvi dəyərlərimiz və gəncliyimiz: [məqalələr] /Dünya Gənc Türk Yazarlar Birliyi;

**379.** Hacıyev, R. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu: [monoqrafiya] /Rövşən Hacıyev; elmi red. İ.Məmmədzadə; AMEA Fəlsəfə və Hüquq İns-tu.- Bakı: Xəzər Uni-ti, 2015. -352 s.

**380.** İmanov, K. Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə /Kamran İmanov.- Bakı: Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi, 2015. - 36 s. *Bu kitabça Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanovun 30 may 2013-cü il tarixində keçirilən Müəllif Hüquqları Agentliyinin müstəqillik dövründəki fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" mövzusunda beynəlxalq konfransda etdiyi "Azərbaycanın müəllif-hüquq sistemi 20 ildə" adlı prezentasiya əsasında hazırlanmışdır.*

**381.** Mamulia, G. Odlar yurdu azadlıq və müstəqillik uğrunda mübarizədə: Azərbaycan mühacirətinin siyasi tarixi (1920-1945): [rus dil. tərc.] /Giorgi Mamulia, R.Abutalıbov; tərc. A.Əliyev; elmi red. A.Balayev. - Bakı: TEAS Press, 2015. - 464 s. *Kitab 1920-1945-ci illərdə Azərbaycan mühacirətinin siyasi tarixinə və onun təmsilçilərinin ölkəmizin və bütövlükdə Qafqazın müstəqilliyinin bərpası uğrunda mübarizəsinə həsr edilib.*

**382.** Məmmədəliyeva, L. Anarın Ümummilli Liderlə "Unudulmaz görüşlər"i /Leyla Məmmədəliyeva; elmi red.,

[ön söz] N.Cəfərov. - Bakı: Elm, 2015. - 124 s. *Kitabda müstəqillik illəri Xalq yazıçısı Anarın publisistik yaradıcılığı geniş və ətraflı şərh olunmaqla yanaşı, adıçəkilən dövrdə Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının tarixi taleyində oynadığı rol yazıçı-publisist rakursu nöqteyi-nəzərindən təhlilə cəlb olunmuşdur.*

**383.** Məmmədli, Ş. Vətənpərvərlik poeziyası: 1990-cı illər /Şərqiyyə Məmmədli; elmi red. Q.Namazov. - Bakı: Nurlar, 2018. - 168 s. *Monoqrafiyada 1990-cı illər Azərbaycan poeziyasında vətənpərvərlik və vətəndaşlıq ideyalarının bədii təcəssümü məsələləri təhlil olunmuşdur.*

**384.** Mikayılova, Ə. Azərbaycan dili və nitq mədəniyyəti: praktikum: ali məktəblər üçün dərs vəsaiti /Əzizə Mikayılova; red. F.R.Xalıqov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Texniki Uni-ti. - Bakı: Elm və təhsil, 2015. - 160 s. *Dərs vəsaitində müasir dövrdə Azərbaycan dilinin inkişafı, milli-mənəvi dəyərlərin, milli ruhun qorunması, azərbaycançılıq ideologiyası və məfkurəsinin sistem halına salınması, həmçinin digər məsələlərin izahı ilə əlaqəli olaraq Ümummilli lider Heydər Əliyevin müxtəlif tədbirlərdəki çıxış və məruzələrinə müraciət olunmuşdur.*

**385.** Mustafayev, R. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda /Rövşən Mustafayev; AMEA İnsan Hüquqları İnstitutu. - Bakı: Elm və təhsil, 2015. - 239 s. *Kitabda Vətəndaşlıq fəlsəfəsinə dair; Dövlətin rolu və liderlik məfhumu; İnkişafın iqtisadi yolları və iqtisadiyyatda intellektual idarəetmə sistemi məsələləri; Xarici siyasətin genişlənmə fəlsəfəsi; Cəmiyyətimizdə müdrik kompromis siyasətinə dair adlı bölmələr verilmişdir.*

**386.** Nəsibov, E. Dövlət və siyasət fəlsəfəsi /Elşən Nəsibov. - Bakı: Elm və təhsil, 2015. - C. 3: Siyasət. Kitabın

birinci bölümü. - 108 s. *Kitabda dövlət və onun mahiyyəti (dövlət-fəlsəfi məzmun kimi), hakimiyyət fəlsəfəsi, hakimiyyət etikası, hüquq sistemi və siyasət sisteminin vəhdəti, kütləvi informasiya vasitələri və "dördüncü" hakimiyyət anlayışı, dövlətin inkişaf yollarının fəlsəfi əsasları və s. mövzular verilmişdir.*

**387.** Niftiyev, N. Azərbaycanda birgəyaşayış və multikulturalizm /Niyaz Niftiyev; ön söz: E.Nəsirov; elmi red. İ.Abbasov; Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. - Bakı, 2015. - 408 s. *Təqdim olunan araşdırmada milli azlıq anlayışının xarakteristikası və multikulturalizm istər dünya, istərsə də Azərbaycan alimlərinin baxış bucağından öyrənilmişdir. Həmçinin birgəyaşayışda azərbaycançılıq ideologiyası milli birliyin əsası kimi göstərilmiş, Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin bu istiqamətdə gördüyü mühüm işlər diqqətə çatdırılmışdır.*

**388.** Novruzov, T. Müstəqillik dövründə Azərbaycan ədəbiyyatına dövlət qayğısı /Tərlan Novruzov; red. R.Hüseynov. - Bakı: Elm və təhsil, 2015. - 444 s. *Vəsaitdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin klassiklərimiz, müasirlərimiz, çağdaş şair və yazıçılarımızla bağlı qərarları, sərəncamları, fikir və mülahizələri, ədəbi-mədəni müsamirələrdəki dərin məzmunlu çıxışları təhlil edilmiş, onların tarixi əhəmiyyəti dəyərləndirilmişdir.*

**389.** Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti /Məhəmməd Əmin Rəsulzadə; tərt. Y.S.Türkel. - Bakı, 2015. - 152 s. *M.Ə.Rəsulzadə, bu kitabında başlanğıcından bəri içində olduğu Azərbaycan milli hərəkatının inkişafı, Azərbaycan Cümhuriyyətinin quruluşu və hansı səbəblərdən bolşevik ruslarını əlinə keçdiyindən ən yüksək səviyyədə bəhs edir.*

**390.** Ulusel, R. Türkşünaslıq və azərbaycanşünaslığın dialektikası: professor Nizami Cəfərovun elmi yaradıcılığının analitik dəyərləndirilməsi /Rahid Ulusel; elmi red. İ.Həbibbəyli; red.: O.Musayev, D.Osmanlı. - Bakı: AzAtaM, 2015. - 40 s. *Kitabda Azərbaycanın elm, mədəniyyət və siyasət xadimi, AMEA-nın müxbir üzvü, Milli Məclisin və onun Mədəniyyət Komitəsinin sədri Nizami Cəfərovun türkşünaslıq və azərbaycanşünaslıq üzrə tədqiqatlarının əhəmiyyəti üzə çıxarılır, elmi yaradıcılığının əsas komponentləri analitik təhlilini tapir.*

**391.** Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və dil" mövzusunda Respublika elmi konfransının materialları: 30 aprel, 2015-ci il /Azərb. Resp. Təhsil Nazirliyi, Qərb Uni-ti, Azərb. Dövlət Pedaqoji Uni-ti. - Bakı: Qərb Universiteti, 2015. - 88 s.

**392.** Verdiyeva, M. Əxlaqi-mənəvi dəyərlər /Mirvari Verdiyeva, Ə.İsmayılxanova; elmi red. İ.N.İsayev. - Bakı: ADPU, 2015. - 208 s. *"Əxlaqi-mənəvi dəyərlər" hər bir insanın həyatda tutduğu yoldur və bu yol əxlaq normalarından, cəmiyyət içərisindəki davranış qaydalarından, insanlar arasındakı münasibət formalarından ibarətdir. Bu dəyərlərin hər birinin mahiyyəti kitabda geniş şərh edilmişdir.*

**2016**

**393.** Abbasova, S. Azərbaycan Respublikasında dövlət qadın siyasəti və qadınların tərəqqisi: [monoqrafiya] /Sevinc Abbasova; elmi red. E.Zamanov; elmi məsləhətçi İ.Hacıyev. - Bakı: Elm və təhsil, 2016. - 546 s. *Monoqrafiyada Azərbaycan qadınının müasir dövrdə siyasi, sosial və mədəni tərəqqisi məhz Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu uğurlu inkişaf strategiyası ilə əlaqədə tədqiq olunur.*

**394.** Axundova, J. Müxtəlif ölkələrdə diaspor və ictimai-mədəni diplomatiya /Jalə Axundova. - Bakı: Elm və təhsil, 2016. - 92 s.

**395.** Axundzadə, M. Azərbaycan torpağına türbət demişəm. Xatirat /Mirzə Səlim Axundzadə; ərəb qrafik. latın qrafik. çevir. və fars dil. tərc. ed. M.Ə.Muxtari; red. G.İ.Axundova; tərt. ed. və çapa haz., [ön söz] T.İ.Axundov. - Bakı, 2016. - 104, 152 s. *Oxuculara təqdim olunan bu kitab Azərbaycanda XX əsrin əvvəllərində milli dövlətçiliyə aparan yolda cərəyan edən daxili proseslərin, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və həmin vaxt baş verən hadisələrin iştirakçısı olmuş Hacı Mirzə Səlim Axund Axundzadənin mühacirətdə olarkən qələmə aldığı "Xatirat" yarımçıq qalmış olsa da, onda canlı əks olunmuş hadisələrin işıqlanması Azərbaycan tarixinin olduqca mühüm olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünü tədqiq etmək üçün qiymətli mənbədir.*

**396.** "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər: noyabr 1918 – Aprel 1920 /araşdırıb top., ərəb əlifbasından latın əlifbasına çevirəni, ön söz müəl., lüğətin tərt. Ş.Hüseynov; transliterasiya red.: Ş.Vəliyev, S.Xalidoğlu (Mirzəyev). - Bakı: Qanun, 2016. - C.2. - 559 s. *Neçə minillik dövlətçilik tarixi və ənənəsi olan Vətənimizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil Xalq Cümhuriyyətinin ilk parlamanı - Məclisi-Məbusanının fəaliyyətinə dair "Azərbaycan" qəzetində dərc olunmuş hesabatlar və şərhlərdən bəhs edən bu kitab Cümhuriyyətin qarşıdan gələn 100 illik yubileyinə həsr olunur.*

**397.** Azərbaycan Respublikasının tarixi: (1991-2016): tarixi-xronoloji araşdırma: müstəqil Azərbaycanın 25 illik yubileyinə həsr olunur /tərt. İ.Niftəliyev; lay. rəhb., elmi red. və ön sözün müəl. Y.Mahmudov. - Bakı: Azərbaycan

Tarixçiləri İctimai Birliyi, 2016. - 244 s. *Məlumat toplusunun üstün cəhəti bundan ibarətdir ki, tədqiqatçı alim ötən illərin tarixi hadisələrini elmi cəhətdən düzgün dövrlərə bölərək təqdim edir.*

**398.** Azərbaycan Respublikasının tarixi: (1991-2003): müstəqil Azərbaycanın 25 illik yubileyinə həsr olunur /AMEA A.A.Bakıxanov ad. Tarix İns-tu; lay. rəhb., elmi red. Y.Mahmudov; elmi məsl. A.Əlizadə. - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016. - C.1: Heydər Əliyev dövrü. - 704 s. *Fundamental elmi araşdırma müstəqillik dövrü tariximizin 1991-2003-cü illərini əhatə edir. Bu dövr müstəqil Azərbaycanın tarixinə Heydər Əliyev dövrü kimi daxil edilmişdir. "Azərbaycan Respublikasının tarixi"-nin 1-ci cildi bu sahədə ilk akademik araşdırma olmaqla müstəqillik dövrü tariximizlə maraqlanan tədqiqatçılar, təhsil sistemi işçiləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**399.** Azərbaycan Respublikasının tarixi: (2003-2016): müstəqil Azərbaycanın 25 illik yubileyinə həsr olunur /AMEA A.A.Bakıxanov ad. Tarix İns-tu; lay. rəhb., elmi red. Y.Mahmudov; elmi məsl. A.Əlizadə. - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016. - C.2: İlham Əliyev dövrü. - 716 s. *Fundamental elmi araşdırma müstəqillik dövrü tariximizin 2003-2016-cı illərini əhatə edir. Bu dövr müstəqil Azərbaycanın tarixinə İlham Əliyev dövrü kimi daxil olmuşdir. "Azərbaycan Respublikasının tarixi"-nin 2-ci cildi bu sahədə ilk akademik araşdırma olmaqla müstəqillik dövrü tariximizlə maraqlanan tədqiqatçılar, təhsil sistemi işçiləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**400.** Azərbaycançılıq ideyası milli dövlətçilik ideologiyası kimi /Sosial və iqtisadi islahatlara dəstək İctimai Birli-

yi, Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; tərt. T.Vəliyev. - Bakı: Qaya, 2016. - 32 s. *Kitabçada Azərbaycançılıq ideyasının tarixi və mahiyyəti; Azərbaycançılıq ideyası və Ümummilli lider Heydər Əliyev; Azərbaycançılıq milli birliyimizin əsası, təzahür forması və təminatçısıdır adlı mövzular verilmişdir.*

**401.** Azərbaycançılıq ideologiyasının təbliğində mədəniyyətin rolu /Uşaq və Yeniyetmələrə Dəstək İctimai Birliyi; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; tərt. S.Məlikov; çapa məsul: F.Abdulov.- Bakı, 2016. - 32 s. *Kitabçada Azərbaycançılıq dünya azərbaycanlılarının milli ideologiyasıdır, Azərbaycançılıq və milli-mədəni irs; Azərbaycan milli incəsənəti və azərbaycançılıq; Azərbaycançılıq və milli musiqi alətləri və s. adlı mövzular verilmişdir.*

**402.** Azərbaycançılıq milli ideya rəmzi kimi: təbliği və tədqiqi: mövzu ətrafında məqalələr toplusu /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Mədəni İnkişaf və Dialoq İctimai Birliyi; tərtibatçı S.Qasımov. - Bakı: QHT Nəşriyyatı, 2016. - 72 s. *Əsərdə Azərbaycanın demoqrafik inkişaf yolu, insan kapitalına elit münasibət, vətəndaş cəmiyyətinin qurulması ilə bağlı yürüdülən siyasət, İKT-nin vacib xarakter daşıdığı, dövlətimizin maraqları ilə uzlaşan inteqrativ prosesləri və bu fonda isə milli ideya zəminində milli özgürlüyə yeni baxışdan yanaşmanı şərh etmək dayanır.*

**403.** Azərbaycançılıq – milli ideologiyamız: [bülleten] /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Kür-Xəzər" Xeyriyyə İctimai Birliyi; ideya müəl. və layihə rəhbəri: A.Kərimov. - Bakı: QHT, 2016. - 22 s. *Bülleten Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının*

*maliyyələşdirici "Gənclər arasında azərbaycançılıq ideyasının təşviqinə dair tədbirlərin təşkili" layihəsi çərçivəsində hazırlanıb.*

**404.** Cəfərov, N. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları /Nizami Cəfərov, V.Sərdarov, A.Cəfərov; red. D.Osmanlı. - Bakı: Elm və təhsil, 2016. - 216 s. *Kitabda Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları əks olunmuşdur.*

**405.** Əlişanoğlu, T. Müstəqillik körpüsünü keçənlər: (tamamlanmamış birinci nəşr): [toplu] /Tehran Əlişanoğlu; üz qabığının rəssamı: Heyran. - Bakı: Elm və təhsil, 2015. - 452 s. *Toplu müstəqillik epoxasına ədiblərin yaradıcılığının içindən baxmaq cəhdidir. Hər bir mətndə ayrıca və kitabda bütövlükdə sovet dönəmini arxada qoyub müstəqilliyinə doğru gəlişən Azərbaycan ədəbiyyatının mənzərələrini görmək olar.*

**406.** Folklor və dövlətçilik düşüncəsi /AMEA, Folklor İns-tu [ön söz]; layihə rəhb. M.Kazımoğlu (İmanov). - Bakı: Elm və təhsil, 2016. - Kb.1. - 308 s. *"Türk xalqlarında dövlət simvol, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi" adlı elmi-tədqiqat proqramı çərçivəsində hazırlanmış "Folklor və dövlətçilik düşüncəsi" adlı I kitab, tarixi və müasir türk dövlətlərinin və türk xalqlarının, o cümlədən Azərbaycanın dövlət mərasim və bayramlarının tarixi, folklor semantikası və ideyası haqqında elmi qənaətləri əks etdirir.*

**407.** Hacıyev, İ. Behbud Ağa Şahtaxtinski /İsmayıl Hacıyev; red. M.Quliyev. - Naxçıvan: Əcəmi, 2016. - 80 s. *Kitabda görkəmli siyasi və dövlət xadimi, diplomat Behbud ağa Şahtaxtinskinin həyatı, çoxcəhətli siyasi və dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərindən bəhs edilmişdir.*

**408.** Heydər Əliyev – Azərbaycan: dünən, bu gün və sabah: elmi-praktiki konfransın materialları /elmi red.

Ş.Hacıyev. - Bakı: Azərbaycan, 2016. - 338 s. *Kitab Səbail Rayon İcra Hakimiyyəti və YAP Səbail Rayon Təşkilatının birgə təşəbbüsü ilə Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev – Azərbaycan: dünən, bu gün və sabah" mövzusunda keçirilmiş elmi-praktiki konfransın materialları əsasında hazırlanmışdır.*

**409.** Xələfli, Ə.R. Tənqidçinin azərbaycançılıq idealı: portret cizgiləri, ədəbi trilogiya: monoqrafik tədqiqatlar /Əli Rza Xələfli; elmi red., ön söz müəl. N.Q.Cəfərov; son söz müəl. E.Mehrəliyev; red. Ş.M.Cəfərov. - Bakı: 3 saylı Bakı mətbəəsi ASC, 2016. - 336 s. *Kitab görkəmli ədəbiyyatşünas-tənqidçi Təyyar Salamoğlunun həyat və yaradıcılığı əsasında yazılmışdır. Müəllif görkəmli alimin simasında çağdaş ədəbi tənqidimizin azərbaycanşünaslığa elm, azərbaycançılığa ideologiya baxımından münasibətinin araşdırılmasına – tədqiqinə, eyni zamanda tənqidçinin portret cizgilərinə də geniş yer ayırmışdır.*

**410.** İbrahimov, Ə. Azərbaycançılıq ideyasının konseptual aspektləri: [monoqrafiya] /Əli İbrahimov; elmi red. Ə.Tağıyev; elmi məsləhətçi: Ə.Abbasov. - Bakı: Avropa, 2016. - 180 s. *Monoqrafiyada Azərbaycan milli ideologiyasında aparıcı rola malik olan Azərbaycan ideyasının tədqiqi, təbliği, onun daha da inkişaf etdirilməsi və dönmədən həyata keçirilməsi ilə bağlı nəzəri müddəalar ümumiləşdirilib sistemə salınmışdır. Bu istiqamətdə böyük tarixi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin əzmkarlığı, gərgin əməyi, axtarışları və çoxcəhətli siyasi fəaliyyəti əsas müddəalar kimi dəyərləndirilmişdir.*

**411.** "Kaspi" – maarifçilik meydanı: kitab Azərbaycan Respublikasının müstəqilliyinin 25 illiyinə və "Kaspi" qəzetinin 135 illik yubileyinə həsr olunur /"Kaspi nəşrləri" layihəsinin rəhbəri, kitabın ideya və ön söz müəl. S.Vəliyeva; red. F.Hüseyn. - Bakı: Zərdabi LTD, 2016. - 652 s. *Kitab Azərbaycanın maarifçilik tarixi, dövlətçilik, müstəqillik ənənələri, mədəniyyəti və ədəbiyyatı ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.*

**412.** Qasımov, R. Müstəqillik yollarında: liderlik missiyası /Ramiz Qasımov, Z.İsmayıl; elmi red. İ.Hacıyev; AMEA, Naxçıvan Bölməsi. - Naxçıvan: Əcəmi, 2016. - 216 s. *Əsərdə dahi liderin yaratdığı siyasi məktəbin uğurlu davamçılarının da fəaliyyəti özünə yer almışdır. Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu, qazanılan uğurlar, ölkədə aparılan quruculuq və yenilənmə işləri kitabın başlıca mövzusu və məzmununu təşkil edir.*

**413.** Quluzadə, M. Azərbaycanın dövlətçilik tarixi: dərslik /Musa Quluzadə [tərt. ed.]; elmi red. Y.M.Mahmudov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı: Mütərcim, 2016. - 263 s. *Bu kitab inanırıq ki, dövlətçiliyimizin uzaq keçmişindən indiyədək dövlət idarəçilik tarixini öyrənənlər üçün əsas vəsait ola biləcəkdir.*

**414.** Məmmədəliyeva, L. Elçin publisistikasında "Tənha adam" – Ulu Öndər obrazı /Leyla Məmmədəliyeva; elmi red., [ön söz] N.Cəfərov. - Bakı: Elm, 2016. - 116 s.

**415.** Mirzəzadə, A. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri: dərslik /Aydın Mirzəzadə; elmi red. Ə.Həsənov; Azərb. Resp. Təhsil Naz., Azərb. Resp. Prezidenti Yanında

Dövlət İdarəçilik Akad.- Bakı: Azərbaycan, 2016. - 240 s. *Kitabda Azərbaycanın və dünyanın görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti, nəzəri baxışları bir elmi sistem kimi götürülür, onun formalaşmasının tarixi səbəbləri araşdırılır, fəaliyyətinin siyasi elmin inkişafına verdiyi töhfə, siyasi baxışlarının predmeti, kateqoriyaları, nəzəri mənbələri əsaslandırılır, elmi qanunauyğunluqları göstərilir.*

**416.** Mirzəzadə, R. Azərbaycançılıq və vətənpərvərlik məfkurəsi /Reyhan Mirzəzadə; red. M.Ələkbərli. - Bakı: Zərdabi LTD MMC, 2016. - 664 s. *Bu yazı və digər tədqiqat məqalələri ölkə mətbuatında mütəmadi dərc olunub və dərc olunmaqda davam edir. Müəllifin sayca ikinci kitabı olan bu nəşrə daxil edilən materiallar onun yaradıcılıq fəaliyyətindəki yazılarının bir qismidir.*

**417.** Multikultural dəyərlər çərçivəsində: Oğuz, Qəbələ, Zaqatala, Balakən /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Araz" Ziyalılar İctimai Birliyi; tərt. ed. Q.Mirzəyeva (mətn. tərc.); red. E.Məmmədova; lay. rəhb. N.M.Məmmədov. - Bakı: Elm və təhsil, 2016. - 52 s. *Kitabda Azərbaycanın Oğuz, Qəbələ, Zaqatala, Balakən bölgələrinin adət-ənənələrinin, maddi və mənəvi mədəniyyətlərinin rəngarəngliyi təqdim edilir.*

**418.** Multikulturalizmin azərbaycançılıq məfkurəsi kontekstində təbliği /"Nurlu Sabah Uşaq – Gənclər Təşkilatı" İctimai Birliyi, Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası. - Quba: Nurlu Sabah Uşaq-Gənclər Təşkilatı, 2016. - 20 s. *Kitabçada multikulturalizmin azərbaycançılıq məfkurəsi kontekstində təbliği haqqında ümumi məlumat verilmişdir.*

**419.** Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə: dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilir: məqalələr toplusu /tərt. Azərb. Resp. Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsi; ideya müəl. N.Məmmədov. - Bakı: BEST-TMS, 2016. - 648 s. *Kitabda Azərbaycan Respublikasının xarici siyasət strategiyasının 25 illik tarixinə nəzər salınmışdır. Bir sıra xarici ölkələrin Azərbaycan Respublikasına akkreditə olunmuş diplomatik missiya rəhbəri təmsil etdikləri ölkələrin Azərbaycanla əlaqələrini geniş şəkildə təsvir etmiş, keçilmiş yolun çətinlikləri, nailiyyət və uğurları, həmçinin perspektivləri haqqında məlumat verilmişdir.*

**420.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: 2 cilddə /AMEA Nizami ad. Ədəbiyyat İns-tu; məsul red. T.Əlişanoğlu; elmi red. İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, 2016. - C.1. - 800 s. *Kitabda müstəqillik dövrü Azərbaycan ədəbiyyatının 1990-cı illər mərhələsinin formalaşması, təşəkkül prosesləri, inkişaf yolu və əsas yaradıcılarından bəhs olunur.*

**421.** Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: 2 cilddə /AMEA, Nizami ad. Ədəbiyyat İns-tu; məsul red. T.Əlişanoğlu; elmi red. İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, 2016. - C.2. - 1088 s. *Kitabda müstəqillik dövrü Azərbaycan ədəbiyyatının 2000-ci illər mərhələsinin ümumi səciyyəsi, inkişaf tendensiyaları və əsas yaradıcılarından bəhs olunur.*

**422.** Müstəqillik dövründə ailə siyasətinin formalaşması – ənənələr, perspektivlər: Elmi-praktik konfrans materialları. - Bakı, 2016. - 72 s.

**423.** Müstəqillik tarixi sərvətimizdir: Azərbaycan Respublikasının yaranmasının 25 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

/Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli ad. Resp. Uşaq Kitabxanası; tərt.: K.Səmədzadə, S.Əhmədova; ixtisas red. və buraxıl. məsul Ş.Qəmbərova.- Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016. - 40 s.

**424.** Müstəqillik yollarında: Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25 illiyinə həsr edilmiş məqalələr toplusu /Azərbaycan Milli Elmlər Akademiyası; red. Heyəti: R.Ə.Mehdiyev [və b.]; məsul red. İ.Ə.Həbibbəyli. - Bakı: Şərq-Qərb, 2016. - 628 s. *Kitabda Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpa olunmasının 25 ili ərzində cəmiyyət həyatının əsas sahələri üzrə keçirilmiş məsuliyyətli və şərəfli yoldan, əldə edilmiş mühüm nailiyyətlərdən bəhs olunur.*

**425.** Müstəqilliyimiz əbədidir! /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi; layihənin rəh., tərt. M.B.Bağırov; elmi red.: F.F.İbrahimli, C.Ə.Bəhramov. - Bakı: Ecoprint, 2016. - 395 s. *Müstəqilliyimizin bərpasının 25-ci ildönümünə həsr olunmuş bu məqalələr toplusu və eləcə də bu hadisə ilə bağlı keçirilməsi nəzərdə tutulan beynəlxalq elmi konfransının materialları Azərbaycanın bu illər ərzindəki uğurlarından bəhs edir.*

**426.** Müstəqilliyin 25 ili: azərbaycançılıq ideyası və dil siyasəti /Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Türk Dünyası İnfo" İB; tərt., layihənin rəh. D.O.Osmanlı; red.: Ş.Əliyev, Ə.Qoşalı, İ.İlyaslı; ön söz müəl. N.Q.Cəfərov. - Bakı: Qaya nəşriyyat MMC, 2016. - 224 s. *Kitabda azərbaycançılıq ideyası və dil siyasətinə dair materiallar əks olunmuşdur.*

**427.** Naxçıvan müstəqillik illərində: hədəflər, inkişaf, nəticələr: [3-4 dekabr 2015-ci ildə keçirilmiş elmi konfransın

materialları]: Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunur /red. hey.: İ.Hacıyev [və b.]. - Naxçıvan: Əcəmi, 2016. - 384 s.

**428.** Nəsibov, E. Dövlət və siyasət fəlsəfəsi /Elşən Nəsibov. - Bakı: Elm və təhsil, 2016. - C. 3: Siyasət. Kitabın üçüncü bölümü. - 173 s. *Kitabda dövlət və onun mahiyyəti (dövlət-fəlsəfi məzmun kimi), alim və onun bəşəri vəzifəsi, məsuliyyəti və öhdəliyi, dövlət idarəçiliyində xidmət etmənin əsasları və dövlət məmurunun işə və məsələlərə münasibət bildirməsinin yolları (məmur etikası və məmur səlahiyyətləri kontekstində yanaşma), dövlət və din, dövlət və adət-ənənə, dünya dövlətləri və hökumətləri liderlərinin siyasi portretləri, dünya dövlətlərinin və dünya sakinlərinin barışdırıcılıq missiyasının əsasları və s. adlı mövzular verilmişdir.*

**429.** Rəsulzadə, M. Əsərləri: mühacirət dövrü: Türkiyə, 1922-1929 /Məhəmməd Əmin Rəsulzadə; topl. nəşrə haz., ön söz və məqalələrin müəl., lüğ. və izah. tərt ed., red. N.Yaqublu; transl. red. S.Xalidoğlu; məsl.: C.Ünal, Y.Akpınar. - Bakı: OL, 2016. - C.1. - 600 s. *Kitabda Azərbaycanın tarixi, müstəqillik mübarizəsi, 1918-1920-ci ildə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş məlumatlar vardır.*

**430.** Rzayev, Ə. Şəxsiyyət Dövlət Möcüzə...: dərs vəsaiti /Əli Rzayev; elmi red. M.Ə.Cəfərquliyev; ön söz: V.Məmmədəliyev, M.F.Məlikova, V.Əliyev. - Bakı: Bakı Universiteti, 2016. - 28 s. *Kitabda şəxsiyyətin məzmunu, dövlətin təşəkkülü və mahiyyəti, dövlətçilik haqqında böyük mütəfəkkirlərin fikirləri, Şumer və Quran möcüzələri, Şərq mədəniyyətinin Qərbə transformasiya yolları müxtəlif aspektlərdə təhlil edilir və bu sahə ilə əlaqədar çoxsaylı hikmətli sözlərdən istifadə edilir.*

**431.** Sadıqov, T. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu /Tahir Sadıqov; elmi red. A.A.Xələfov; red. K.Aslan; məsləhətçi L.Məmmədova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası. - Bakı: Şərq, 2016. - 168 s. *Kitabda C.Caabbarlı adına Respublika Gənclər Kitabxanası milli irsin keşiyində, Azərbaycançılıq milli ideologiyasının təbliği oxuculara kitabxana-informasiya xidmətinin əsas istiqaməti kimi mövzular verilmişdir.*

**432.** Soyqırımlar xalq yaddaşında: Beynəlxalq elmi konfransın materialları: (02 mart 2015-ci il Bakı şəhəri) /Azərbaycan Milli Elmlər Akademiyasının "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" komissiyası; AMEA Folklor İnstitutu; tərt. ed.: Ə.Şamil, E.Məmmədova-Kekeç; elmi red.: F.Qasımova, N.Həsənova. - Bakı: Elm və təhsil, 2015. - 296 s.

**433.** Tahirzadə, Ə. Azərbaycan Cümhuriyyəti tələbələri: tarixi arayış, bəlgələr, yaşamlar /Ədalət Tahirzadə, Oğuztoğrul Tahirli; red. Ə.M.Quliyev; ön söz müəl. K.K.Şükürov; Avropa – Azərbaycan Cəmiyyətinin Azərbaycanşünaslıq Araşdırmalar Mərkəzi. - Bakı: TEAS Press, 2016. - 1222 s. *Professor Ədalət Tahirzadə və Oğuztoğrul Tahirlinin kitabı Azərbaycanın təhsil tarixinin indiyədək az öyrənilmiş səhifələrindən birinə – Cümhuriyyətin ali təhsil sahəsində siyasətinin tərkib hissəsi kimi, xaricə tələbələrin göndərilməsinin təşkilinə, həyata keçirilməsinə və bu tələbələrin sonrakı taleyinə həsr edilmişdir.*

**434.** Ulu Öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri /tərt. ed. R.Süleymanov; red. Ə.Mirzallı; layihə rəhbəri K.Aslan. - Bakı: Mütərcim, 2016. - 72 s. *Kitabda Azərbaycan tarixini, mədəniyyətini və ədəbiyyatını*

*dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən xalqımızın Ümummilli lideri, müstəqilliyimizin memarı, dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri toplanmışdır.*

**435.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar": beynəlxalq elmi konfransın materialları: 5 may 2016-cı il /red. hey. F.Əliyeva [və b.]. - Bakı: ADMİU mətbəəsi, 2016. - 308 s.

**2017**

**436.** "Azərbaycan" qəzetində parlament hesabatları və şərhlər: noyabr 1918 – aprel 1920 /araşdırıb toplayanı, yazıların böyük qismini ərəb əlifbasından latın əlifbasına çevirəni Ş.Hüseynov; transliterasiya red. və ərəb əlifbasından latın əlifbasına çevirən S.Xalidoğlu; transliterasiya red. və məsləhətçi Ş.Vəliyev. - Bakı: Qanun, 2017. - C.3. - 551 s. *Neçə minillik dövlətçilik tarixi və ənənəsi olan Vətənimizdə ilk dəfə "Azərbaycan" adlı müstəqil Xalq Cümhuriyyətinin ilk parlamanı - Məclisi-Məbusanının fəaliyyətinə dair "Azərbaycan" qəzetində dərc olunmuş hesabatlar və şərhlərdən bəhs edən bu kitab Cümhuriyyətin qarşıdan gələn 100 illik yubileyinə həsr olunur.*

**437.** Azərbaycan multikulturalizmi: ali məktəblər üçün dərslik /K.Abdulla [və b.]; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi; elmi red.: K.Abdulla, E.Nəcəfov [ön söz]; nəşrə məsul: R.İlyasov. - Bakı: Mütərcim, 2017. - 416 s. *Kitabda Azərbaycan multikulturalizmi fənninin predmeti, metodları, funksiyaları və əhəmiyyəti; Multikulturalizm milli təhlükəsizlik konsepsiyasının tərkib hissəsi kimi; Multikulturalizmin Azərbaycanda tarixi təkamülü,*

*Azərbaycan multikulturalizminin qaynaqları, Azərbaycanda multikulturalizm siyasəti və s. mövzular verilmişdir.*

**438.**Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər: [elmi-ədəbi toplu] /AMEA Folklor İns-tu; baş red. Ə.Ələkbərli; red. hey.: K.Abdulla [və b.]. - Bakı: Elm və təhsil, 2017. - 204 s. *Kitaba Heydər Əliyev və azərbaycançılıq təlimi; Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz adlı mövzuları daxildir.*

**439.**Babaşova, T. Azərbaycançılıq məfkurəsi: milli-mənəvi dəyərlərin başlıca prinsiplərindən biri kimi /Turan Babaşova. - Bakı, 2017. - 67 s. *Kitabda İdeologiya və milli ideologiya anlayışı; Milli-mənəvi dəyərlərimiz və Heydər Əliyev; Milli-mənəvi dəyərlərimiz və İlham Əliyev və s. mövzular verilmişdir.*

**440.** Bünyatov, Ş. 20 Yanvar hadisəsi və aprel döyüşlərinin milli ruhumuzun inkişafındakı rolu /Şövqi Bünyatov; elmi red. S.Talıblı; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; 20 yanvar fondu. - Bakı: Zərdabi LTD, 2017. - 302 s. *Kitab ən yeni dövr Azərbaycan tarixində iki əhəmiyyətli hadisənin - 1990-cı il Yanvar faciəsinin və 2016-cı il aprel döyüşlərinin təhlilinə həsr edilib. Burada Azərbaycanın müstəqilliyinin əvvəlində baş vermiş faciə və artıq müstəqillik qazanmış gənc Respublikanın milli ordusunun cəbhədə əldə etdiyi qələbə arasında müqayisələr aparılır və əsas diqqət Lider-millət vəhdətinin taleyüklü əhəmiyyətinə ayrılır.*

**441.**Dünya azərbaycanlıları: tarix və müasirlik: elmi-nəzəri toplu /Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, Tarix fakültəsi; Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi tədqiqat laboratoriyası; red. hey.: A.M.Məhərrəmov [və b.]. - Bakı: Bakı Universiteti, 2017. - 354 s.

**442.** Əhmədov, Y. Xalq, millət – fəlsəfi lüğət: metodik vəsait /Yaşar Əhmədov; elmi red. E.Kərimov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Uni-ti. - Bakı, 2017. - 187 s. *Kitabda Xalq – insanların tarixi birliyidir; Millətin formalaşmasına gedən yol; Millət insanların tarixi birlik formasıdır; Xalqlara və millətlərə müxtəlif yanaşmalar; Milli xarakter və millətçilik; "Postmilli Avropa" anlayışı və s. mövzular toplanmışdır.*

**443.** Əkbərov, Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlər məsələsi: [monoqrafiya] /Qadir Əkbərov; elmi red. və ön söz müəl. H.Səfərli. - Naxçıvan: Əcəmi, 2017. - 208 s. *Monoqrafiyada Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında milli-mənəvi dəyərlərin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması sahəsində həyata keçirdiyi tədbirlərdən, həmçinin Ulu Öndər tərəfindən milli-mənəvi dəyərlərlə əlaqədar hazırlanmış siyasi kursun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən uğurla davam edən və yaradıcılıqla inkişaf etdirilməsindən bəhs edilir.*

**444.** Əsədova, N. Mənəvi-estetik dəyərlər: mahiyyəti, tarixi və bu günü /Nailə Əsədova; elmi red. A.Əsədov; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təş-na Dövlət Dəstəyi Şurası, AMEA Fəlsəfə İns-tu, Fəlsəfi Maarifçilik Assosiasiyası İctimai Birliyi. - Bakı: QHT, 2017. - 160 s. *Monoqrafiya estetik təfəkkürün mənəvi dəyərlər kontekstində mənalandırılmasına həsr olunmuşdur. Birinci fəsil "estetik təfəkkür" anlayışının fəlsəfi rakursda təhlili, ikinci fəsildə isə mənəvi-estetik dəyərlər tarixi kontekstdə araşdırılır və onların başlıca təkamül mərhələləri müəyyənləşdirilir.*

**445.** Folklor və dövlətçilik düşüncəsi /AMEA, Folklor İns-tu; layihə rəhb. M.Kazımoğlu. - Bakı: Elm və Təhsil, 2017. - Kb.2. - 260 s. *Kitabda Qədim türk mifoloji-folklor irsinin araşdırılmasında və təbliğində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rolu; Heydər Əliyev siyasi kursu və folklorda yaşayan dəyərlərimiz; Müstəqillik dövrü Azərbaycan folklorşünaslığı: nəzəri-metodoloji axtarışlar və tədqiqat istiqamətləri və s. mövzular verilmişdir.*

**446.** Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir: mühazirələr toplusu /red. heyəti: O.Səmədov [və b.]; elmi red. İ.Vəliyev; red. X.Hüseynova; burax. məsul Ə.Ağamirzəyev; ön söz: O.Səmədov. - Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, 2017. - 161s. *Topluya müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Ulu Öndər Heydər Əliyevin möhtəşəm fəaliyyətindən bəhs edən mühazirə mətnləri daxil edilmişdir.*

**447.** Hüseynov, İ. İctimaiyyətlə əlaqələr: dərslik /İlqar Hüseynov, S.A.Əmirxanov; elmi red. Ə.S.Piriyev; Bakı Biznes Universiteti. - Bakı: Biznes Universiteti nəşriyyatı, 2017. - 480 s. *Dərslikdə bir çox elmi problemlərə müxtəlif rakurslardan istinad edilmişdir. İlk dəfə olaraq, "İctimaiyyətlə əlaqələr" fənninin predmeti, obyekti və subyekti, tədqiqat metodları, məqsəd və vəzifələri, funksiyaları müəyyənləşdirilmiş, qloballaşan və innovasion cəmiyyətin əsas prioritetlərinə yeni müstəvidən yanaşılmışdır.*

**448.** Hüseynov, R. Hüquqi dövlət və vətəndaş cəmiyyəti: [məqalələr toplusu] /Rəşad Hüseynov; red. Z.Oruc; ön

söz müəl. N.Cəfərov. - Bakı: Elm və təhsil, 2017. - 136 s. *Ayrı-ayrı məqalələr toplusu olan bu kitab çağdaş dövrün reallıqlarını tam əks etdirmək baxımından dəyərli vəsaitdir. Azərbaycan Respublikasında fəaliyyət göstərən Qeyri-Hökumət Təşkilatlarının (QHT), Vəkillik İnstitutunun gördüyü işlər, dövlətimizin yaratdığı normal iş şəraiti, xarici donorlardan asılılığın sıfra endirilməsi müəllifin araşdırmalar sayəsində dolğun şəkildə göstərilib.*

**449.** Hüseynov, Y. Mollanəsrəddinçilərin dünyagörüşünün sosial-fəlsəfi təhlili: müasir yanaşma: monoqrafiya /Yusif Hüseynov; elmi red. İ.Ə.Həbibbəyli; ön söz müəl. Q.Allahverdiyev; Naxçıvan Dövlət Universiteti. - Naxçıvan: Əcəmi NPB, 2017. - 288 s. *Kitabda mollanəsrəddinçilərin dünyagörüşünün ideya mənbələri və onların dünyagörüşündəki sosial-fəlsəfi əsaslar elmi cəhətdən təhlil edilərək üzə çıxarılır. Eləcə də bu yaradıcı ziyalıların milli və dünya sosial-fəlsəfi irsinə münasibəti elmi cəhətdən araşdırılır. Digər tərəfdən mollanəsrəddinçilərin sosial-fəlsəfi irsi və fəlsəfi dünyagörüşü müasirlik baxımından dəyərləndirilmiş və qiymətləndirilmişdir.*

**450.** İlham Əliyev və müasir Azərbaycan - gənclərin gözü ilə /red. A.R.Qədiməliyev; ön söz: E.Əzizov; tərt. T.Tağıyeva. - Bakı: Elm və təhsil, 2017. - 336 s. *Kitab İlham Əliyevin fenomenal şəxsiyyətini, onun uğurlu fəaliyyətini daha dərindən dərk etmək, müstəqillik illərində formalaşan Azərbaycan gəncliyinin düşüncəsini, arzu və amallarını təsəvvür etmək və anlamaq məqsədilə tərtib olunmuşdur.*

**451.** İmamverdiyeva, K. Azərbaycan bayrağı: [məlumat kitabı] /Könül İmamverdiyeva; red. A.Məmmədov; elmi məsləhətçi, ön söz: Y.Mahmudov; Dənizkənarı Bulvar

İdarəsi. - Bakı, 2017. - 48 s. *Məlumat kitabında dövlətçilik simvollarının meydana gəlməsinə, o cümlədən Azərbaycan bayrağının təkamülü tarixinə, ayrı-ayrı dövrlərdə dünyada mövcud olmuş dövlətlərin, xüsusilə Azərbaycanın dövlət bayraqlarının müxtəlif nümunələrinə kifayət qədər geniş yer verilmişdir.*

**452.** Kərimi, S. Azərbaycanın milli və siyasi ideologiyası haqqında /Səadət Kərimi; red. R.Arif. - Bakı: Elm və təhsil, 2017. - 116 s. *Kitabda cağdaş Azərbaycanın milli və siyasi ideologiya məsələləri gözdən keçirilir. Öncə sosiologiya elmində milli ideologiya və millətçilik siyasəti ilə bağlı yayğın terminlər, ayrı-ayrı araşdırıcıların yanaşmaları verilir, sonra isə Azərbaycan xalqının milli və siyasi ideologiyasına dair bir sıra alimlərin, ictimai xadimlərin düşüncələri açıqlanır.*

**453.** Qasımov, R. Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası və azərbaycançılıq ideologiyası: [monoqrafiya] /Ramiz Qasımov, Z.H.İsmayıl; elmi red. İ.Ə.Həbibbəyli; AMEA Naxçıvan bölməsi. - Bakı: Elm və təhsil, 2017. - 192 s. *Monoqrafiyanın "Azərbaycan ədəbiyyatında milli düşüncə konsepsiyası: milli mənsubiyyət və milli dəyərlər" adlanan birinci fəsli daha çox öz elmi və nəzəri əhəmiyyəti, aparılan araşdırmaların genişliyi, edilən təhlillərin analitikliyi, ortaya çıxarılan əhəmiyyətli nəticələr və ifadə edilən dolğun fikirlərlə diqqəti cəlb edir. Bu fəsildə, ümumiyyətlə, "İdeologiya nədir?" və Azərbaycançılıq ideologiyası anlayışları barəsindəki qənaətlərə, bu sahənin tədqiqatçılarının fikirlərinə istinadən ümumiləşdirmələr aparılmış, yeni, orijinal fikirlər deyilmişdir.*

**454.** Mədətov, K. Sabir Əhmədli yaradıcılığında dissident motivlər və müstəqillik: dərs vəsaiti /Fərhad Mədətov; red. N.Cəfərov. - Bakı, 2017. - 287 s. *Dərs vəsaitindən Azər-*

*baycan ədəbiyyatı tarixinin son – müasir mərhələsinin hazırlamasında, çağdaş ədəbi prosesin aktual problemlərinin elmi nəzəri həllində, sovet dövrü bədii nəsrimizin mahiyyət və ruhundakı dissidentlik ovqatını aşkarlamaqda, müstəqillik dövrünün bir sıra spesifik xüsusiyyətlərinin öyrənilməsində mühüm material kimi istifadə etmək olar.*

**455.** Məmmədli, A. "Molla Nəsrəddin" ədəbi məktəbində azərbaycançılıq: dərs vəsaiti /Allahverdi Məmmədli; elmi red. İ.Ə.Həbibbəyli; red. C.Məmmədli; Azərbaycan Dillər Universiteti. - Bakı: Şərq-Qərb, 2017. - 264 s. *Dərs vəsaitində müəllif Azərbaycan klassik ədəbiyyatı və klassik jurnalistikasında önəmli rol oynayan "Molla Nəsrəddin" jurnalı ətrafında yaranmış ədəbi məktəb və bu məktəbin formalaşdırdığı azərbaycançılıq təliminin xüsusiyyətlərini açmış, o dövrün qabaqcıl ədəbi qüvvələrinin yaradıcılıq kredosunda özünu göstərən vətən, millət, ana dilinə sevgi mövzularını təhlilə cəlb etmişdir.*

**456.** Məmmədova, Ş. Qafqaz xalqları tarixinin mənbəşünaslığı: dərslik /Şəlalə Məmmədova, Ş.Məmmədli; elmi red. R.Hüseynov; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Uni-ti. - Bakı: ADPU, 2017. - 397 s. *Qafqaz xalqları tarixinin mənbəşünaslığı tarixin nəzəri-tətbiqi problemlərini, qədim dövrlərdən günümüzə qədər Qafqazın etnik strukturunu, siyasi coğrafiyası və dövlətçilik ənənələrini əks etdirən yazılı mənbələrin təsnifatı, xüsusiyyətləri və tədqiqat metodlarını əhatə edir.*

**457.** Mikayılov, Ş. Azərbaycan ədəbiyyatı–mənəvi dəyər xəzinəsi: (məktəblilərin mütaliəsinə istiqamət) /Şəmistan Mikayılov red., [ön söz], A.Bəkirova [ön söz]. - Bakı: Araz, 2017. - 176 s. *"Azərbaycan ədəbiyyatı - mənəvi dəyər xəzinəsi" adlanan kitab həmişə aktual, xalqımızın milli varlığı ilə bağlı olan milli-mənəvi dəyərlər probleminə həsr edilmişdir.*

**458.** Mustafayev, Q. Azərbaycanın müasir dövlətçilik tarixi: bakalavriat səviyyəsi üçün dərs vəsaiti /Qorxmaz Mustafayev (tərt. ed.); elmi red.: Ə.M.Abdiyeva, M.Ə.Abbasova; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dillər Uni-ti, Sosial Elmlər Kafedrası. - Bakı: Mütərcim, 2017. - 128 s. *Dərs vəsaitinin mövzusu Müstəqil Azərbaycan Respublikasının siyasi, iqtisadi və mədəni tarixini ətraflı öyrənməklə bərabər, qədimdən torpaqlarımızda yaradılan müstəqil dövlətlərin siyasi tarixinə ümumiləşdirilmiş şəkildə yenidən baxmaq, yaratdığımız dövlətlərin öyrənilməsində yeni baxışları diqqətə çatdırmaqdan ibarətdir.*

**459.** Nəcəfli, G. İrəvan xanlığı: İrəvan xanlığının mahalları /Güntəkin Nəcəfli; layihənin rəhb., ön sözmüəl. və elmi red. Y.Mahmudov; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərb. Tarixçiləri İctimai Birliyi. - Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2017. - 40 s. *Kitabçada oxuculara Azərbaycanın qədim dövlətçilik tarixinin ayrılmaz parçası olan İrəvan bölğəsinin, o cümlədən Çuxursəd bəylərbəyliyinin və İrəvan xanlığının inzibati bölgüsü təqdim edilmişdir. İnzibati bölgüdə adıçəkilən yer-yurd adlarının mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması həmin ərazilərin köklü sakinlərinin azərbaycanlılardan ibarət olması faktını bir daha təsdiqləyir.*

**460.** Nəsibov, E. Dövlət, cəmiyyət, siyasət və hüquq fəlsəfəsi /Elşən Nəsibov. - Bakı: Elm və təhsil, 2017. - C. 3: Siyasət B. 4 Qarışıq kitab. - 376 s . *Kitabda dövlət, siyasət, cəmiyyət, mədəniyyət və hüquq məfhumlarının qarşılıqlı şərtləndirici məzmunu izah olunur. Kitabın ikinci fəsli və əlavələr bölməsi isə qarışıq fikirlərdən, yəni ayrı-ayrı məzmunlu fikirlər antologiyasından ibarətdir.*

**461.**Rəcəbli, Ə. Sikkə və dövlətçilik /Əli Rəcəbli; elmi red. N.Vəlixanlı; AMEA Milli Azərbaycan Tarixi Muzeyi. - Bakı: AFPoliqrAF, 2017. - 184 s. *Bu əsərdə ilk dəfə olaraq numizmatik faktlar dövlətşünaslıq tarixinin ayrılmaz sahəsi olan dövlətçilik institutunun ən vacib rəmzlərindən biri kimi tədqiqata cəlb edilmiş, dövlətçiliyin konseptual-nəzəri əsaslarına və funksional mahiyyətinə xüsusi diqqət yetirilmişdir.*

**462.** Rüstəmova, A. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil: [monoqrafiya] /Afaq Rüstəmova; elmi red. İ.Məmmədzadə. - Bakı: AFPoliqrAF, 2017. -236 s. *Monoqrafiyada müasir dövrün bir sıra aktual problemləri fəlsəfi, sosial-siyasi kontekstlərdən təhlil edilir, o cümlədən modernləşmənin inkişaf mərhələləri, problemlə bağlı nəzəri-metodoloji yanaşmalar, sosial-siyasi inkişafın əsas konsepsiyaları, Azərbaycanda modernləşmənin sosial inkişafa təsiri, inkişafın Azərbaycan modeli nəzərdən keçirilir, daha sonra modernləşmə prosesləri kontekstində milli şüur və milli mentalitet problemi həll edilir.*

**463.** Şahsevən, İ. Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları: istiqlal fədailəri: 1918-20 /İltifat Şahsevən (Əliyarlı); elmi red. Ş.Qasımov; red. Z.Şahsevənli; məsləhətçilər: Y.Əliyev, T.Behbudov. - Bakı: Mütərcim, 2017. - 476 s. *Kitabda Cümhuriyyətimizin daxili işlər nazirlərinin həyata keçirdikləri islahatlar, yeniliklər, kadr təyinatları və ictimai asayişin, vətəndaşların hüquq və azadlıqlarının, şəxsi həyatının qorunması, əmlak toxunulmazlıqlarının təmin edilməsi, həmçinin cinayətkarlıqla mübarizə sahəsində gördükləri tədbirlər və s. öz əksini tapmışdır.*

**464.** Şəmmədoğlu, Ş. Heydər Əliyev və Gürcüstan /Şahismayil Şəmmədoğlu [tərt. ed.]; red.: H.Orucov, İ.Əliyev. - Tbilisi, 2017. - 192 s. *Kitabda xalqımızın Ümummilli lideri,*

*Ulu Öndər Heydər Əliyevin, eləcə də onun ləyaqətli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qonşu Gürcüstana səfərləri, bu səfərlər zamanı iki dost və qardaş ölkənin ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi naminə göstərdikləri böyük xidmətlər aydın şəkildə oxucuya çatdırılır.*

**465.** Tağıyev, Ə. Milli kimlik və multikultural proseslər /Əlikram Tağıyev; elmi red. M.Rzayev. - Bakı: Gənclik, 2017. - 204 s. *Burada söhbət milli kimlik problemi, onun mentalitet, milli xarakter, milli dil və mədəniyyət, milli siyasi şüur, milli ideya və milli ideologiya və s. kimi tərəflərindən, onların qarşılıqlı əlaqələrindən, azərbaycançılıq və türkçülük ideyalarının milli təhlükəsizliyimizin təmin olunmasındakı rolundan gedir.*

**466.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII Beynəlxalq elmi konfransın materialları: 4-5 may 2017-ci il. Bakı, Azərbaycan /red. hey., [təş. kom.]: N.M.Əliyeva [və b.]. - Bakı: [Mütərcim], 2017. - 644 s. *Kitabda "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda müxtəlif məruzələr və Ümummilli lider Heydər Əliyevin bu sahədə apardığı diqqətəlayiq fəaliyyətinə dair materiallar verilmişdir.*

**467.** Zeynalov, Ş. Dialoq fəlsəfəsi: [monoqrafiya] /Şölət Zeynalov; elmi red. F.Q.İsmayılov. - Bakı: Avropa nəşriyyatı, 2017. - 304 s. *Kitab mədəniyyət və dinlərarası münasibətlərin açarı hesab edilən dialoq probleminə həsr edilib. Dialoq amili yeni nəşrdə xalqlar, millətlər və sivilizasiyalararası münasibətlərin saflaşdırılması, onları ziddiyyətlərdən, anlaşılmazlıqlardan, açıq və qapalı şəkildə kin-küdurətdən təmizləyərək ümumbəşəri ideala sülh və əmin-amanlıq içərisində yaşamağa istiqamətləndirən xilas yolu katarsis kimi təqdim olunur.*

**2018**

**468.** Arslan, S. Mənəvi dəyərlərin təbliği: keçmişə, yoxsa özünə qayıdış /Saleh Arslan; [Mənəvi Dəyərlərin Təbliği Fondu]. - Bakı: TUNA, 2018. - 216 s. *Kitabda mənəvi dəyərlər, zərdüştilik, ənənəvi konfessiyalar, qeyri-ənənəvi dinlər, mədəniyyət, dil, tolerantlıq, azərbaycançılıq, mənəvi irsimiz və s. mövzulardan bəhs edilmişdir.*

**469.** Azərbaycan Cümhuriyyəti tarixinin yadigarları: [kataloq] /Milli Azərbaycan Tarixi Muzeyi; elmi red. N.Vəlixanlı; tərc. G.Eminova; haz.: İ.Muradəliyeva [və b.]; giriş mətninin müəl. S.Əhmədov. - Bakı, 2018. - 66 s. *Kitabda Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid zəngin materialların qorunduğu Milli Azərbaycan Tarixi Muzeyində müstəqil dövlətçilik tariximizin ən mühüm dönəmlərindən olan Cümhuriyyət dövrünə (28 may 1918–28 aprel 1920-ci illər) aid unikal eksponatlar xüsusi yer tutur.*

**470.** Azərbaycan Xalq Cümhuriyyəti: Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifəsi: beynəlxalq elmi konfransın materialları = Azerbaijan Democratic Republic: the bright page of Azerbaijan's statehood history: international scientific conference = Азербайджанская Народная Республика: яркая страница истории государственности Азербайджана: материалы международной научной конференции /Ç.Abdullayev [və b.]; baş red. Y.M.Mahmudov; red. hey.: A.A.Əlizadə [və b.]; AMEA A.A.Bakıxanov ad. Tarix İns-tu. - Bakı: Turxan NPB, 2018. - 546 s.

**471.** Azərbaycan Xalq Cümhuriyyəti haqqında Dövlət Qərarları 1991–2018: Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunur /AMEA, Gəncə bölməsi; layihə rəh-

bəri F.Əliyev; tərt. və buraxıl. məs.: H.Sadıqov, N.Mirzəyeva. - Gəncə: Elm, 2018. - 240 s. *Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dövlətimiz onun tarixinin ətraflı öyrənilməsi ilə əlaqədar çox əsaslı tədbirlər həyata keçirmişdir. Gənclərə Cümhuriyyət tarixini və dövlətçilik fəaliyyətini mükəmməl mənimsətmək, onların arasında maariflənmə işini gücləndirməklə, elmi potensialı olan gəncləri bu mövzuda yeni araşdırmalara cəlb edəcəkdir.*

**472.** Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü /R.H.Rüstəmov [və b.]; layihə rəhbəri, ön söz müəl. və elmi məsləhətçi: Y.Mahmudov; elmi red.: K.İsmayılov, N.Məmmədzadə. - Bakı: Turxan NPB, 2018. - 440 s. *Kitab Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülünün və bu prosesdə Azərbaycanın siyasi xadimlərinin rolunun araşdırılması sahəsində ilk addımdır. Sözügedən zaman kəsiyi (fevral 1917-ci il – iyun 1918-ci il), xüsusilə 1917-ci ilin oktyabrından 1918-ci il iyunun ortalarına qədərki mərhələ Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrünü əhatə edir.*

**473.** Cəfərli, Y. Azərbaycan dilinin onomastikası müstəqillik dövründə: [monoqrafiya] /Yadigar Cəfərli; elmi red. Q.Məşədiyev; AMEA Nəsimi ad. Dilçilik İns-tu. - Bakı: Elm və təhsil, 2015. - 392 s. *Monoqrafiyada dövlət müstəqilliyinin bərpası ərəfəsində və müstəqillik dövründə Azərbaycan dilinin xüsusi adlar qatında baş verən dəyişikliklər haqqında söhbət açılmış, dilin onomastikasında gedən proseslər müxtəlif mənbələrdən toplanmış faktlar əsasında izlənərək ətraflı təhlil edilmişdir.*

**474.** Cəfərov, N. Mir Cəlalın milli idealları /Nizami Cəfərov; elmi məsl. N.Həsənzadə; elmi red. K.Tahirov; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli

Kitabxanası. - Bakı, 2018. - 112 s. *Azərbaycan xalqının XX əsrin sonlarında qazandığı müstəqillik, heç şübhəsiz, bir neçə yüzillik tarixi olan milli azadlıq ideallarına, bu ideallların həyata keçirilməsi uğrunda aparılmış ardıcıl mübarizələrə əsaslanır. Və həmin ideallların təmərküzləşib daha məqsədyönlü xarakter almasında, ictimai-siyasi, mənəvi-mədəni və ideoloji proseslər xüsusi rol oynamış, xalqa doğru yol göstərmək missiyasını öz üzərinə götürən ziyalı-mütəfəkkirlər yetişmişdir ki, onlardan biri də böyük ədibimiz Mir Cəlal Paşayev olmuşdur.*

**475.** Cümhuriyyət – 100 il: vətəndaş cəmiyyəti institutlaşması dünəndən bu günə: Azərbaycan Xalq Cümhuriyyəti 100: 1918–2019: [məcmuə] /ideya müəl. və tərt. R.Mirzəzadə; [Azərb. Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; Gender və İnsan Hüququ Araşdırma Birliyi]. - Bakı, 2018. - 78 s.

**476.** Dünya azərbaycanlıları: tarix və müasirlik: II Respublika elmi konfransının materialları: [21-22 dekabr 2017-ci il] /təşkilat kom.: A.Məhərrəmov (sədr) [və b.]. - Bakı: Turxan, 2018. - 388 s.

**477.** Dünya azərbaycanlıları: tarix və müasirlik: III Beynəlxalq elmi konfrans: Xülasələr: [21-22 dekabr 2018 Bakı şəhəri] /təşkilat kom.: İ.Əliyeva (sədr) [və b.]. - Bakı: Turxan NPB, 2018. - 128 s.

**478.** Dünya azərbaycanlıları: tarix və müasirlik: (Elmi-nəzəri toplu) /Azərb. Resp. Təhsil Nazirliyi, BDU, Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-tədqiqat laboratoriyası; red. hey.: L.L.Həsənova [və b.]. - Bakı: Turxan NPB, 2018. - Bur. 6. - 200 s.

**479.** Əbədi müstəqillik tarixi yazan lider Heydər Əliyev: Heydər Əliyevin 95 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərb. Resp. Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Resp. Uşaq Kitabxanası; tərt.: R.Məmmədli, S.Əhmədova; red. K.Ağazadə; ixtisas red. və buraxıl. məsul: Ş.Qəmbərova. - Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018. - 63 s.

**480.** Ələkbərli, F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi: XIX-XX əsrlər: [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. Z.Şabanov. - Bakı: Elm və təhsil, 2018. - H.1. - 504 s. *Monoqrafiyanın birinci hissəsində XIX əsr Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur.*

**481.** Əliyev, C. Qurani-Kərimdə mənəvi prinsiplər /Ceyhun Əliyev; Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı: TUNA, 2018. - 177 s. *Kitabın əsas məqsədi Qurani-Kərimin mənəvi-əxlaqi prinsiplərini müəyyənləşdirərək oxuculara çatdırmaqdan ibarətdir. Bu prinsiplər fərdi olaraq hər bir kəsin şəxsiyyət kimi formalaşmasına, mənəvi inkişafına, əxlaqi keyfiyyətlərinin yüksəlməsinə və İslam dini haqqında düzgün təsəvvürünün formalaşmasına yardım edəcəkdir.*

**482.** Əliyev, M. Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi: Azərbaycan folkloru və klassik ədəbiyyat nümunələri əsasında /Məmməd Əliyev; elmi red. R.S.Xəlilov; red. N.Tağıyev; AMEA Nizami adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və təhsil, 2018. - 168 s. *Kitabda erkən Azərbaycançılıq düşüncəsinin genezisindən, onun mif, epos yaradıcılığından qaynaqlanan ilkin dərketmə, birgəyaşayış və idarəetmə funksiyası barədə məlumat verilir. Mifdə kosmoqonik, etnoqonik*

*baxışlar sistemi, "Avesta"dan və Zərdüştilikdən irəli gələn xeyir fikir, xeyir söz, xeyir iş təliminin sonrakı dövrlərdə bədii təfəkkürdə, xüsusən epos yaradıcılığında formalaşmasından geniş söhbət açılır.*

**483.** Əzimova, A. Müstəqillik dövrü Azərbaycan bədii publisistikası: ("Azərbaycan", "Ulduz", "Qobustan" jurnallarının materialları əsasında): dərs vəsaiti /Aygün Əzimova; elmi red. A.Məmmədov. - Bakı: Elm və təhsil, 2018. - 208 s. *Dərs vəsaitində Azərbaycanda milli publisistikanın tarixi-bədii inkişaf mərhələlərinə, jurnal publisistikası ənənələrinə aydınlıq gətirilir, publisistika ədəbi-bədii yaradıcılığın tərkib hissəsi kimi qiymətləndirilir. Müstəqillik dövrü Azərbaycan bədii publisistikası, onun axtarışları və uğurları dövrün aparıcı mətbu orqanları olan "Azərbaycan", "Ulduz" və "Qobustan" jurnallarının materialları əsasında təhlil edilir.*

**484.** Folklor və dövlətçilik düşüncəsi /AMEA Folklor İns-tu; lay. rəhbəri M.Kazımoğlu (İmanov). - Bakı: Elm və təhsil, 2018. - Kb.3. - 254 s.

**485.** Hacıyev, İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində: [monoqrafiya] /İsmayıl Hacıyev; red. E.Şıxəliyev. - Bakı: Elm, 2018. - 372 s. *Monoqrafiyada Naxçıvanın Azərbaycanda dövlətin yaranmasınadək olan dövrdəki mövqeyi, dövlətyaranma prosesindəki rolu araşdırılmış, Azərbaycanın qədim və orta əsrlər dövründəki dövlətlərlə münasibət və əlaqələri, Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti dövründəki vəziyyəti, Naxçıvanın muxtariyyətləşdirilməsi, onun Azərbaycanın dövlət müstəqilliyinin yenidən əldə edilməsi uğrundakı mübarizəsi və bir sıra məsələ və problemlər tədqiq edilmişdir.*

**486.**Heydər Əliyev irsinin kitabxanalarda təbliği: [metodik vəsait] /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi,

Azərb. Milli Kitabxanası; tərt. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva. - Bakı, 2018. - 54 s. *Təqdim olunan vəsaitdə Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyasının inkişafında xidmətləri ilə əlaqədar kitabxanalarda həyata keçirilən kütləvi tədbirlər haqqında tövsiyələr öz əksini tapmışdır.*

**487.** Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası: I Beynəlxalq elmi konfrans: Məruzələrin tezisləri: 9 aprel - 5 may 2018-ci il, Bakı (Azərbaycan), Tbilisi (Gürcüstan), Huçjou (Çin), Yekaterinburq (Rusiya), Moskva (Rusiya), Samara (Rusiya), Ərzurum (Türkiyə), Kayseri (Türkiyə), Roma (İtaliya), Minsk (Belarus), Kiyev (Ukrayna), Belqrad (Serbiya), Auqsburq (Almaniya): Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunur /təşkilat komitəsi: K.M.Abdullayev [və b.]. - Bakı: MTM-İnnovation, 2018. - 324 s. *Konfrans iştirakçıları qeyd ediblər ki, Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurlu davamının nəticəsidir.*

**488.** Heydər Əliyev və milli-mənəvi dəyərlər mövzusunda konfransın materialları: [məqalələr] /burax. məs. S.Salahlı. - Bakı: Nurlar NPM, 2018. - 192 s. *Kitaba Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda keçirdiyi konfransın materialları daxil edilmişdir. Təqdim olunan məqalələrdə Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunması istiqa-*

*mətində əvəzsiz xidmətləri, dini etiqad azadlığının təmin olunması sahəsində Azərbaycan təcrübəsi, eyni zamanda İslam həmrəyliyi ideyası və ölkəmizdə tarixən mövcud olan tolerantlıq mühiti barədə dolğun məlumat verilir.*

**489.** Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq: [toplu] /İ.Ə.Həbibbəyli [və b.]; elmi red. E.Y.Mədətli; AMEA Fəlsəfə İnstitutu. - Bakı: ADPU nəşriyyatı, 2018. - Kb.1. - 270 s. *Topluda Ulu Öndər, müdrik siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Belə ki, milli kimlik və çoxmədəniyyətliliklə bağlı dövlətçilik fəlsəfəsi, azərbaycançılıq- ideologiyası, milli-mənəvi dəyərlər, eyni zamanda Azərbaycanda parlamentarizm ənənələrinə sadiqlik və Xalq Cümhuriyyətinə münasibətdə varislik məsələsi təhlilə cəlb olunur.*

**490.** Həsənov, H. Birinci respublikaya aparan yolda: Azərbaycan tarixi oçerkləri: 1917-ci ilin fevralından 1918-ci ilin mayına qədər /Həsən Həsənov; elmi red. və ön söz müəl. İ.Bağırova; tərc. M.Süleymanov. - Bakı: TEAS Press, 2018. - 448 s. *Kitabda Rusiyada mütləqiyyətin devrilməsindən sonrakı proseslərdə, xüsusilə də xalqların milli-azadlıq hərəkatı ilə bağlı hadisələrdə Azərbaycanın vacib rol oynadığı əsaslı şəkildə izah olunur. Müxtəlif mənbələrdən alınmış bir çox yeni faktlar göstərilir. Müəllif, eyni zamanda müxtəlif tarixi hadisələrin şərhində tamamilə gözlənilməz yanaşma nümayiş etdirir.*

**491.** İbrahimi, F. Sülh uğrunda: Paris Sülh Konfransı barədə qeydlər: 1946 /Firidun İbrahimi; tərt., əski əlifbadan çevir. S.Z.Bayramzadə; AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu. - Bakı: Elm və təhsil, 2018. - 132 s. - *Müəllif 29 iyul – 15 oktyabr 1946-cı il tarixləri arasında Parisdə*

*21 dövlətin iştirakı ilə təşkil olunmuş Sülh Konfransında Azərbaycan Milli Hökumətinin mətbuat nümayəndəsi kimi iştirak etmiş, bu konfrans barədə qeyd və mülahizələrini Azərbaycan Demokrat Firqəsi (ADF) Mərkəzi Komitəsinin orqanı "Azərbaycan" qəzetinin 9 noyabr – 10 dekabr 1946-cı il tarixləri arasında çıxmış 23 saylı "Sülh uğrunda" başlığı altında çap edilmişdir. F.İbrahiminin oxuculara təqdim olunan bu kitabı Azərbaycanın diplomatiya tarixini, milli ideologiyamız olan azərbaycançılığın formalaşması və inkişafını izləmək və öyrənmək baxımından çox faydalıdır.*

**492.** İbrahimov, Ə. Azərbaycançılıq ideyasının konseptual aspektləri: [monoqrafiya[ /Əli İbrahimov; elmi red. Ə.Tağıyev; AMEA Fəlsəfə İnstitutu. - Bəzi dəyişikliklər və əlavələr edilməklə II nəşri. - Bakı: Avropa nəşriyyatı, 2018. - 244 s. *Monoqrafiya Azərbaycan milli ideologiyasında aparıcı rola malik olan Azərbaycan ideyasının tədqiqi, təbliği, onun daha da inkişaf etdirilməsi və dönmədən həyata keçirilməsi ilə bağlı nəzəri müddəalar ümumiləşdirilib sistemə salınması, zənginləşdirilməsinə həsr olunmuşdur.*

**493.** İdentiklik multikulturalizm dialoq fəlsəfəsi: [elmi məqalələr toplusu] /AMEA Fəlsəfə İnstitutu; tərtibçi: Sevinc Nisa Quliyeva; elmi red. X.Quliyeva. - Bakı: Elm və təhsil, 2018. - Kb.1. - 304 s. *Topluda müasir dünyanın elmi fənlərarası əlaqələr prinsipinə əsaslanmaqla Azərbaycanın Ulu Öndəri Heydər Əliyevin və bütün dünyanın diqqətini cəlb etmiş "Azərbaycan Multikulturalizm Modelinin" müəllifi Müstəqil Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin siyasi idarəçilikdə Azərbaycançılıq, multikulturalizm, tolerantlıq, konsepsiyasının, eyni zamanda dünya multikulturalizminin tarixi, metodo-*

*loji və müasir problemlərinin, habelə İdentiklik və qlobal mədəniyyət ideyasının ümumi və fərqli aspektlərinin elmi-nəzəri kontekstlərdən tədqiq-təhlil olunduğu məqalələr təqdim olunur.*

**494.** İmranoğlu, F. Azərbaycanın milli-mənəvi və maddi dəyərləri: [məqalələr toplusu] /Fəzail İmranoğlu; elmi red. H.Q.Qədirzadə; AMEA Arxeologiya və Etnoqrafiya İns-tu. - Bakı: Mütərcim, 2018. - 350 s. *Bu kitabda müəllifin keçən əsrin 80-ci illərindən son dövrlərədək Azərbaycan etnoqrafiyasının köklü problemlərinə həsr olunmuş bəzi məqalələri toplanmışdır. Xalqımızın maddi və mənəvi mədəniyyətinə, təsərrüfat və ailə məişətinə, eləcə də xalq adətləri və inanclarına tarixçi-etnoqraf nöqteyi-nəzərindən aydınlıq gətirən və bəziləri ilk dəfə dərc olunan bu məqalələr müasir etnoqrafik düşüncənin təzahürü kimi milli-mənəvi və maddi dəyərlərimizin tədqiqi baxımından əhəmiyyət kəsb edir.*

**495.** Qaraca, B. İstiqlal düşüncələri: Cümhuriyyətə aparan yollar /Bəxtiyar Qaraca, A.Aşırlı; ideya müəl. İ.Məmmədov; elmi red. A.İsgəndərov; red.: S.Aslanova, K.Mirzəyeva. - Bakı: Zərdabi LTD, 2018. - 384 s. *Kitab Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 16 may 2017-ci il tarixli Sərəncamına uyğun dövlətçilik tariximizin şanlı səhifəsi olan Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunub.*

**496.** Qardaşov, Ə. Demokratik Respublika dövründə Azərbaycan mətbuatında islam mövzusu: [elmi monoqrafiya] /Əliqulu Qardaşov; elmi məsl. R.Ə.Mürsəlov; Azərb. Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı: TUNA, 2018. - 138 s. *Təqdim olunan kitabda tariximizin ən qaynar dövrü 1918-20-ci illər – müstəqillik dövrünün ictimai-siyasi hadisələri işıqlandırılmışdır. Həmçinin Azərbaycan xalqının*

*ADR-dən əvvəlki və sonrakı taleyi, güzəranı yığcam şəkildə əks etdirilmişdir.*

**497.** Qasımbəyli, Y. Heydər Əliyev əbədiyyəti və ədəbiyyat: (Ədəbi-fəlsəfi fikirdə Heydər Əliyev obrazı) /Yaşar Qasımbəyli; elmi red. və ön söz. müəl. İ.Həbibbəyli; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İns-tu. - Bakı: Elm və təhsil, 2018. - 148 s. *Kitabda Ümummilli liderimiz haqqında son 20 ildə yazdığı elmi-nəzəri və ədəbi-publisist məqalələri cəmlənmişdir. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyəti, ədəbiyyat və mədəniyyətimizə böyük qayğısı bu məqalələrdə özünəməxsus mövqedən işıqlandırılır.*

**498.** Quliyev, C. Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları Şimali Azərbaycanın Rusiya tərəfindən işğalını öyrənmək üçün mənbə kimi: monoqrafiya /Cəmil Quliyev; elmi red. və ön söz müəl. A.İsgəndərov; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Uni-ti. - Bakı: Elm və təhsil, 2018. - 152 s. *Tarixi hadisələrlə zəngin olan XVIII əsrin II yarısı Azərbaycanın dövlətçilik tarixində mühüm bir dövrü təşkil edir. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə tarixi Azərbaycan torpaqlarının Qacarlar İranı və Çar Rusiyası tərəfindən işğalı QAKA-nın sənədləri əsasında araşdırılmışdır.*

**499.** Qurbanov, A. "Füyuzat"ın işığında istiqlala çağırış: [məqalələr toplusu] /Allahşükür Qurbanov; red. T.Əhmədov; buraxıl. məsul: S.Ramizoğlu [ön söz əvəzi]; qapaq dizaynı M.Əziz. - Bakı: NURLAR, 2018. - 504 s. Kitabda müəllifin müxtəlif illərdə "Füyuzat" jurnalında, "Vətən səsi" və "Respublika" qəzetlərində *dərc edilmiş məqalələri daxil edilmişdir. Bu məqalələrdə XIX əsrin sonu – XX əsrin əvvəllərindən milli məfkurə düşüncəmizin yaranması, formalaşması və*

*yüksək inkişaf mərhələsinə qədər yüksəlməsi prosesinin şərhinə daha çox diqqət yetirilmişdir.*

**500.** Məmmədli, S. Avropa Şurası və ATƏT-in media siyasəti: [monoqrafiya] /Sabir Məmmədli; elmi red. Ş.Vəliyev. - Bakı: Elm və təhsil, 2018. - 168 s. *Monoqrafiyada Avropa Şurası və ATƏT-in müasir media siyasəti, onların Azərbaycan KİV-nin inkişafında yeri və rolu geniş və əhatəli şəkildə təhlil edilir.*

**501.** Məmmədov, A. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün etnik mənzərəsi və dil siyasəti /Aqşin Məmmədov; Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. - Bakı: Strateji Araşdırmalar Mərkəzi, 2018. - 88 s. - *Dövlət tərəfindən yaradılmış ilk qeyri-kommersiya və akademik beyin mərkəzi olan SAM fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və öz Nizamnaməsini rəhbər tutaraq, daxili və xarici siyasətin ən mühüm inkişaf istiqamətlərini təşkil edir.*

**502.** Mən fəxr edirəm ki, Azərbaycanlıyam! Heydər Əliyev: [buklet] /Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Humanitar Araşdırmalar İctimai Birliyi. - Bakı, 2018. - 1 v. (3 s. qatlanmış) *Bukletdə Azərbaycançılıq nədir? və Milli şüurun formalaşmasında Heydər Əliyev fenomeni haqqında bəhs edilir.*

**503.** Mənəvi dəyərlər İlham Əliyev siyasətinin tərkib hissəsi kimi /Mənəvi Dəyərlərin Təbliği Fondu; tərt.: M.İsmayılov, C.Əliyev. - Bakı: Tuna Printing & Puplishing Company, 2018. - 163 s. *Kitabda Azərbaycan Respublikasının*

*Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə əlaqədar andiçmə mərasimində nitq", "Bakı – islam mədəniyyətinin paytaxtı – 2009" Mədəniyyət ilinin təntənəli açılış mərasimində nitq", "Dünya dini liderlərinin Bakı sammitində nitq", "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış sessiyasında nitq", "Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində nitq" və b. nitqləri verilmişdir.*

**504.** Milli və əxlaqi dəyərlərimizin nüvəsi Ailə /Azərb. Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası; Türkdilli Dövlətlərlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti İctimai Birliyi; hazırl. E.Sadayoğlu; nəşrə hazırl. A.Qurbanov. - Bakı, 2018. - 62 s. *Kitabda Milli-mənəvi dəyərlər deyilərkən nələr nəzərdə tutulur?; Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır; Boşanmalar bu dəyərlərin yoxa çıxmasına səbəb olur; Milli-mənəvi dəyərlərin aşılanmasında məktəblərin rolu; Həzrət Peyğəmbərimizin əziz qızı Həzrət Fatiməyə nəsihəti; Bir atanın qızına nəsihəti və s. mövzular verilmişdir.*

**505.** Paşayeva, M. Biz azərbaycanlıyıq: qısa etnoqrafik oçerklər /Məhəbbət Paşayeva, A.Qurbanov; red. A.Məmmədov; Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. - Bakı: Costco Company, 2018. - 232 s. *Kitab azərbaycançılıq ideyasına və bu məfkurənin kontekstində Azərbaycan xalqlarına həsr olunmuş, buraya onların tarixi, adət-ənənələri barədə qısa etnoqrafik oçerklər daxil edilmişdir.*

**506.** Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqamətləri: mühazirələr toplusu /U.K.Ələkbərov [və b.]; elmi red. İ.Vəliyev; red. heyəti: O.Səmədov [və b.]; ön söz müəl.: O.Səmədov, İ.Vəliyev; Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu. - Bakı: MTM-İnnovation,

2018. - 204 s. - *(Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun lektoriyası)*

**507.** Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı fikirləri /tərt. C.Əlifzadə; [Mənəvi Dəyərlərin Təbliği Fondu]. - Bakı, 2018. - 100 s. *Kitabda Prezident İlham Əliyevin "Multikulturalizm və tolerantlıq", "Dövlət-din münasibətləri", "Milli-mənəvi dəyərlərimiz" və "Dinimiz"lə bağlı nitqləri yer almışdır.*

**508.** Rəsulzadə, M.Ə. Seçilmiş pedaqoji əsərləri /Məhəmməd Əmin Rəsulzadə; nəşrə hazır. və ön söz müəl. F.Rüstəmov. - Bakı: Elm və təhsil, 2018. - 288 s. *M.Ə.Rəsulzadənin yaradıcılığı təhsil və mədəniyyət tariximizə dəyərli töhfə olmaqla yanaşı, həm də zəngin pedaqoji xəzinədir. Vətənə, xalqa xidmət nümunəsi, gənc nəsli milli fədakarlıq ruhunda tərbiyə etmək əzmi milli məfkurə sahibi olan M.Ə.Rəsulzadənin həyat amalı olmuşdur. Kitabda M. Ə. Rəsulzadənin maarif və təhsil-tərbiyə ilə bağlı məqalələri toplanmışdır.*

**509.** Rüstəmova-Tohidi, S. Cümhuriyyətin "Azərbaycan" adlandırılması və onun tarixi əhəmiyyəti /Solmaz Rüstəmova-Tohidi. - Bakı: Elm və təhsil, 2018. - 176 s. *Kitabda 1918-ci ildə Azərbaycanın tarixi ərazilərində yaradılan yeni müstəqil milli dövlətə "Azərbaycan" adının verilməsi və bu hadisənin bir sıra xarici qüvvələr və ölkələr, ilk növbədə İran dövləti və mətbuatı tərəfindən birmənalı qarşılanmadığı kimi məsələlər tədqiq edilir.*

**510.** Süleymanov, M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi /Mehman Süleymanov; ön söz müəl. və elmi red. Ə.Həsənov; Azərb. Resp. Silahlı Qüvvələrinin Hərbi Akad. - Bakı: Elm və təhsil, 2018. - 728 s. *Kitab Azərbaycan xalqının Ümummilli lideri*

*Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və hərbi təhlükəsizliyinin təmin edilməsi məsələlərinin araşdırılmasına həsr edilmişdir.*

**511.** Süleymanov, N. Azərbaycan Səfəvi Dövləti: 1501-1736-cı illər: Dərs vəsaiti /Nizami Süleymanov; elmi red. H.F.Cəfərov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət İqtisad Uni-ti. - Bakı: İqtisad Universiteti, 2018. - 212 s. *Dərs vəsaiti Azərbaycanın dövlətçilik tarixinin ən möhtəşəm dövrü olan Səfəvilər dövlətinin tarixinə həsr olunmuşdur. Səfəvilər dövlətinin yaranması, Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi, dövlətin həyata keçirdiyi daxili və xarici siyasət, iqtisadi inkişafı əsas məsələləri, sosial-iqtisadi və mədəni həyatı şərh edilmişdir.*

**512.** Vəliyev, İ. Sabitlik və rifah naminə siyasət /İsaxan Vəliyev; elmi red. Ə.Həsənov; red. B.Əzizli. - Bakı: Təhsil, 2018. - 672 s. *Kitabda əbədi müstəqilliyimizin banisi, Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla davam etdirdiyi dövlət siyasətinin müxtəlif istiqamətlərindən söhbət açılır. Güclü dövlət, müstəqil siyasət, yüksək sosial rifah ölkə başçısının apardığı siyasətin prioritet hədəfləri kimi dəyərləndirilir, dövlətçilikdə siyasi varisliyin təntənəsi konkret faktlarla təhlil olunur.*

**513.** Yaqublu, N. Cümhuriyyət qurucuları: 100 il /Nəsiman Yabublu; red. İradə Quliyeva; rəy.: Boran Əziz, Aslan Kənan. - Bakı: Nurlan, 2018. - 504 s. *Kitab Azərbaycan Cümhuriyyətinin qurucuları, əsasən, dövlət idarəçiliyinə başçılıq etmiş nazirlərin həyat və fəaliyyətləri haqqındadır.*

**2019**

**514.** Ağayev, İ. Yeni medianın dəyərlərə təsiri sosioloji kontekstdə /İlkin Ağayev; Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı: TUNA, 2019. - 88 s. *Oxucuların diqqətinə təqdim olunan bu kitabçada yeni media və informasiya cəmiyyəti dövründə dəyərlər və onlara sosioloji yanaşma barədə bir sıra mühüm məqamlardan söhbət açılır.*

**515.** Azərbaycan Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Folklor və dövlətçilik" mövzusunda III Respublika Elmi Konfransının materialları: Bakı, 13 noyabr 2018-ci il /tərt. F.Qasımova; elmi red. M.Kazımoğlu (İmanov). - Bakı: Elm və təhsil, 2019. - 388 s.

**516.** Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş Türk Dünyası dövlətçilik irsi I Beynəlxalq Ağsu Simpoziumu materialları: Ağsu, 09-10 noyabr 2018-ci il /nəşrə hazırl. F.Xəlilli. - Bakı: Elm və təhsil, 2019. - 232 s.

**517.** Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik /H.Dayıyev [və b.]; layihənin rəh. M.H.Seyidbəyli; elmi red. İ.Ə.Həbibbəyli; Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu. - Bakı: Elm və təhsil, 2019. - 456 s. *Kitabda Azərbaycan xalqının siyasi və mənəvi birliyinin, milli dövlətçiliyinin əsasını təşkil edən "Azərbaycançılıq" ideologiyasının tarixi, mənəvi-mədəni kökləri araşdırılır, əsas təkamül mərhələləri nəzərdən keçirilir.*

**518.** Əhmədli, B. Azərizm fəlsəfəsi: [məqalələr] /Baba Əhmədli; red. İ.Naxçıvanlı.- Bakı: Kitab çapı, 2019. - 242 s. *Bu kitabda dörd elmə meyilli məqalələr seçilib yerləşdirilmişdir.*

*Məlumdur ki, həyati amillərin (prinsiplərin) hamısı: dilçilik, dövlətçilik, millətçilik, ailəçilik, diplomatik, fəlsəfə, hüquq, siyasət və bir-birindən asılı olaraq məzmunlanırlar.*

**519.** Əfşar, C. Fikir, düşüncə və mülahizələrim /Cahangir Əfşar; elmi red. N.Cəfərov; məsul red. və ön söz müəl. İ.Rüstəmov; burax. məs. S.İsmayılova; baş red. Ü.Məmmədova. - Bakı: Şərq-Qərb, 2019. - Kb 2. - 344 s. *Kitabda müxtəlif mövzulara dair, daha dəqiq desək, din-dövlət münasibətlərinin tarixi və müasir problemləri, demokratik dövlət quruculuğu və hüquqi dövlət məsələsi, dövlətçilik tariximizin bəzi problemləri haqqında mülahizələr öz əksini tapmışdır.*

**520.** Heydər Əliyev akademik yaddaşda /R.Ə.Mehdiyev, [və b.]; tərt. Ş.Cəlilli; elmi red. R.Mehdiyev. - İstanbul: İMAKOFSET, 2019. - 359 s. *Kitabda AMEA-nın həqiqi və müxbir üzvlərinin Ulu Öndərin milli dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin ayrı-ayrı məqamlarına həsr olunan yazıları yer alıb.*

**521.** Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri: [monoqrafiya] /İsa Həbibbəyli; elmi red. Ə.Salamzadə; məsul red. Ə.Əsgərli. - Bakı: Elm, 2019. - 452 s. *Monoqrafiyada akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirmə konsepsiyasına və inkişaf mərhələlərinə dair tədqiqatı təqdim olunur.*

**522.** İsgəndərov, A. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı: Bakı Dövlət Universiteti – 100 /Anar İsgəndərov, S.Əli qızı; ön söz əvəzi E.Babayev. - Bakı: Nurlar NPM, 2019. - 160 s. *Əsərdə Azərbaycanda orta əsrlərdə məktəb və təhsil, çar Rusiyası dövründə qəza, üsuli-cədid məktəbləri və seminariyanın tarixinə nəzər salınmış, Fevral burjua inqilabından sonra Bakı*

*Dövlət Universitetinin yaradılması uğrunda mübarizə, universitetin təşkilinə hazırlıq, parlament müzakirələri universitetin ilk nizamnaməsi, universitetin fəaliyyətə başlaması, sovet hakimiyyəti və müstəqillik illərindəki fəaliyyəti işıqlandırılmışdır.*

**523.** Quliyeva, X. Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat: [monoqrafiya] /Xatirə Quliyeva; elmi red. və ön söz müəl. İ.Həbibbəyli; məsul red. E.Mədətli; AMEA Fəlsəfə İns-tu. - Bakı: Elm, 2019. - 416 s. *Monoqrafiyada Azərbaycan xalqının Ulu Öndəri, tarixi şəxsiyyət Heydər Əliyevin uzun onillikləri əhatə edən milli dövlət quruculuğu siyasəti dünya tarixi siyasi təcrübəsi kontekstində dərindən araşdırılmış, onun XX əsrin nəhəng Milli Lider keyfiyyətləri elmi-fəlsəfi aspektlərdən geniş təhlil olunaraq qiymətləndirilmişdir.*

**524.** Mehdizadə, G. Azərbaycanın dövlətçilik siyasəti və milli mətbuat /Günel Mehdizadə; elmi red. C.Məmmədli. - Bakı: Elm və təhsil, 2019. - 136 s. *Kitabda Azərbaycanın dövlətçilik siyasətinin milli mətbuatımızda işıqlandırılması prosesi tədqiq edilir. Müəllifin əsas tədqiqat obyekti Azərbaycanın yeni müstəqillik dövrünü əhatə etsə də, yeri gəldikcə, xalqımızın müstəqillik və dövlətçilik uğrunda tarixi mübarizəsini öz səhifələrində əks etdirən klassik milli jurnalistikamızın fəaliyyətinə də nəzər salınmışdır.*

**525.** Məmmədov, F. Kulturologiya və insan inkişafı: [dərs vəsaiti: monoqrafiya] /Fuad Məmmədov; elmi red. N.Cəfərov; tərc.: V.Mehdiyeva, X.Cəfərova; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Association of Culture of Azerbaijan "Simurg". - Bakı: OL, 2019. - 344 s. *Monoqrafiyanın əsas vəzifəsi - Azərbaycanın milli maraqlarına cavab verən, davamlı, təhlükə-*

*siz və rəqabətə dözümlü inkişafı təmin edə biləcək, mütəxəssislərin, o cümlədən müəllimlərin, məmurların, jurnalistlərin fasiləsiz kulturoloji yenidən hazırlanması, əhalinin maarifləndirilməsi, vətəndaşların, şəxsiyyətlərin və liderlərin peşəkar və mənəvi kamilləşməsinə kömək göstərməkdən ibarətdir.*

**526.** Məzahirqızı, X. Azərbaycan publisistikasında müstəqillik ideyaları: ("Odlar yurdu" və "Yeni fikir" qəzetlərinin materialları əsasında. 1988-1991-ci illər) /Xəyalə Məzahirqızı; elmi red. M.Məhəmmədismayıl; ön söz müəl. A.Əzimova. - Bakı: Elm və təhsil, 2019. - 192 s. *Kitab "Odlar yurdu" və "Yeni fikir" qəzetlərinin 1988-1991-ci illəri əhatə edən fəaliyyətinə həsr olunub. Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizədə qəzetlərin səmərəli fəaliyyəti təhlil edilir. Tədqiqata cəlb olunan qəzetlər haqqında ilk dəfədir ki, ətraflı məlumatlar verilir.*

**527.** Mikayılov, Ş. Mənəvi dəyərlər sistemində təbiətə humanist münasibətlərin ekoloji əsasları: (ali məktəblər üçün dərs vəsaiti) /Şasəddin Mikayılov; elmi red. M.Ə.Əfəndiyev. - Bakı: ADPU, 2019. - 159 s. *"Mənəvi dəyərlər sistemində təbiətə humanist münasibətlərin ekoloji əsasları" kitabında: ekoloji problem və onun həllinin etik aspekti, ekoloji problem və onun həllinin estetik aspekti və digər mövzular geniş şəkildə verilmişdir.*

**528.** Mikayılova, Ə. Azərbaycan dili və nitq mədəniyyəti: (tarixi-analitik və didaktik materiallar): [Dərs vəsaiti] /Əzizə Mikayılova; elmi red. N.Cəfərov; elmi məsl. A.Bayramov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı: Elm və təhsil, 2019. - 296 s. *Dərs vəsaitində verilmiş mətnlər ədəbi*

*dil normalarına əsaslanmış və dil normaları üzərində tərtib olunmuşdur, yəni bu fikri əsaslandırmaq məqsədilə Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqlərinə, həmçinin şair və yazıçıların əsərlərinə, görkəmli natiqlərin fikir və düşüncələrinə müraciət edilmişdir.*

**529.** Mirzəyeva, L. Kərim Məşrutəçi Sönməz: [monoqrafiya] /Lətifə Mirzəyeva; elmi red. T.Ə.Əhmədov; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və təhsil, 2019. - 184 s. *Kitabda Kərim Məşrutəçi Sönməzin həyatı, ədəbi mühiti, bədii irsi tədqiq olunur. Oxucu monoqrafiyada ustadın poeziyasının, nəsrinin, ədəbi-nəzəri fikirlərinin, milli, ictimai-siyasi hadisələrə, azərbaycançılıq ideologiyasına münasibətinin, təhlükəsizlik fəaliyyətinin – geniş şaxəli yaradıcılığının elmi təqdimini görə bilir.*

**530.** Multikulturalizmə giriş: Ali məktəblər üçün dərslik /K.Abdulla [və b.]; elmi red. və ön söz müəl. R.Mehdiyev; nəşrə məsul: A.Əlizadə; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı: Şərq-Qərb, 2019. - 432 s. *Dərslikdə multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri nəzərdən keçirilir, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı məlumat verilir.*

**531.** Müasir siyasətin və etikanın aktual problemləri: (elmi-nəzəri məqalələr toplusu): [kitab Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 illiyinə ithaf olunur] /AMEA Fəlsəfə İns-tu, "Müasir siyasətin fəlsəfəsi" və "Etika" şöbələri; red. heyəti: İ.Məmmədzadə [və b.]; ön söz əvə-

zi İ.Həbibbəyli. - Bakı: CBS, 2019. - 408 s. *AMEA Fəlsəfə İnstitutunun "Müasir siyasətin fəlsəfəsi" və "Etika" şöbələrinin birgə hazırladığı elmi-məqalələr toplusunda Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanı güclü dövlətə çevirən milli inkişaf siyasəti, milli dirçəliş fəlsəfəsi, azərbaycançılıq ideologiyası və s. bu kimi siyasi, etik problemlərin elmi-nəzəri tədqiq və təhlilini ehtiva edən məqalələr təqdim olunmuşdur.*

**532.** Müstəqil Azərbaycan dövlətinin qurucusu: YAP Səbail rayon təşkilatı və Səbail Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən elmi-praktik konfrans və "dəyirmi masa"ların materialları əsasında /Yeni Azərbaycan Partiyası Səbail Rayon Təşkilatı, Səbail Rayon İcra Hakimiyyəti; elmi red. Ş.Hacıyev [ön söz]. - Bakı: Azərbaycan, 2019. - 442 s. *Kitab Yeni Azərbaycan Partiyasının dəstəyi, YAP Səbail rayon təşkilatı və Səbail Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 və Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyləri münasibətilə keçirilmiş elmi-praktik konfransların və "dəyirmi masa"ların materialları əsasında hazırlanmışdır.*

**533.** Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir: Azərbaycan Respublikası hüquq mühafizə orqanlarının gənc əməkdaşlarının I Forumu: Bakı, 18 oktyabr 2019-cu il /Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti; tərt.: A.Babayev [və b.]. - Bakı: Şərq-Qərb, 2019. - 184 s. *Müasir Azərbaycanın banisi və qurucusu Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu gənclər siyasətində ölkə ğəncliyinin vətənpərvərlik, müstəqillik, dövlətçilik, azərbaycançılıq, dünyəvilik və humanizm prinsipləri əsasında formalaşdırılması prioritet vəzifələrdəndir.*

**534.** Nizami Gəncəvi almanaxı /AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu; elmi red. İ.Həbibbəyli; red. hey.: T.Kərimli [və b.]. - Bakı: Zərdabi nəşr, Kaspi nəşrləri, 2019. - C.1. - 272 s. *AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Nizamişünaslıq şöbəsi tərəfindən təqdim olunan "Nizami Gəncəvi almanaxı"na daxil edilmiş məqalələr dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığına dair mühüm problemlərin həllinə yönəldilmişdir. Ölkəmizin dövlət müstəqilliyi dövründə obyektiv elmi meyarlar və azərbaycançılıq mövqeyindən dahi şairin həyatı, milli mənsubiyyəti, dövrü, mühiti və yaradıcılığının müxtəlif istiqamətləri ətrafında aparılan araşdırmalar mühüm əhəmiyyət daşıyır.*

**535.** Novruzov, S. Heydər Əliyev və Azərbaycan dövlətçiliyi /Siyavuş Novruzov; elmi red.: Ə.Əhmədov, M.Qıpçaq. - Bakı: Elm və təhsil, 2019. -272 s. *Kitabda müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli lider Heydər Əliyevin ölkədə siyasi sistemin və tolerantlığın təşəkkül tapmasında, Azərbaycanın Avropaya inteqrasiya olmasında və iqtisadi baxımdan dirçəlməsində, siyasi plüralizm və demokratiyanın inkişafındakı roluna həsr olunmuş məqalələr toplanmışdır.*

**536.** Raqifoğlu, R. Azərbaycan diasporu: dərs vəsaiti /Rövşən Raqifoğlu; red. Ə.Həsənov; Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası. - Bakı: Zərdabi Nəşr MMC, 2019. - 312 s. *Dərs vəsaitində Azərbaycan diasporunun Avropada yayım coğrafiyasını, xaricdə yaşayan soydaşlarımızın milli-mənəvi dəyərlər və azərbaycançılıq-ideologiyası uğrunda mübarizə metodlarını, diasporumuzun tarixi və bugünkü inkişaf istiqamətlərini əks etdirən elmi faktlar, təhlillər, analitik xarakterli materiallar yer alır.*

**537.** Ramiz, G. Çağdaş nəsrdə milli tarix konsepti: [monoqrafiya] /Gülnar Ramiz; elmi red. T.Mustafayev [ön söz ]; AMEA N.Gəncəvi ad. Ədəbiyyat İnstitutu. - Bakı: Ecoprint, 2019. - 152 s. *Monoqrafiya informativ baxımdan zəngin olub, müstəqillik illərində tarixi mövzuda yazılmış külli miqdarda nəsr əsərlərini ehtiva edir.Tədqiqatçı tarixi nəsr, tarixi roman janrı haqqında,modern və postmodern romanlarda tarix konseptinin işlənməsinə dair nəzəri ədəbiyyata nüfüz etmiş, mənimsəyərək tədqiqata yönəldə bilmişdir.*

**538.** Rəsulzadə, M.Ə. Azərbaycan: Müstəqillik üçün mübarizə yolunda /Məmməd Əmin Rəsulzadə; fransız dilindən tərc. T.Mehbaliyev; naşir: Y.İlhamoğlu; red. İ.Zeynallı; dizayn: X.Danyal. - Bakı: Çapar Yayınları, 2019. - 90 s. *Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmmədəmin Rəsulzadənin bu kitabında Azərbaycanın tarixi, mədəniyyəti, iqtisadiyyatı haqqında məlumat verilir, bolşevik işğalından sonra 10 il ərzində ölkə içində aparılan azadlıq mücadiləsinə toxunulur. Əsər 13 bölmədən ibarətdir.*

**539.** Rzazadə, Ə. Mənəvi dəyərlər və ətraf mühitin mühafizəsi /Əli Rzazadə; red. G.Sadiq; Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı: TUNA, 2019. - 72 s. *Kitabda insan və ətraf mühit, dini dəyərlərin problemə münasibəti və ətraf mühitin qorunmasında rolu, müasir Azərbaycanda ətraf mühitin qorunması istiqamətində atılan addımlar haqqında geniş məlumat verilmişdir.*

**540.** Tanırverdiyev, T. Ən böyük azərbaycanlı: [məqalələr] /Tanırverdi Tanırverdiyev [son söz əvəzi]; red. V.İsaqoğlu. - Bakı: Ecoprint, 2019. - 248 s. *Kitabda müəllifin müxtəlif mətbuat orqanlarında dərc olunan, eləcə də son illər qələmə aldığı məqalələr toplanmışdır. Məqalələrin ümumi məzmunu*

*Azərbaycançılıq ideyaları, bu ideyaların təbliği məsələlərindən, Ümummilli liderimiz Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu kimi fəaliyyətindən, böyük öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin daxili və xarici siyasətinin uğurlarından, ölkəmizin qazandığı nailiyyətlərdən və s. bəhs edilir.*

**541.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" X Beynəlxalq Elmi Konfransın materialları: 7 may 2019-cu il /red. hey. N.M.Əliyeva [və b.]. - Bakı: Mütərcim, 2019. - 488 s. *Kitabda "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda müxtəlif məruzələr və Ümummilli lider Heydər Əliyevin bu sahədə apardığı diqqətəlayiq fəaliyyətinə dair materiallar verilmişdir.*

**542.** Yusifoğlu, İ. Naxçıvan: Əcəmi, 2019. - C. 3. - 288 s. *İbrahim Yusifoğlunun 5 clddən ibarət "Seçilmiş əsərləri"nin 3-cü cildinə şairin son illərdə yazdığı şeirləri, poemaları və mənzum pyesləri daxil edilmişdir. Kitabdakı əsərlərin hər birində Azərbaycançılıq, Vətənə tükənməyən məhəbbət, saf və müqəddəs sevgi, sabahımız olan uşaqlara qayğı və ehtiram ön plana çəkilmişdir.*

**543.** Yusifoğlu, İ. Seçilmiş əsərləri: şeirlər, poemalar, pyeslər: [5 clddə] /İbrahim Yusifoğlu; red. M.Qasımzadə. - Naxçıvan: Əcəmi, 2019. - C.3. - 288 s. *İbrahim Yusifoğlunun 5 clddən ibarət "Seçilmiş əsərləri"nin 3-cü cildinə şairin son illərdə yazdığı şeirləri, poemaları və mənzum pyesləri daxil edilmişdir. Kitabdakı əsərlərin hər birində Azərbaycançılıq, Vətənə tükənməyən məhəbbət, saf və müqəddəs sevgi, sabahımız olan uşaqlara qayğı və ehtiram ön plana çəkilmişdir.*

**544.** Zahidov, Ə. Müstəqillik yollarında: [düşüncələr, xatirələr, sənədlər] /Ələkbər Zahidov; elmi red. S.Rüstəmxanlı; red. və tərt. Ə.Polad. - Bakı, 2019. - 488 s. *Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.*

**2020**

**545.** Abdulla, K. Seçilmiş əsərləri: 7 clddə /K.Abdulla; tərtibçi.: Ş.Nəqşani [və b.]; buraxıl. məsul: S.Balaxan; dizayner C.Kişiyev. - Bakı: Mütərcim, 2020. - C.4: Qorqudnamə. - 780 s. *Bu kitaba Kamal Abdullanın "Gizli" Dədə Qorqud", yaxud Mifdən Yazıya" və Dastanın poetik özəlliklərini elmi dəlillərlə şərh edən fundamental "Kitabi-Dədə Qorqud" poetikasına giriş" monoqrafiyaları, Azərbaycanşünaslığın "Dədə Qorqud" dastanında təzahürünü tapmış əsaslarından bəhs edən "Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" adlı dərs vəsaiti və Dastanla bağlı elmi-publisistik məqalələri, oçerkləri daxil edilib.*

**546.** Abdulla, K. Azərbaycançılıq və "Kitabi-Dədə Qorqud" dastanı /Kamal Abdulla; ADA Universiteti. - Bakı: Şərq-Qərb, 2020. - 283 s. *"Azərbaycançılıq və Kitabi-Dədə Dastanı" kitabı universitetin "Azərbaycanşünaslıq" kursunda 2014-cü ildə müəllif tərəfindən deyilmiş mühazirələr əsasında tərtib edilmişdir. Müəllif Azərbaycan, azərbaycançılıq və azərbaycanşünaslıq anlayışları, azərbaycançılığın bir məfkurə, siyasi hərəkat, mənəvi məkan kimi əhəmiyyəti barədə söhbət aparır.*

**547.** Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Azərbaycan Xalq Cümhuriyyəti - 100: tarixi

irs və müasirlik" mövzusunda Respublika elmi konfransının materialları: 24 may 2018-ci il. - Bakı: Elm və təhsil, 2020. - 408 s.

**548.** Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər): [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. Z.Şabanov. - Bakı: Elm və təhsil, 2020. - H.1. - 504 s. *Kitabda XIX əsr Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur.*

**549.** Cavadov, A. Milli mənəvi dəyərlər və azərbaycançılıq /Amil Cavadov; [Mənəvi Dəyərlərin Təbliği Fondu]. - Bakı: TUNA, 2020. - 200 s. *Kitabda əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğu azərbaycançılıq ideyasının yaranma tarixi, mahiyyəti, dövlətçiliyimizin inkişafında yeri və rolu müxtəlif aspektlərdən araşdırılaraq işıqlandırılıb.*

**550.** Cəbrayılov, İ. Şagirdlərdə azərbaycançılıq ideologiyasının formalaşdırılması: [metodik vəsait] /İntiqam Cəbrayılov (elmi red.) [ön söz], K.V.Mikayılova, T.S.Paşayev; Azərb. Resp-nın Təhsil Nazirliyi, Azərb. Resp-nın Təhsil İns-tu. -Bakı, 2020. - 128 s. *Metodik vəsaitdə azərbaycançılıq ideologiyasının tarixi, məqsədi və mahiyyəti, pedaqoji mühitdə şagirdlərə aşılanması prinsipləri öz əksini tapmışdır. Burada eyni zamanda dövlət rəmzlərinin, multikultural dəyərlərin şagirdlərdə formalaşdırılmasının səmərəli yolları göstərilmişdir.*

**551.** Dünya azərbaycanlıları: Tarix və müasirlik: (Elmi-nəzəri toplu) /Azərb. Resp. Təhsil Nazirliyi], BDU, Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" El-

mi-tədqiqat labor.; red. hey.: Y.Mahmudov [və b.]; çapa hazırl.: U.M.Paşayeva, S.Z.Quliyeva. - Bakı: Füyuzat, 2020. - Bur. 7. - 222 s.

**552.** Əhmədli, S. İsa Həbibbəyli: milli ideologiya azərbaycançılıq: [monoqrafiya] /Salatın Əhmədli; elmi red. Y.İsmayılova; red. G.Hüseynli. - Bakı: Gənclik, 2020. - 224 s. *Monoqrafiyada İsa Həbibbəylinin yaradıcılığının ədəbiyyatşünaslıq və ədəbi-elmi publisistika müstəvisində araşdırılmasından və İsa Həbibbəylinin siyasi-ideoloji yaradıcılığından söhbət açılır.*

**553.** Ələkbərli, F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər): [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. Z.Şabanov. - Bakı: Elm və təhsil, 2020. - H.1. - 504 s. *Kitabda XIX əsr Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur.*

**554.** Ələkbərli, F. Azərbaycan türk fəlsəfi və ictimai fikir tarixi: XIX-XX əsrlər: [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. Z.Şabanov; Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası. - Bakı: Elm və təhsil, 2020. -H.2. - 864 s. *Monoqrafiyanın ikinci hissəsində XX əsr Quzey Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur.*

**555.** Əliyeva, N. Azərbaycanı dəyişən məhəbbət: [monoqrafiya] /Nurlana Əliyeva; red. və ön söz müəl. N.Cəfərov. - Bakı: Mütərcim, 2020. - 400 s. *Kitabda müasir Azərbaycan dövlətinin qurucusu, müdrik və təcrübəli siyasi xadim, dünya şöhrətli dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyevin çoxşaxəli və çoxcəhətli fəaliyyətinin yarıməsrlik dövrü, xalqımızın milli oyanışı, iqtisadi və sosial tərəqqisi naminə göstərdiyi böyük xidmətlər elmi-tarixi faktlar əsasında öz geniş və dolğun əksini tapıb.*

**556.** Əliyeva, S. Azərbaycan Xalq Cümhuriyyəti və Şimali Qafqaz dövlətləri: müstəqillik illərində (1918-1920) /Sevinc Əliyeva; elmi red. C.Cəfərov; rus dilindən tərc.: A.İmanova, P.Quluzadə; Azərb. Dövlət Pedaqoji Uni-ti. - Bakı: Avropa, 2020. - 322 s. *Kitabda müəllif geniş arxiv mənbələri əsasında Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqazdakı dövlətlərin sıx qarşılıqlı əlaqəsini və əməkdaşlığını, onların birləşmə ideyasını və layihələrini, Azərbaycan hökuməti və xalq tərəfindən Şimali Qafqaz xalqlarının azadlıq mübarizəsinə hərtərəfli köməyi tədqiq etmişdir.*

**557.** Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq: toplu /AMEA Fəlsəfə və Sosiologiya İns-tu; ideya müəl. İ.Həbibbəyli; elmi red. İ.Məmmədzadə; red.: E.Mədətli, S.Həsənov. - Bakı: Elm və təhsil, 2020. - Kb.2. -448 s. *Topluda müdrik siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Bu irsdəki milli kimlik, milli-mənavi dəyərlər, azərbaycançılıq ideologiyası, dövlət quruculuğunda tarixi və sosial yaddaş, dil və siyasət məsələləri, etik prinsiplər və dövlətçiliyimizi gücləndirən digər amillər müxtəlif istiqamətlərdən olan elmi mənbələrlə təhlil olunaraq təqdim edilir.*

**558.** Hüseynzadə, F. Azərbaycançılıq ideyası – dünya azərbaycanlılarının istinad mənbəyi /Fuad Hüseynzadə; red. V.Zifəroğlu; Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyi. - Bakı: Apostrof-A, 2020. - 180 s. *Kitabda dünya azərbaycanlılarının xalqımızın milli inkişaf yolunun formalaşmasında mühüm rolu olan azərbaycançılıq ideyalarının təbliği ilə bağlı fikir və təkliflər yer alıb. Beş qitədəki aktiv soydaşlarımızdan alınan*

*müsahibə və açıqlamalar 2020-ci ilin iyul-oktyabr aylarında yerlı mediada dərc olunub.*

**559.** Quliyeva, M. Mən kiməm... Milli kimliyim və mənəvi zənginliyim ədəbiyyatda /Mahirə Quliyeva; elmi məsl. və red. İ.Həbibbəyli; AMEA Nizami Gəncəvi ad. Ədəbiyyat İns-tu. - Bakı: Elm və təhsil, 2020. - 280 s. *Kitabda Şərq-Qərb filosoflarının əxlaq haqqında fikir müxtəlifliyi müqayisəli şəkildə elm müstəvisinə çıxarılır, insanın fəzilət və düşüncəsinin təmsilçisi kimi çıxış edən söz, Quran bəlağəti və İslam mədəniyyətinin ruhu ilə formalaşmış kəlam və onun məna qatları ədəbiyyatda, xüsusilə klassik ədəbiyyatın gedişatında öz təzahürünü tapır.*

**560.** Mahmudov, Y. Şəki: Şimal-Qərbi Azərbaycanda sarsılmaz dövlətçilik qalası /Yaqub Mahmudov; elmi red. G.Nəcəfli; dizayner: M.Xanbabayeva; AMEA A.A.Bakıxanov ad. Tarix İns-tu. - Bakı: Turxan NPB, 2020. - 56 s. *Kitabda Şəki və onun əhatəsindəki Vətən torpaqlarının ən qədim zamanlardan günümüzədək davam edən tarixindən yığcam şəkildə bəhs olunur.*

**561.** Məmmədli, A. Mollanəsrəddinçilik və milli ideya: dərs vəsaiti /Allahverdi Məmmədli; elmi red. İ.Həbibbəyli; red. C.Ə.Məmmədli; Bakı Dövlət Universiteti. - Bakı: Şərq-Qərb, 2020. - 303 s. *Müəllif Azərbaycan klassik ədəbiyyatının və jurnalistikasının inkişafında müstəsna rol oynayan "Molla Nəsrəddin" ədəbi məktəbinin formalaşdırdığı azərbaycançılıq təliminin xüsusiyyətlərini açmış, o dövrün ədəbi qüvvələrinin yaradıcılığında əsas amil kimi özünü göstərən vətən, millət, ana dilinə sevgi mövzularını təhlilə cəlb etmişdir.*

**562.** Mir Cəlalın fikir dünyası: aforizmlər, elmi məqalələr /Azərb. Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Yeni Yazarlar və

Sənətçilər İctimai Birliyi; tərt. və red. A.Xan Əbilov; elmi red. A.Turan. - Bakı: Avropa, 2020. - 56 s. *Kitabda Mir Cəlal Paşayev yaradıcılığından bəhs edilir. Mir Cəlalın milli ideya-məzmun tərkibi və ya strukturu etibarilə diqqəti ilk növbədə milli tərəqqi, milli müstəqillik, milli dilin saflığı, gənc nəslin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi cəlb edir. Kitabda, həmçinin yazıçının yaratdığı zəngin mənəvi xəzinənin, mənəvi sərvətin bir hissəsi olan hikmətli sözləri verilmişdir.*

**563.** Mirzəyeva, A. Azərbaycan istiqlal poeziyası: (Bəxtiyar Vahabzadənin yaradıcılığı fonunda): [monoqrafiya] /Aida Mirzəyeva; elmi red. və ön söz müəl. A.Əliqızı. - Bakı: Nurlar, 2020. - 168 s. *Monoqrafiyada Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin istiqlal mövzusunda yazmış olduğu poeziya nümunələri təhlil obyektinə çevrilmişdir. Monoqrafiya "Bəxtiyar Vahabzadə poeziyasında istiqlal probleminin aktuallığı və bəşəri mahiyyəti", "Poeziyada ideya-məzmun və məfkurə yeniliyi" və "Poeziyada milli istiqlal və azadlıq ideyaları" adlı 3 fəsildən ibarətdir.*

**564.** Osmanlı, D. Azərbaycançılıq: gerçəyin dərsi: [publisistika] /Dəyanət Osmanlı; red. İ.Abdullayeva; Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, "Türk Dünyası İnfo" İB. - Bakı: Asinatino MMC: Elm və təhsil, 2020. - 240 s. *Kitabda müəllifin müxtəlif illərdə azərbaycançılıq ideyalarına dair yazdığı bir sıra məqalə, müsahibə və açıqlamalarının toplandığı nəşrdə Azərbaycan xalqının formalaşmasında mühüm rolu olan azərbaycançılıq ideyalarının müxtəlif aspektləri, xalqın milli ruhunu, dilini, adət-ənənəsini, vətənpərvərlik duyğularını özündə ehtiva edən məsələlər əks olunub.*

**565.** Rəsulzadə, M.Ə. Azərbaycan: Müstəqillik üçün mübarizə yolunda /Məmməd Əmin Rəsulzadə; fransız dilindən tərcümə: T.Mehbaliyev; red. İ.Zeynallı; naşir: Y.İlhamoğlu; dizayn: R.Həsən. - Bakı: Çapar, 2020. - 111 s. *Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmmədəmin Rəsulzadənin bu kitabında Azərbaycan tarixi, mədəniyyəti, iqtisadiyyatı haqqında məlumat verilir, bolşevik işğalından sonra 10 il ərzində ölkə içində aparılan azadlıq mücadiləsinə toxunulur.*

**566.** Rüstəmova, A. Azərbaycanda informasiya cəmiyyətinin inkişafının fəlsəfi problemləri: dil və kommunikasiya: [monoqrafiya] /Afaq Rüstəmova; elmi red. İ.Məmmədzadə; AMEA Fəlsəfə İnstitutu. - Bakı: Azəri poliqrafiya, 2020. - 170 s. *Monoqrafiyada müasir dövrdə informasiya cəmiyyətinin fəlsəfi, elmi-nəzəri problemləri, dünya sivilizasiyasının inkişafında informasiya cəmiyyəti mərhələsi, Azərbaycanda informasiya cəmiyyətinin inkişaf tendensiyaları araşdırılır, o cümlədən informasiya cəmiyyətinin tələbləri baxımından dil və kommunikasiya proseslərinin fəlsəfi mahiyyəti, dil və siyasət, azərbaycançılıq ideologiyasının formalaşmasında dil amili, informasiya cəmiyyətində ünsiyyət və kommunikasiya problemləri təhlil edilir.*

**567.** Şagirdlərdə mənəvi dəyərlərin formalaşdırılması: [metodik vəsait] /Azərb. Resp-nın Təhsil Nazirliyi, Azərb. Resp-nın Təhsil İns-tu; elmi red. və ön söz müəl. İ.H.Cəbrayılov (nəşrə hazırl.). - Bakı, 2020. - 240 s. *Metodik vəsaitdə şagirdlərə milli-mənəvi dəyərlərin aşılanması imkanları və yollarından bəhs edilir.*

**2021**

**568.** Bəhrəmova, S. Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti: [monoqrafiya] /Sevil Bəhrəmova;

elmi red. C.Cəfərov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Pedaqoji Uni-ti. - Bakı: Avropa, 2021. - 232 s. *Monoqrafiyada tarixi ədəbiyyatın, mənbələrin, Heydər Əliyevin zəngin irsinin təhlili əsasında Azərbaycanda dövlət – din münasibətlərinin inkişaf mərhələləri, Ulu Öndərin din siyasətinin əsas istiqamətləri, Azərbaycanda dini etiqad azadlığının vəziyyəti və müasir mərhələdə din siyasətinin başlıca aspektləri təhlil edilmiş Respublikamızda konfessiyalararası münasibətlər, tolerantlıq və multikulturalizm sahəsində toplanmış təcrübə öyrənilmişdir.*

**569.** Dünya Azərbaycanlıları: Tarix və müasirlik: (Elmi-nəzəri toplu) /Azərb. Resp. Təhsil Nazirliyi, BDU Tarix fakültəsi, Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" Elmi-tədqiqat laboratoriyası; red. hey.: Y.Mahmudov [və b.]; çapa hazırl.: U.Paşayeva, Z.İslamova. - Bakı: Füyuzat, 2021. - Bur. 8. - 160 s.

**570.** Ələkbərli, F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər): [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. Z.Şabanov. - Bakı: Elm və təhsil, 2021. - H.3. - 684 s. *Monoqrafiyanın 3-cü hissəsində XX əsr Güney Azərbaycan Türk fəlsəfi fikrinin inkişaf yollarından və bu fəlsəfi fikrin tanınmış Azərbaycan Türk mütəfəkkirlərinin dünyagörüşlərindən bəhs olunur.*

**571.** Əsgər, R. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı /Ramiz Əsgər; elmi red. M.İmanov; red.: Ə.Şamil, N.Əskər. - Bakı: Füyuzat, 2021. - 288 s. *Kitabda Azərbaycanın milli müstəqillik uğrunda apardığı müqəddəs mücadilədə ədəbiyyatın oynadığı rol, sovetlərin ədəbiyyat siyasəti, xalqın milli, mənəvi və sosial inkişafı uğrunda ədəbiyyatın mübarizəsi, müstəqil-*

*lik illərində Azərbaycan şeiri, nəsri, dramaturgiyası, uşaq ədəbiyyatı, ədəbiyyatşünaslıq elmi, yeni cərəyanlar və izmlər gözdən keçirilmiş, bəzi nəticələrə varılmışdır.*

**572.** Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq: [toplu] /AMEA, Fəlsəfə və Sosiologiya İns-tu; elmi red. İ.Məmmədzadə; red.: E.Mədətli, S.Həsənov; məsul katib: T.Quliyev. - Bakı, 2021. - Kb.3. - 256 s. *Topluda müdrik siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Bu irsdəki milli kimlik, milli-mənəvi dəyərlər, azərbaycançılıq ideologiyası, dövlət quruculuğunda tarixi və sosial yaddaş, dil və siyasət məsələləri, etik prinsiplər və dövlətçiliyimizi gücləndirən digər amillər müxtəlif istiqamətlərdən olan elmi mənbələrlə təhlil olunaraq təqdim edilir.*

**573.** Heydərova, S. Azərbaycanın dövlət siyasətində Qarabağa aparan yol /Sevda Heydərova; elmi red. və ön söz müəl. R.Rüstəmov; red. O.Heydərov. - Bakı: Elm və təhsil, 2021. - 120 s. *Əsasını Ulu Öndər Heydər Əliyevdən götürən, cənab Prezident İlham Əliyev tərəfindən də davam etdirilən dövlətçilik siyasəti öz əksini tapmış, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, xüsusilə Qarabağın işğaldan azad edilməsi yolları nəzərdən keçirilmişdir.*

**574.** Qafqazşünaslığın aktual problemləri: (məqalələr toplusu) /AMEA Qafqazşünaslıq İns-tu; çapa hazırl.: R.Dadaşova, G.Musayeva; elmi red. M.Qasımlı. - Bakı, 2021. - 280 s. *Məqalələr məcmuəsində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyəti, Azərbaycanda tolerantlıq dəyərləri və başqa məsələlər araşdırılmışdır.*

**575.** Qarayev, F. Azərbaycanın dövlətçilik tarixində qəhrəmanlıq dastanı: [monoqrafiya] /Faiq Qarayev; elmi red. M.Əfəndiyev [ön söz]. - Bakı: Mütərcim, 2021. - 208 s. *Monoqrafiyada son 200 il ərzində erməni faşistlərinin, qəddar, amansız işğalçıların əsassız ərazi iddiaları, törətdikləri qeyri-insani, çirkin əməllər, tarixi mədəniyyət abidələrimizi tamamilə məhv etmələri nəzəri və poetik səpkidə açıqlanır.*

**576.** Mədətli, E. Heydər Əliyev – İlham Əliyev: azərbaycançılığın zəfər yolu: [monoqrafiya] /Eynulla Mədətli; elmi red. İ.R.Məmmədzadə; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. - Bakı: Turxan NPB, 2021. - 272 s. *Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən dövlətçilik siyasəti ilə müstəqilliyin ilk illərinin fəlakətindən xilas olan Azərbaycan Respublikasında on il ərzində müstəqil dövlətçiliyin etibarlı təməli qoyuldu, ölkə sabit və dayanıqlı inkişaf yoluna çıxdı. Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsi ölkəmizin və xalqımızın ahəngdar tərəqqisi və çiçəklənməsinin mənəvi-ideoloji güc mənbəyinə çevrildi.*

**577.** Məmmədov, C. Cəmiyyət, şəxsiyyət, təhsil, din /Ceyhun Məmmədov; red. Z.F.Vəliyev; dizayn: L.M.Həsənova. - Bakı: Nurlar, 2021. - 175 s. *Kitabda Azərbaycanın dövlətçilik ənənələri, ən yeni dövr Azərbaycan tarixi və bu dövrün görkəmli şəxsiyyətlərinin fəaliyyəti, digər dövlətlərlə münasibətlər, milli-mənəvi dəyərlərimiz, din təhsilinin tarixi, həmçinin xalqımıza qarşı yönəlmiş erməni vəhşiliklərindən bəhs edilir.*

**578.** Məmmədov, E. Tarixi və müasir kontekstdə dəyər (əxlaq) problemi: analitik-komparativ qeydlər /Elvüsal Məmmədov; "İdrak" İctimai Birliyi. - Bakı: İdrak, 2021. - 117 s. *Dəyərlər mövzusu ona görə aktualdır ki, fərd və cəmiyyətlərin həya-*

*tında əhəmiyyətli yerə sahibdir. Qloballaşan dünyada mənəvi dəyərlərin deqradasiyası, milli-mənəvi konyunkturanın qeyri-ənənəvi mühit üçün "hazır" vəziyyətə gətirilməsi, yad düşüncə və həyat tərzinin doğmalıq kəsb etməsi heç kəsdə şübhə doğurmur, əksinə, ziyalıları düşündürür və narahat edir. Dəyərlər cəmiyyətin böyük əksəriyyəti tərəfindən qəbul edilən müştərək anlayışlar, xoşbəxtliyi təmin edən normalar məcmusudur.*

**579.** Mir-Bağırzadə, S. Multikulturalizmə giriş: dərslik /Samirə Mir-Bağırzadə; elmi red. İ.Hüseynov. - Bakı, 2021. - 121 s. *Dərslikdə mədəniyyət, sivilizasiya, multikulturalizm, mentalitet, qloballaşma, tolerantlıq, mədəniyyətin etnik-milli xüsusiyyətləri, mənəvi və maddi mədəniyyət, mədəni dəyərlər sistemi, mədəniyyətin sosial institutları və s. anlayışlarının nəzərdən keçirildiyi kulturoloji aparatı - cədvəl şəklində araşdırılmışdır.*

**580.** Muradov, Ş. Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişikliklər, yeni meyillər, problemlər: (1828-2020-ci illər): [monoqrafiya] /Şahbaz Muradov; red. Ç.Baxış; AMEA İqtisadiyyat İns-tu. - Bakı: Elm və Bilik, 2021. -536 s. *Əsər həmin dövrlərin sosial-iqtisadi, sosial-siyasi, tarixi, milli və mədəni xarakterli nəticələri, habelə yaxın və uzaq gələcəkdə respublikada demoqrafik vəziyyətin nizamlanmasının prioritet istiqamətlərini müəyyənləşdirib, yaranmış problemlərin həllinə dair elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanmasına həsr olunmuşdur.*

**581.** Necə bir gənc /hazırl. H.Aslanov [ön söz]; elmi red. N.Məmmədzadə; nəşrə hazırl. F.Quliyev. - Bakı: İpəkyolu, 2021. - 160 s. *Kitabda gənclərlə gənclik üzərində durmağın yolları, əsl gəncin və gəncliyin nə olduğunu milli və mənəvi dəyərlər üzərindən izahı verilmişdir.*

**582.** Paşayev, Q. Xilaskarlar /Qəzənfər Paşayev; ön söz. müəl. İ.Həbibbəyli; red. N.Cəfərov. - Bakı: Təhsil, 2021. - 136 s. *"Xilaskarlar" kitabı professor Q.Paşayevin azərbaycançılıq tədqiqatlarında yeni hadisədir. Bu vaxta qədər azərbaycançılıq ideallarından, əsasən, elm və ədəbiyyat baxımından söz açan Q.Paşayev "Xilaskarlar" kitabında ilk dəfə olaraq azərbaycançılıqdan ictimai-siyasi müstəvidə bəhs etmişdir. Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu dövlətçilik fəaliyyəti və ölkəmizə qazandırdıqları çoxcəhətli böyük Zəfərlərin nümunəsində Azərbaycan və azərbaycançılıq idealları təqdim edilən "Xilaskar" kitabının ana xəttini təşkil edir.*

**583.** Pənah, G. Milli kökümüzə, dilimizə, ədəbiyyatımıza yeni baxış /Gülxani Pənah; elmi red.: A.H. Rüstəmli, Y.İsmayılova; Azərbaycanda Atatürk Mərkəzi, Bakı Dövlət Universiteti. - Bakı: Elm və təhsil, 2021. - 554 s. *Kitabda Nizami Cəfərov eposunun Gülxani Pənah qolu; Nizami Cəfərov Azərbaycan ədəbiyyatının mənşəyi barədə; Azərbaycan ədəbiyyatının təşəkkülü, inkişafı, müasir ədəbi proses; Nizami Cəfərov ədəbiyyatşünaslığımızın təəssübkeşləri haqqında; Milli mətbuat, milli düşüncə, milli mədəniyyət; Nizami Cəfərovun türkoloji araşdırmaları və digər mövzulara yer verilmişdir.*

**584.** Prezident İlham Əliyevin milli-mənəvi dəyərlərimiz haqqında fikirləri: 6 dildə: [Azərb., türk, rus, ing., ərəb, fars dillərində] /Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərb. İlahiyyat İns-tu; tərt.: A.Aslanova, E.Ağaoğlu; ideya müəl. M.Qurbanlı; baş red. A.Şirinov; tərc.: D.Mehmandarov [və b.]. - Bakı: Nurlar, 2021. - 184 s. *Kitab Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliye-*

*vin Azərbaycan xalqının milli-mənəvi dəyərləri haqqında söylədiyi fikirləri ehtiva edir. Kitab Milli-mənəvi dəyərlər; Dinlərarası münasibətlər; Mulitikulturalizm; Tolerantlıq və 44 günlük Vətən müharibəsi adlı yarımbaşlıqlardan ibarətdir.*

**585.** Rəsulzadə M.Ə. Əsərləri: (Mühacirət dövrü): "Yeni Qafqasiya", "Azəri Türk", "Odlu Yurd", "Bildiriş"dəki yazıları /Məmməd Əmin Rəsulzadə; nəşrə hazırl. N.Yaqublu (əsərləri topl. nəşrə hazırl, ön söz və məqalənin müəl., lüğ. və izah. tərt. ed., red.); transliterasiya red. S.Xalidoğlu. - Bakı: Qanun, 2021. - C.2. - 680 s. *1934-cü ildə İstanbulda nəşr edilmiş "Azərbaycan Yurd Bilgisi" jurnalındakı "Milli Azərbaycan hərəkatının xarakteri" məqaləsi də bu cildə daxil edilib. Kitabda Azərbaycanın tarixi, müstəqillik mübarizəsi, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti haqqında geniş məlumat vardır.*

**586.** Rzayev, Ə. Dövlət idarəetməsi: nəzəriyyə və praktika: monoqrafiya /Əli Rzayev; elmi red. M.F.Məlikova; naşir: Ə.Təknur. - Bakı: Elm, 2021. - 364 s. *Monoqrafiya idarəetmənin mahiyyəti, məzmunu, mexanizmi, həmçinin insanın həyat fəaliyyətində, dövlətçilik sistemində – dövlət, dövlət hakimiyyəti, dövlət aparatı və dövlət qulluğunda onun yeri və rolu sosial, siyasi-hüquqi aspektlərdə təhlil edilir.*

**587.** Rzayev, R. Azərbaycan xanlıqları: dövlətçilik rəmzləri, hüquq sistemi, pul dövriyyəsi və sikkə zərbi: [monoqrafiya] /Rəşid Rzayev, C.Mustafayev, A.Seyidov; elmi red. T.Mustafazadə; tərc.: Z.Qafarova, L.Rüstəmova; AMEA, Arxeologiya və Etnoqrafiya İns-tu. - Bakı: Xəzər Universitəsi, 2021. - 360 s. *Monoqrafiyada XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Azərbaycan ərazisində mövcud olmuş iyirmidən artıq xanlığın siyasi həyatı dövlətçilik rəmzləri, inzibati idarəçilik və hüquq sistemi, pul*

*dövriyyəsi və sikkə zərbinə dair yeni, yığcam və ümumiləşdirilmiş materiallar təqdim edilir.*

**588.** Tahirzadə, Ə. Meydan: 4 il 4 ay: Azərbaycan Xalq hərəkatı (1988-1992) haqqında gündəlik-qeydlər /Ədalət Tahirzadə [ön söz]; elmi red. C.Həsənli. - Bakı: Qanun, 2021. - 1279 s. *Kitabda Azərbaycanda 1988-ci ilin 19 fevralından 1992-ci ilin 16 iyununadək baş vermiş irili-xırdalı bütün önəmli hadisələr – xalqımızın azadlıq və müstəqillik uğrunda ölüm-dirim mübarizəsi, 20 Yanvar, Xocalı soyqırımı, Moskvanın Qarabağı Azərbaycanın tabeliyindən necə çıxarması və s. öz əksini tapıb.*

**589.** Təhməzova, E. Nizami Gəncəvinin dünyagörüşündə mənəvi və sosial dəyərlər: [monoqrafiya] /Elmira Təhməzova; elmi red. Ə.Abasov; AMEA, Fəlsəfə və Sosiologiya İns-tu. - Bakı: Avropa, 2021. - 152 s. *Monoqrafiyada XI-XII əsr Azərbaycanın sosial-mədəni mühitinə fəlsəfi baxış keçirilir, mütəfəkkir-şair Nizami Gəncəvinin ideal cəmiyyət və sosial ədalət prinsipi, kamil insan problemi, sosial və mənəvi dəyərlər, humanizm, dostluq, əməksevərlik, elm, təlim, tərbiyə haqqındakı fikirləri və əxlaqi görüşləri ətraflı təhlil edilir.*

**590.** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda respublika elmi konfransının materialları: Bakı, 17 may 2021-ci il /E.Məmmədov [və b.]; Bakı Dövlət Universiteti. - Bakı: BDU nəşriyyatı, 2021. - 520 s. *Kitabda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində" mövzusunda Respublika elmi konfransının materialları verilmişdir.*

**591.** Zeynalova, T. XX əsrin əvvəllərində Azərbaycanda siyasi-hüquqi təlimlər tarixi: dərs vəsaiti /Təranə Zeynalova; elmi red. M.F.Məlikova; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Uni-ti. - Bakı: Mütərcim, 2021. - 128 s. *Dərs vəsaiti ötən əsrin əvvəllərində yaşamış və fəaliyyət göstərmiş, dövlətçilik və hüquq tariximizin inkişafında əvəzsiz xidmətləri olan görkəmli Azərbaycan mütəfəkkirlərinin, ictimai və dövlət xadimlərinin maarifçilik, milli dil, milli özünüdərk, dövlətin formaları, milli dövlətçilik haqqında, həmçinin hüquqa, onun müxtəlif aspektlərinə, sosial təyinatına dair ideyalarına həsr olunmuşdur.*

**2022**

**592.** Abdurəhmanova, F. İstiqlal arzusu ilə yaşayan şair /Fidan Abdurəhmanova; red.: M.Çəmənli, K.Aslanova; ön söz: İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, 2022. - 128 s. *Kitabda istiqlal şairlərindən biri olan Şahmar Əkbərzadənin lirikası, lirikasındakı psixologizm və müstəqillik illərindəki publisistikası haqqında məlumat verilmişdir.*

**593.** Ata-İnam Ata, A. Uluyurd aqibəti – bütöv Azərbaycan: İzharlar. Müsahibələr. Məqamlar... /Asif Ata-İnam Ata; Nəşrə hazırlayan və burax. məsul: N.Ulusəs; tərtib ed. Safruh. - Bakı: Adiloğlu, 2007. - 296 s. *Kitabda Türkçülüyün, Azərbaycançılığın, Dövlətçiliyin insanilik və mütləqilik yönündən ruhani, tarixi-siyasi, ideoloji mahiyyəti, habelə ayrı-ayrı jurnalistlər tərəfindən götürülmüş izharlar, müsahibələr və məqamlar toplanmışdır.*

**594.** I Beynəlxalq Rəsulzadə qiraətləri. Məhəmməd Əmin Rəsulzadənin irsi müstəqillik, demokratiya və dövlətçilik dəyərləri sistemində: [toplu] /nəşrə hazırlayanı və

red. S.Rüstəmova-Tohidi; rəssam: R.Rəsulzadə, R.Gülməmmədli; "Rəsulzadə ev-muzeyi" İctimai Qrupu. - Bakı: Təhsil, 2022. - 672 s. *Kitabda Rəsulzadənin şəxsiyyətinin, həyat yolunun, ailə münasibətlərinin və yaradıcılığının müasir dövr Azərbaycan Cümhuriyyəti üçün bir dəyər olaraq qiymətləndirilməsinə dair elmi-publisistik məqalələr, müxtəlif dövrlərdə həyatı və siyasi fəaliyyətinə aid az məlum olan, yaxud yeni aşkar edilmiş sənədlərin surətləri, tədqiqatçıların şərhləri və ayrıca mətnləri ilə birlikdə təqdim olunur.*

**595.** Ələkbərli, F. Məhəmməd Əmin Rəsulzadənin sosial-fəlsəfi görüşləri: milli həmrəylik və azərbaycançılıq: [monoqrafiya] /Faiq Ələkbərli; elmi red. M.Süleymanlı. - Bakı: Elm və təhsil, 2022. - 414 s. *Monoqrafiya Azərbaycan və türk dünyasının böyük oğlu, Azərbaycan Cümhuriyyətinin qurucusu, politoloq, sosioloq, filosof-mütəfəkkir M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşlərinə, milli həmrəylik və azərbaycançılıq təlimlərinə həsr olunub. Öncə, monoqrafiyada M.Ə.Rəsulzadənin sosial-fəlsəfi görüşləri kontekstində sosial-demokratiya, milli demokratiya, liberalizm, islamçılıq, musavatçılıq cərəyanları hərtərəfli şərh edilir.*

**596.** Əsgərli, Ə. Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı: [monoqrafiya] /Əlizadə Əsgərli; elmi red., ön söz müəl. İ.Ə.Həbibəyli; məsul red. A.Bağırlı; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və təhsil, 2022. - 556 s. *Monoqrafiyada sənətkarın poeziyasının milli və bəşəri qaynaqları, onun mövzu, ideya-məzmun və bədii forma mündəricəsi, habelə şairin azərbaycançılıq, türkçülük və dinçilik baxışları, Azərbaycan milli ideyasının təkamülü yollarında mücadiləsi ədəbi-fəlsəfi və ideoloji kontekstdə əksini tapmışdır.*

**597.** Gözəlov, P. Naxçıvan xanlığına məxsus üç bayraq /Pərvin Gözəlov; dizayner: A.Samuylova. - Bakı: AFPoliqrAF, 2022. -208 s. *Kitab dövlətçilik tarixi, hərb tarixi, beynəlxalq münasibətlər, mədəniyyət sahəsi və heraldika üzrə mütəxəssislər və sadəcə həvəskarlar auditoriyası üçün daha əlçatan etmək məqsədilə Azərbaycan, rus və ingilis dillərində çap edilib.*

**598.** İbrahimov, H. Sosio-mədəni inkişaf və ictimai həyat paradiqmaları /Hüseyn İbrahimov; elmi red. G.İbrahimova; AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. - Bakı: Elm, 2022. - 140 s. *Kitabda müasir dövrdə sosial-mədəni inkişafımızı şərtləndirən mühüm ictimai paradiqmalar ətrafında həm milli, həm də beynəlxalq rakursdan institutsional araşdırma aparılır. Ölkə başçısı cənab İlham Əliyevin müasir dünya düzənində formalaşdırdığı milli inkişafa əsaslanan paradiqmal ictimai münasibətlər sistemi və bu sistemdə dövlət – cəmiyyət münasibətləri, həmçinin ölkəmizin milli ideya birliyi və pandemiya şəraitində aktual inkişaf məsələləri sistemli təhlil edilir.*

**599.** İsmayılov, K. "Azərbaycançılıq" ideologiyası: təşəkkül tapması, tarixi inkişaf mərhələləri /Kamran İsmayılov (layihə rəhb.), A.Balayev; [Azərb. Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Savalan Tarixi Araşdırmalar İctimai Birliyi]. -Bakı, 2022. - 224 s. *Kitabda "Azərbaycançılıq" ideologiyasının təməl prinsipləri, məzmunu və mahiyyəti, formalaşması və inkişaf mərhələləri nəzərdən keçirilir. Bu zaman əsas diqqət Azərbaycançılıq ideyasının dərin tarixi köklərinin araşdırılmasına, onun tarixi-coğrafi, etnososioloji amillərinə yönəldilir. Milli dövlət identikliyimizin inkişafında Azərbaycançılıq ideologiyasının rolu və təsiri tədqiq edilir.*

**600.** Qəhrəmanov, S.A. Ədəbi-tarixi prosesin problemləri və istiqamətləri: (XX əsrin 20-30-cu illəri): [monoqrafiya] /Səbuhi Qəhrəmanov; elmi red. və ön söz. müəl. Ş.Alışanov; AMEA N.Gəncəvi ad. Ədəbiyyat İns-tu. - Bakı: Elm, 2022. - 220 s. *Monoqrafiyada XX əsrin 20-30-cu illərin ədəbi-tarixi prosesin problemləri və istiqamətləri müxtəlif ədəbi qüvvələrin qarşılıqlı əlaqəsi ilə yanaşı, ictimai-siyasi mühitin təsiri və ideoloji təzyiqi kontekstində araşdırılır. Azərbaycan ədəbiyyatının "milliyyətçi və xalqçı" cərəyanlardan sosializm realizminə doğru hərəkəti yaradıcılıq təşkilatları və ədəbi mətbuatın iştirakı, habelə sovet dövlətinin prosesə bilavasitə müdaxiləsi zəminində nəzərdən keçirilir, bədii-estetik hərəkatın tarixi məntiqi üzə çıxarılır.*

**601.** Qulubəyli, S. Təlatümlü illər: Xatirat /Soltan Qulubəyli; tərt. və nəşr ed. T.İ.Axundov (red.); ərəb əlifba. çev. M.Ə.Purmuxtari (tərc.); tərc.: D.Ş.Cəfərli, E.K.Mustafayev; red. G.İ.Axundova; əlyaz. təq. ed. Z.Hacı M.S.Axundzadə-Mühacir. - Bakı, 2022. - 189 s. *Kitab Azərbaycan xalqının müstəqillik yolunda apardığı mücadilələrin bir məqamını – Muğan və Lənkəranda 1917-1921-ci illərdə cərəyan edən tarixi hadisələri, bu yolda xalqın birlik ruhunu, onun ayrı-ayrı nümayəndələrinin canları və qanlarından keçdiyini işıqlandırır.*

**602.** Qurbanov, S. Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi: [monoqrafiya] /Sadıq Qurbanov; elmi red. Ə.Muradov; red. C.Cəfərov. - Bakı: İZƏ, 2022. - 436 s. *Kitabda Heydər Əliyevin keçdiyi ömür yolu, siyasi portret cizgiləri, siyasi fəaliyyətinin sovet və müstəqillik dövrləri, dövlət idarəçiliyi, iqtisadi, mədəni quruculuq və milli ideologiyanın formalaşması sahəsində fəaliyyətinin, daxili və xarici siyasətinin tədqiqinə həsr olunub.*

**603.** Nəbibəyli, Z. Bəxtiyar Vahabzadənin milli-mənəvi Portreti /Ziyadxan Nəbibəyli; baş red. və ön söz. müəl. T.Əhmədov; red. İ.Məmmədli. - Bakı: Ecoprint, 2022. - 164 s. *Kitab elmi əsər olmaqla, böyük şairimiz, alimimiz Bəxtiyar Vahabzadənin milli-mənəvi dünyagörüşünə həsr olunmuşdur. Onun çoxsaylı əsərləri araşdırılmış və bu qənaətə gəlinmişdir ki, çox dəyərli şairimiz Bəxtiyar Vahabzadənin bütün yaradıcılığının əsasında milli-mənəvi dəyərlər durur.*

**604.** Nəsibli, N. Azərbaycan tarixi: Millət-Dövlət-Siyasət /Nəsib Nəsibli; qapaq dizaynı: R.Qasım. - Bakı: Qanun, 2022. - 656 s. *Kitabın mövzusu çox geniş, bir o qədər də iddialıdır. Bir neçə mövzuya yanaşma problemin ortaya qoyuluşu xarakterindədir. Məqsəd, düşünən insanların diqqətini bu akademik problemlərə çəkməkdir. Kitabda millət, millətçilik və dövlətçilik haqqında əhatəli mövzular yer almışdır.*

**605.** Paşayev, Q. Xilaskar /Qəzənfər Paşayev; çevirən: H.Şərqidərəcək (Soytürk). - Tehran: Naqus Nəşriyyatı, 2022. - 120 s. *Kitab xalqın tarixi müqəddəratında müstəsna rol oynayan xilaskarlarımız Heydər Əliyev epoxası və İlham Əliyev erasına həsr olunub. İlk dəfə olaraq azərbaycançılıqdan ictimai-siyasi müstəvidə bəhs edilmişdir.*

**606.** Rəsulzadə, M. Azərbaycan təşəkkülündə "Müsavat" /Məhəmmədəmin Rəsulzadə; ideya müəl. D.Əhməd; transliterasiya ed. A.Ağaoğlu; naşir: Y.İlhamoğlu. - Bakı: Çapar yayınları, 2022. - 62 s. *Müsavat Firqəsinin və Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmmədəmin Rəsulzadə bu kitabçasında Azərbaycan muxtariyyəti, istiqlalçılıq, azərbaycançılıq kimi məsələlərə toxunub, 1917-1920-ci illərdə baş verən hadisələri iştirakçı kimi təhlil edib.*

**607.** Türkiyə – Azərbaycan əbədi amal birliyinin Gəncə səhifələri: Qardaş ölkələrimizin ümumi milli maraqlarının formalaşdırılması, qorunması və inkişafına dair tarixi oçerklər /AMEA, Gəncə Bölməsi; layihə rəhb. Z.Muradov; tərt. R.Əmiraslanoğlu; red. E.Həsənov; ön söz müəl. Z.Öztürk.- Gəncə: Elm, 2022. - 111 s. *Kitabda təqdim edilən araşdırmalar ümumən iki əsrə yaxın bir dövr ərzində qeyri-müstəqil şəraitdə yaşamış millətimizin dövlətçilik ideyalarının gerçəkləşdirilməsində qardaş Türkiyənin dəstəyi haqdadır.*

**608.** UNEC İqtisadi Forumu: [Zəfər yolu]: Bakı, 1-3 dekabr 2021-ci il: Azərbaycan Respublikası Müstəqilliyinin Bərpasının 30-cu ildönümünə həsr olunub /elmi red. Ə.Muradov; məsul şəxs: F.Əhmədov; tərtibatçılar: A.Qədimalıyeva [və b.]. - Bakı: İqtisad Universiteti, 2022. - 137 s. *Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 30 illiyinə həsr olunan "Zəfər yolu" adlı "UNEC İqtisadi Forumu 2021" təşkil olunmuşdur. Forum rəqəmsal iqtisadiyyatın asanlaşdırılması kimi postpandemiya dövrü üçün müəyyən edilmiş mərhələləri, eləcə də Azərbaycanın bir sıra sosial-iqtisadi transformasiyalarını əhatə etmiş və keçdiyi müstəqillik yolunu əks etdirmişdir.*

**609.** Zərqanayeva, İ. Milli ideologiya və Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri /İradə Zərqanayeva; elmi red. İ.Məmmədzadə; AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. - Bakı: Elm və təhsil, 2022. - 144 s. *Kitabda Azərbaycançılıq ideologiyasının əsasları, məfkurənin siyasətə çevrilməsi prosesləri izlənir, mədəniyyət və ədəbiyyat nümunələri, dini baxışlar, milli-mənəvi dəyərlər, müasir qadınların həyat və fəaliyyətləri əsasında Azərbaycanda qadına münasibətin fəlsəfi problemləri tədqiq edilir.*

## 2023

**610.** Abbasov, N. Azərbaycan mədəniyyətində Heydər Əliyev fenomeni: [Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə ithaf olunur] /Namiq Abbasov [ön söz]; elmi red. R.H.Abdullayeva; red. R.N.Abbaslı; dizayn: N.Novruzov]; AMEA Memarlıq və İncəsənət İns-tu. - Bakı: Elm, 2023. - 272 s. *Ümummilli lider Heydər Əliyevin siyasi-mədəni obrazı Azərbaycan xalqının dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik mədəniyyətinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən üstün keyfiyyətlərinin canlı mənzərəsidir.*

**611.** Azərbaycan ədəbiyyatında Vətən və dövlətçilik məfkurəsinin intibahı: Heydər Əliyevdən – İlham Əliyevə /İ.Həbibbəyli (ideya müəl. və elmi məsl.) [və b.]; elmi red. T.Əlişanoğlu (müəl.); məsul red. E.Akimova (müəl.); AMEA, Nizami Gəncəvi ad. Ədəbiyyat İns-tu. - Bakı: Elm, 2023. - 459 s. *Kitabda Azərbaycan xalqının Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin bədii ədəbiyyatda parlaq obrazının yaradılması, müstəqil dövlətçilik ideallarının tərənnümü məsələlərindən bəhs olunur.*

**612.** Azərbaycan xalqının milli-mənəvi dəyərləri: ["Milli sərvətimiz - mənəvi dəyərlərimiz" layihəsi] /Azərb. Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, "Elin Səsi" milli-mənəvi dəyərlərimizin qorunması İctimai Birliyi [hazırl.]; tərt. ed.: Q.Paşayev, Ş.İsmayılov, L.İsayeva; lay. rəhb. E.Talışinski. - Bakı: İRS Holding, 2023. - 88 s. *Kitab ictimai birliyin "Milli sərvətimiz – mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində xalqımızın milli-mənəvi dəyərləri haqqında zəngin bilgilərin təbliğ edilməsindən bəhs edir.*

*Kitabda milli-mənəvi və mədəni dəyərlərimiz geniş şəkildə işıqlandırılmışdır.*

**613.** Azərbaycanın dövlət müstəqilliyinin bərpası və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi təsis edilməsinin 30 illik yubileyinə həsr olunmuş "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda IV Beynəlxalq elmi konfransın tezisləri: 29-30 dekabr 2021 /Bakı, Azərbaycan /təşkilat kom.: İ.Zeynalov (sədr) [və b.]. - Bakı: BDU, 2023. - 304 s.

**614.** Balayev, A. Məmməd Əmin Rəsulzadə: (1884-1955) /Aydın Balayev; elmi red. M.N.Quboqlo. - Bakı: JekoPrint, 2023. - 304 s. *Kitabda XX əsr Azərbaycan siyasi tarixinin ən parlaq simalarından biri olan Məmməd Əmin Rəsulzadənin həyat və fəaliyyətindən bəhs olunur. Onun yaratmış olduğu azərbaycançılıq ideologiyası 1918-ci ilin mayında yaradılmış müasir Azərbaycan dövlətçiliyinin nəzəri əsasını təşkil edir.*

**615.** Cəfərli, M. İdrak işığı /Muxtar Cəfərli; red. Ə.Aslanoğlu; bur. məs. S.Ramizoğlu.- Bakı: MİMTA Yayımları, 2023. - 159 s. *Hər zaman elm-irfan, ülvi dəyərlər insanlara üstün məziyyətlər qazandırmışdır. Bu kitab da məhz mənəviyyatımızı zənginləşdirmək mahiyyəti daşıyır.*

**616.** Cəfərov, A. Tariximizin Heydər Əliyev zirvəsi: məqalələr /Aslan Cəfərov; red. O.Musayev; Azərbaycan Kitab, Maarif və Poliqrafçılar İctimai Birliyi. - Bakı: Təhsil NPM, 2023. - 240 s. *Kitabda Ümummilli liderimiz Heydər Əliyevin siyasi irsinin müəyyən məqamları araşdırılır. Bu irsdəki milli-mənəvi dəyərlər, azərbaycançılıq ideologiyası, gənclər siyasəti, dövlətçiliyimizi gücləndirən digər amillər müxtəlif istiqamətlərdən olan elmi mənbələrlə təhlil olunaraq geniş oxucu kütləsinə təqdim edilir.*

**617.** Cəfərov, N. Azərbaycanşünaslıq mühazirələri /Nizami Cəfərov; ADA Universiteti. - Bakı: ADA Universitetinin nəşri, 2023. - 280 s. *Kitab professor Nizami Cəfərovun ADA Universitetinin tələbələrinə son illərdə dediyi mühazirələr əsasında hazırlanmışdır. Burada Azərbaycan ədəbi-ictimai fikir tarixi zəminində azərbaycançılıq məfkurəsinin keçdiyi zəngin təkamül yolu işıqlandırılmışdır.*

**618.** Cəfərov, N. Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət /Nizami Cəfərov; ideya müəl. E.Babayev [ön söz]; elmi red.: N.Həsənzadə, Ə.Ağamirzəyev; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Bakı Dövlət Uni-ti. - Bakı: BDU, 2023. - 320 s. *Kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycan dili, ədəbiyyatı və incəsənətinin inkişafındakı tarixi xidmətləri barədə geniş təsəvvür yaradılır.*

**619.** Cəfərov, N. Ümummilli lider: Azərbaycandan Türk dünyasına /Nizami Cəfərov; red. D.Osmanlı; Bakı Dövlət Universiteti, Azərbaycanda Atatürk Mərkəzi. - Bakı: Elm və təhsil, 2023. - 304 s. *Heydər Əliyevin 100 illiyinə həsr etdiyi bu fundamental kitabında akademik Nizami Cəfərov təqribən son otuz ildə yazmış olduğu Ümummilli liderin siyasi portretini əsas cizgiləri, hərtərəfliliyi və kamilliyi ilə təqdim edən əsərlərini toplamışdır.*

**620.** Dadaşova, S. Heydər Əliyev və Azərbaycan dili: (Heydər Əliyev və Azərbaycan dili mövzusunda yazılmış məqalələr toplusu) /Sevinc Dadaşova (layih. müəl., tərt. və ön söz. müəl.); elmi red. A.Əliyev. - Bakı: Zərdabi Nəşr, 2023. - Kb.2. - 657 s. *Kitabda Ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinə olan sevgi və bağlılığını, qayğı və diqqətini əks etdirən məqalələr toplanıb. Topluda 2001-ci ildən 2023-cü ilə qədər Azərbaycan mətbuatında və internet portallarında mövzu ilə*

*əlaqəli respublikanın tanınmış elm, mədəniyyət xadimləri və ziyalıları tərəfindən qələmə alınmış məqalələr günümüzün tarixindən keçmişə doğru sıralanaraq çap olunub.*

**621.** Əhmədov, E. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti /Elçin Əhmədov; elmi red. H.Məmmədov. - Bakı: Zərdabi Nəşr, 2023. - 200 s. *Kitabda 1993-2003-cü illərdə Heydər Əliyevin milli maraqlara əsaslanan xarici siyasət strategiyası tədqiq edilir. Bununla yanaşı, Ümummilli lider Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin qurulmasında, həmçinin genişlənməsində rolu təhlil edilir, milli həmrəyliyin və birliyin əsası olan azərbaycançılıq ideyası öyrənilir. Kitabda Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bütün sahələrdə ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm məsələlər geniş tədqiq olunur.*

**622.** Əlişanoğlu, T. Azərbaycançılıq oçerkləri: Ulu Öndər Heydər Əliyevin 100 illiyinə /Tehran Əlişanoğlu; elmi red. İ.Həbibbəyli; AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İns-tu. - Bakı: Elm, 2023. - 288 s. *Kitabda AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun Azərbaycançılıq kontentinə dair elmi-tənqidi və ədəbi-publisist oçerkləri yer almışdır. "Ədəbiyyatda Azərbaycançılıq" bölməsi müəllifin 2006-2023-cü illərdə ardıcıl dərc etdirdiyi yazılarının motivlərini ehtiva edir. "Azərbaycan, Azərbaycan" bölməsi esselər silsiləsi olub, 2005-ci ildə ayrıca kitab şəklində işıq üzü görmüşdür. Əsərlər Ulu öndər Heydər Əliyevin Müasir Azərbaycançılıq konsepsiyası platformasından qələmə alınmışdır.*

**623.** Əlişanoğlu, T. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev: [məqalələr] /Tehran Əlişanoğlu;

elmi red. İ.Həbibbəyli; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İns-tu. - Bakı: Elm və təhsil, 2023. - 280 s. *Kitabda AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun Ulu Öndər Heydər Əliyev mövzusunda məqalələri toplanıb. Müstəqillik dövrünün ədəbiyyatında Heydər Əliyevin həyat və fəaliyyətinin bütün mərhələləri əks olunmuş, məqalələrdə bu ardıcıllıq gözlənilmişdir.*

**624.** Əliyev, N. Cənubi Qafqazda geotəhlükəsizlik mühiti və Azərbaycan postmüharibə dövründə: Dərs vəsaiti /Nurulla Əliyev, V.Məmmədzadə; lay. rəhb. H.Piriyev; elmi red. A.Həsənov; baş red. R.Tahirov; red. G.Əliyeva; Azərb. Resp. Müdafiə Nazirliyi, Milli Müdafiə Uni-ti. - Bakı: AfPoliqrAF, 2023. - 112 s. *Dərs vəsaitində Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsi kontekstində Cənubi Qafqazda baş verən hərbi-siyasi hadisələr təhlil edilir, həmçinin Birinci Qarabağ müharibəsindən sonra aparıcı dünya dövlətlərinin Cənubi Qafqazda qlobal siyasi oyununun məzmunu açıqlanır.*

**625.** Əliyeva, S. Beynəlxalq mədəni proseslər: problemlər və perspektivlər /Sevda Əliyeva; elmi red. H.B.Məmmədov; Azərbaycan Dillər Universiteti. - Bakı: Savad, 2023. - 252 s. *Beynəlxalq münasibətlərdə və dünya siyasətində mədəniyyətin funksiyasını nəzərə alaraq, dərslikdə artan inteqrasiya və qloballaşma prosesləri çərçivəsində milli mədəniyyətlərin gələcəyi də nəzərə alınıb. Mədəni dialoq problemi ilə bağlı müxtəlif fikirlər nəzərdən keçirilir, mədəni dialoqun müxtəlif aspektləri araşdırılır və beynəlxalq mübahisələrin həllində, sülhün və əməkdaşlığın təminində dialoqun əhəmiyyəti vurğulanır.*

**626.** Əsgərli, Ə. Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət /Əlizadə Əsgərli; ön söz müəl. və elmi red. İ.Həbibbəyli; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İns-

tu. - Bakı: Elm və təhsil, 2023. - 456 s. *Kitabda dünya siviliza-siyasının reallıqları, onu şərtləndirən və formalaşdıran amillər göstərilib, diplomatiya, liderlik, habelə iqtisadiyyat və mədəniyyət sahəsində Ümummilli liderin Şərq və Qərb sivilizasiyalarına verdiyi töhfələr və dünyanın tarixi-siyasi şəxsiyyətlərinin Ulu Öndərə verdikləri qiymət təcəssüm olunub.*

**627.** Hacıyev, İ. Heydər Əliyev siyasəti: tarix və müasirlik: Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə: [monoqrafiya] /İsmayıl Hacıyev; elmi red. İ.Həbibbəyli. - Bakı: Elm, 2023. - 336 s. *Monoqrafiyada Heydər Əliyev şəxsiyyətinin böyüklüyünə, fenomen keyfiyyətlərinə nəzər salınır, onun ideyaları və siyasətinin Azərbaycanın uğurlarının əsası olduğu göstərilir. Əsərdə Heydər Əliyevin dövlətçilik təlimi və onun tərkib hissəsi önə çəkilir.*

**628.** Hacıyev, Q. Heydər Əliyev və Azərbaycan Respublikasının ərazi bütövlüyü /Qasım Hacıyev; elmi red. İ.Hacıyev; elmi məsl. İ.Həbibbəyli; AMEA Qafqazşünaslıq İns-tu. - Bakı: Füyuzat, 2023. - 368 s. *Kitab dünya şöhrətli dahi siyasi xadim, dövlətçilik tariximizdə mühüm mövqe tutan, tarixin ahəngini öz nəzarəti altına götürə bilən, realist və praqmatik, cəmiyyətin bütün aparıcı qüvvələri tərəfindən qəbul edilən və onları öz arxasınca aparmağa qadir olan, inamlı xarici siyasət yürüdə bilən böyük şəxsiyyət – Heydər Əliyevin Azərbaycan dövlətinə rəhbərliyi dövründə ölkəmizə qarşı Ermənistanın əsassız ərazi iddialarına, erməni separatizminə, məcburən cəlb edildiyimiz Qarabağ müharibəsinin dayandırılmasına, Ermənistan – Azərbaycan Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı məqsədyönlü siyasətə, Azərbaycan Respublikasının ərazi bütövlüyü-*

*nün təmin olunması uğrunda fəaliyyətinə və bu fəaliyyətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə həsr edilmişdir.*

**629.** Heydər Əliyev – Azərbaycan dili və azərbaycançılıq /A.A.Axundov [və b.]; elmi red., ön sözün müəl. N.Cəfərov; AMEA Nəsimi adına Dilçilik İnstitutu. - Bakı: Elm və təhsil, 2023. - 256 s. *Əsərdə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Azərbaycanda dil quruculuğu sahəsində gördüyü işlərdən, onun Azərbaycan dili və nitq mədəniyyəti barədəki fikirlərindən, azərbaycançılıq məfkurəsindən danışılır, natiqliyi, çıxış və nitqlərinin dil xüsusiyyətləri təhlil edilir.*

**630.** Heydər Əliyev həyatının 100 anı: [Heydər Əliyev - 100: 1923–2023: Azərb. və ing. dillərində] /Azərb. Resp. Ensiklopediya Nəşriyyatı; red. heyəti: E.Nəsirli (sədr, ön söz) [və b.]. - Bakı: Ensiklopediya Nəşriyyatı, 2023. - 554 s. *Kitabda Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələlərinin bir-birini tamamlaması, dahi şəxsiyyətin öz xalqına sıx bağlılığının, milli dövlətçilik məfkurəsinə sadiqliyinin canlı təcəssümü olması, geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyevin düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etməsi və digər müstəsna xidmətləri barədə geniş bəhs edilir.*

**631.** Heydər Əliyev Xatirə Kitabının yaradıcısıdır: (Kitab Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur) /Azərb. Resp. Mədəniyyət Nazirliyi; red. N.Məmmədova [ön söz]; buraxıl. məsul: H.Məlikov. - Bakı: Respublika Xatirə Kitabı redaksiyası, 2023. - 321 s. *Xatirə Kitabı Redaksiyasının yaradılması da onun xalq*

*qarşısındakı humanistliyinin bariz ifadəsidir və bu addım özündə mütərəqqi Azərbaycançılıq məfkurəsi, milli ruh, milli özünüdərk, tarixi yaddaş ehtiva edir. Kitabda təkcə tarix sıralanmır, həm də itkin düşmüş şəxslərin siyahısının dəqiqləşdirilməsi, vətən torpaqları uğrunda həlak olmuş, itkin düşmüş insanların xatirəsinə dövlətimizin başçısı tərəfindən göstərilən diqqətin bariz nümunəsi öz əksini tapmışdır.*

**632.** Heydər Əliyev xatirələrdə: [memuar] /tərt. S.Mürvətqızı [ön söz]; lay. rəhb. Ş.Sadiq; red. C.Qədir. - Bakı: XAN, 2023. - *Topluda fərqli fəaliyyət sahələrində tanınmış insanların Heydər Əliyevlə şəxsi tanışlığı, qohumluğu, dostluğu ilə bağlı xatirələri yer alıb. Bu yaddaş xəzinəsində Heydər Əliyevin, sözün əsl mənasında, böyük hərflərlə yazılası XARAKTERinin çoxyönlü tərəfləri təqdim edilməklə şəxsiyyəti haqqında ədəbi portreti yaradılıb.*

**633.** Heydər Əliyev. Prezidentlik xronikası: 1993–2003 /Azərb. Tarixçiləri İctimai Birliyi; ideya müəl. və tərt. A.Bəşirli [ön söz]; elmi red. Y.Mahmudov. - Bakı: "Azərbaycan Tarixçiləri" İctimai Birliyi, 2023. - 288 s.

**634.** Heydər Əliyev və Gürcüstan /Azərb. Dövlət Tərcümə Mərkəzi; tərt.: M.Qonaşvili, İ.Məmmədli; lay. rəhb. A.Məsud; red. E.Başkeçid. - Tbilisi: Merani, 2023. - 235 s. *Kitab müasir Azərbaycanın qurucusu, Azərbaycan dilinin və ədəbiyyatının himayədarı Heydər Əliyevin böyük insan sevgisindən, dost Gürcüstana, gürcü xalqına doğma münasibətindən bəhs edir.*

**635.** "Heydər Əliyev və mədəniyyət siyasəti" adlı Beynəlxalq elmi konfransının materialları: Konfrans Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur /təşkilat kom.: C.Mahmudova (sədr), N.Rüstəmova, S.Əliyeva [və b.]. - Bakı, 2023. - 286 s.

**636.** Heydər Əliyev və milli mətbuat: monoqrafiya /İ.Ə.Həbibbəyli [və b.]; baş red., ön söz müəl. İ.Ə.Həbibbəyli; elmi red. V.Əhməd; AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. - Bakı: Elm və təhsil, 2023. - 320 s. *Oxuculara təqdim edilən "Heydər Əliyev və milli mətbuat" adlı monoqrafiyada dünya şöhrətli siyasətçi və dövlət xadimi, müasir Azərbaycanın qurucusu, Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin mətbuatla dövlətçilik əlaqələrinin qurulmasındakı tarixi xidmətlərindən bəhs olunur.*

**637.** Heydər Əliyev. 100 faktın tarixi /tərt.: E.M.Miraləm, R.F.Qaraxanlı; ideya müəl.: E.M.Allahverdiyev, S.T.Məmmədov; elmi red. Y.M.Babanlı; red. hey.: U.K.Ələkbərov [və b.]. - Bakı: Azərbaycan nəşriyyatı, 2023. - 111 s. *Ümummilli liderin dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən 100 ən əlamətdar olanı seçilmiş, onun müsahibələrinə, çıxışlarına və bəyanatlarına, eləcə də səfərlərinə və müxtəlif görüşlərinə toxunulmuşdur.*

**638.** Həbibbəyli, İ. "Kitabi-Dədə Qorqud" eposu Heydər Əliyevdən – İlham Əliyevə /İsa Həbibbəyli; məs. red. İ.Osmanlı; AMEA, Nizami Gəncəvi ad. Ədəbiyyat İns-tu. - Bakı: Elm, 2023. - 124 s. *Kitabda xalqımızın ən böyük ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" eposunun sovet hakimiyyəti illərindəki qadağası fonunda müstəqillik dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin dastanın dünyaya və Azərbaycan xalqına yenidən tanıdılması, tədqiqi və nəşrində yeni tarixi mərhələnin yaradılması sahəsindəki xidmətləri geniş təhlil edilib qiymətləndirilir.*

**639.** Hüseynov, S. Heydər Əliyev və İlham Əliyevin dövlət – din münasibətlərinin tənzimlənməsində rolu: [kitab Heydər Əliyevin anadan olmasının 100 illiyinə və İlham

Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə həsr olunmuşdur] /Sakit Hüseynov; elmi red. İ.Məmmədzadə [ön söz]; elmi məsl. G.Baxşəliyeva; AMEA, Fəlsəfə və Sosiologiya İns-tu; Mənəvi Dəyərlərin Təbliği Fondu. - Bakı, 2023. - 258 s. *Kitabda İslamın Qafqazda yayılmasında Azərbaycanın rolu, dövlət – din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığının bərqərar olunması, dini tolerantlıq, dini ekstremizm və dini təhlükəsizlik haqqında Heydər Əliyev və Prezident İlham Əliyevin fəaliyyəti ilk dəfə olaraq geniş şəkildə araşdırılmışdır.*

**640.** İsmayılov, V. Nəsillərə örnək insan: [Kitab Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunur] /Vəliyəddin İsmayılov; tərt.: V.İsmayılov, İ.Misirzadə; red. A.Misirzadə; ön söz müəl. Q.Paşayev. - Bakı: CBS-PP, 2023. - 216 s. *Kitab müəllifin Ümummilli lider Heydər Əliyevlə sovet, eləcə də müstəqillik dövründəki hakimiyyət illərində olan şəxsi xatirələrindən və 1998-ci il prezident seçkilərində Azərbaycan Respublikasının prezidentliyinə namizəd Heydər Əlirza oğlu Əliyevin Mərkəzi Seçki Qərargahının üzvü, "Qarabağ və digər işğal olunmuş rayonların seçicilərinin ilk təşəbbüs qrupu"nun rəhbəri kimi Heydər Əliyevlə tarixi, real faktlara əsaslanan görüşlərindən və digər tarixi faktlardan bəhs edir.*

**641.** Qarabağ: maddi, mədəni və mənəvi irs: Tarixi-etnoloji tədqiqat /B.T.Əmənova [və b.]; red. heyəti: T.Şahbazov [və b.]; elmi red. İ.Məmmədova [ön söz]; AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İns-tu. - Bakı, 2023. - Kb.2. - 400 s. *Kitabda Azərbaycanın tarixi-etnoqrafik bölgələrindən olan Qarabağda xalqımızın əsrlər boyu formalaşan empirik bilikləri, adət-ənənələri, maddi və mədəni irsi öz əksini tapır. Əsərdə toplanan milli-mənəvi və maddi dəyərlərimiz xalqımızın*

*həyatında, məişət və mədəniyyətində formalaşan azərbaycançılıq milli ideologiyasının əsas tərkib hissəsi kimi təqdim olunur.*

**642.** Qaybalıyeva, N. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsində Heydər Əliyev siyasəti: Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur: [monoqrafiya] /Nigar Qaybalıyeva; elmi red. İ.Zeynalov [ön söz]. - Bakı: Zərdabi Nəşr, 2023. - 288 s. *Monoqrafiya Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsində Ümummilli lider Heydər Əliyev siyasətinin həyati əhəmiyyətli rolundan və Azərbaycanda bütün sahələrdə dayanıqlı və sabit inkişafın əsaslarının formalaşdırılmasından bəhs edir.*

**643.** Mədətli, E. Heydər Əliyev: dövlətçilik, milli özünüdərk, mənəvi dəyərlər: [Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunur] /Eynulla Mədətli, A.Qafarov; elmi red. Z.Ağayeva. - Bakı: Ocaq NP, 2023. - 252 s. *Kitabda Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkəmizdə dövlətçilik şüurunun, milli özünüdərkin və milli kimliyin bərqərar edilməsində, qayəsini və mayasını azərbaycançılığın təşkil etdiyi milli ideologiyanın formalaşdırılmasındakı xidmətləri tarixi-fəlsəfi təhlilə cəlb edilmişdir.*

**644.** Mədətli, E. Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan-Türkiyə birliyinin fəlsəfəsi /Eynulla Mədətli; elmi red. F.Qurbanov; elmi məsləhətçi: İ.Məmmədzadə. - Bakı: Elm və təhsil, 2023. - 324 s. *Kitabda Ulu Öndər Heydər Əliyevin zəngin və çoxcəhətli siyasi irsinin, xüsusilə də bu irsdə mühüm yer tutan Azərbaycançılıq məfkurəsinin və Azərbaycan – Türkiyə birliyinin təməl prinsipi olan "Bir millət, iki dövlət"*

*düsturunun əhəmiyyətinin və reallaşdırılmasının fəlsəfi cəhətləri araşdırılmış, Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsində bir əbədiyaşar irsin yeri və tarixi əhəmiyyətinin elmi-fəlsəfi təhlilinə cəhd göstərilmişdir.*

**645.** Məmmədli, N. Heydər Əliyevin dilçilik görüşləri /Nadir Məmmədli; red. R.Rüstəmov; AMEA Nəsimi adına Dilçilik İnstitutu. - Bakı: Elm və təhsil, 2023. - 188 s. *Kitabda- azərbaycançılıq ideologiyası, məfkurəsinin banisi, dahi dövlət xadimi Heydər Əliyevin Azərbaycan dili və dilçiliyinin inkişafında tarixi xidmətləri, bütün sahələrdə mövcud olan problemləri, dil siyasətinin prioritet istiqamətləri, Vətən anlayışının konsept səviyyəsində, dilçiliyin yeni istiqaməti olan koqnitiv dilçilik baxımından elmi cəhətdən araşdırılır, qarşısında duran əsas məsələlər təhlil süzgəcindən keçirilir.*

**646.** Məmmədov, C. Cəmiyyət. Şəxsiyyət. Təhsil. Din /Ceyhun Məmmədov; ədəbi red.: Z.Vəliyev, R.Həsrətova; ön söz. Ş.Əsgərov. - Bakı: Qanun, 2023. - 294 s. *Kitabda Azərbaycanın dövlətçilik ənənələri, ən yeni dövr Azərbaycan tarixi və bu dövrün görkəmli şəxsiyyətlərinin fəaliyyətləri, digər dövlətlərlə əlaqələr, dövlət – din münasibətləri, milli-mənəvi dəyərlərimiz, din təhsilinin tarixi, həmçinin xalqımıza qarşı yönəlmiş erməni vəhşiliklərindən bəhs edilir.*

**647.** Məmmədov, N. Qarabağ zəfərinin tarixi kökləri və Heydər Əliyev /Nazim Məmmədov; elmi red. Ə.Qasımov; AMEA, A.A.Bakıxanov ad. Tarix İns-tu. - Bakı: Optimist, 2023. - 248 s. *Kitabda – Ali Baş Komandan İlham Əliyev başda olmaqla Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq – iqtidar birliyi, qardaş Türkiyənin mənəvi dəstəyi, ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb*

*tarixindən ilham alaraq şanlı qələbə və qəhrəmanlıq salnaməsindən bəhs olunur.*

**648.** Mərdanov, M. Heydər Əliyev: xalqa həsr olunmuş ömür /Misir Mərdanov; elmi red. F.Şiriyev. - Bakı: Təhsil NPM, 2023. - 400 s. *Bu kitab xalqımızın böyük oğlu, xilaskarı və Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı, milli siyasi sistemin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi Ulu Öndər Heydər Əliyevin qəhrəmanlıqlarla və mübarizələrlə dolu ömrünə həsr edilir.*

**649.** Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı: (1993-2003): (məqalələr toplusu): Heydər Əliyev – 100 /Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Azərb. Dillər Uni-ti; tərt.: Ş.Xudiyeva [və b.]; layihə rəhb. K.Abdulla [ön söz]; məsul red. A.Şahmuradov. - Bakı: Sim-Sim, ADU, 2023. - 448 s. *Kitabda 1993-2003-cü illərdə müxtəlif ölkələrdə ingilisdilli mətbuatda Azərbaycan haqqında dərc olunan məqalələrin Azərbaycan dilinə tərcüməsi yer almışdır.*

**650.** Rəsulzadə, M.Ə. Bir kərə yüksələn bayraq, bir daha enməz!: [Sitatlar] /Məmməd Əmin Rəsulzadə; naşir: M.Xan; dizayn və qrafika: F.İlham. - Bakı: Mücrü, 2023. - 128 s. *Kitabda Azərbaycan tarixinin ən görkəmli şəxsiyyətlərindən biri, Azərbaycan Xalq Cümhuriyyəti Milli Şürasının Rəyasət Heyətinin sədri (may - dekabr 1918) və ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin (31 yanvar 1884 - 6 mart 1955) sitatları verilmişdir.*

**651.** Sərdarov, V. Əvəzsiz lider /Vüqar Sərdarov; elmi red. R.Hüseynov; ön söz: Z.Oruc. - Bakı: Optimist, 2023. - 201 s. K*itab Ümummilli lider Heydər Əliyevin həyatına və ic-*

*timai, siyasi fəaliyyətinə həsr edilmişdir. Kitabda Heydər Əliyevin sovet dövrü və müstəqillik dönəmində Azərbaycana rəhbərlik etdiyi illərə aid materiallar yer alıb.*

**652.** Talışinski, L. XX əsr Azərbaycan dövlətçilik tarixində görkəmli ictimai-siyasi xadim Əziz Əliyevin xidmətləri: Dərs vəsaiti /Leyla Talışinski; elmi red. Q.Əliyev [ön söz]. - Bakı, 2023. - 162 s. *Dərs vəsaiti Azərbaycan dövlətçilik tarixində görkəmli xidmətləri olmuş Ə. Əliyevin ictimai-siyasi və elmi fəaliyyətinə həsr edilmişdir. Ə. Əliyevin XX əsrin 20-30-cu illərindəki elmi fəaliyyəti hərtərəfli işıqlandırılmış və onun səhiyyə sahəsindəki uğurları araşdırılmışdır.*

**653.** Ümummilli liderin ədəbiyyat strategiyası /Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Azərb. Dövlət Pedaqoji Uni-ti; layihə rəhbəri M.Hüseynova; elmi red.: T.Salamoğlu, R.Məmmədov. - Bakı: Elm və təhsil, 2023. - 296 s. *Kitabın yazılmasında Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətində ədəbiyyatın roluna ayrılan yerin bəzi mühüm tərəflərinə aydınlıq gətirmək əsas məqsəd kimi seçilmişdir.*

**654.** Vəliyev, Ə. Mirzə Bala Məmmədzadə və Azərbaycan siyasi düşüncə tarixi /Əfqan Vəliyev [ön söz]; red. Z.Həmzəyeva; bur. məs. Ə.Aslanoğlu. - Bakı: MİMTA Yayımları, AVE Print, 2023. - 344 s. *Bu tədqiqat işinin mövzusunu mübarizələrlə dolu ömrünü Azərbaycan, Türkiyə və müxtəlif Avropa ölkələrində keçirən, milli düşüncə və müstəqillik tariximizdə dərin iz qoyan Mirzə Bala Məmmədzadənin həyat və fəaliyyəti, onun mücadilə yoldaşları ilə əlaqələri və bütün bunların fonunda milli məfkurənin siyasi-ideoloji, mənəvi əsasları təşkil edir.*

**2024**

**655.** Ağazadə, İ. Uşaq ədəbiyyatında azərbaycançılıq və milli özünüdərk: [monoqrafiya] /İlhamə Ağazadə; elmi red. E.Akimova; AMEA Nizami Gəncəvi ad. Ədəbiyyat İnstitutu. - Bakı: ADPU nəşriyyatı, 2024. - 186 s. *Monoqrafiyada ilk dəfə olaraq milli ideologiyaya kimi azərbaycançılığın uşaq ədəbiyyatında təzahüründən bəhs edilir. Dövlətin əsas məfkurəsinin tədqiqi uşaq və gənclər üçün uyğun olan şifahi xalq ədəbiyyatı nümunələri və görkəmli yazarların bu istiqamətdə mövcud əsərlərinin təhlili əsasında ifadəsini tapmışdır.*

**656.** Bayramov, H. Azərbaycan – dünyanın qızıl körpüsü /Hüseyn Bayramov; red. G.Mehdiyeva; buraxıl. məsul K.Təhməzova; naşir: T.Axundov. - Bakı: Təhsil, 2024. - 264 s. *Kitabda Azərbaycanın dövlətçilik ənənələrindən, tarixin müxtəlif mərhələlərində onun qorunmasından, son dövrlərdə əldə etdiyi nailiyyətlərdən bəhs olunur.*

**657.** Cəfərli, M. Azərbaycan Elm və İrfan sərdarları /Muxtar Cəfərli; elmi red. M.Yunusov; red.: D.Əliyev, S.Ramizoğlu; ön söz E.Cabbarov; bur. məs. Ə.Aslanoğlu.- Bakı: MİMTA Yayımları, 2024. - 344 s. *Müəllif bu araşdırmalarda əsərləri ilə dünya elm tarixində, mədəniyyət və ədəbiyyatında önəmli yer tutan, işıqlı fikirləri ilə insanlığın mənəvi tərəqqi yolunu aydınlatan Azərbaycan böyüklərindən söz açır. Cənublu-şimallı böyük Azərbaycan torpağından çıxıb bütün İslam coğrafiyasına yayılmış bu şəxsiyyətlər yaşadıqları dövrün ən parlaq simalarından olmuşlar. Müəllif bu şəxsiyyətlərə mənəvi dəyərlər kontekstindən yaxınlaşdığı üçün kitab bu mövzudakı əvvəlki tədqiqtlardan ciddi şəkildə fərqlənir.*

**658.** Dadaşova, S. Heydər Əliyev və Azərbaycan incəsənəti: (Heydər Əliyev və Azərbaycan incəsənəti mövzusunda yazılmış məqalələr toplusu): Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur /Sevinc Dadaşova (layihə müəl., tərt. müəl. və ön söz müəl.); elmi red. A.Əliyev. - Bakı: Zərdabi nəşr, 2024. - Kb.3. - 640 s. *Nəşrdə Ulu Öndərin Azərbaycan mədəniyyətinə və incəsənətinə olan sevgi və bağlılığını, qayğı və diqqətini əks etdirən məqalələr toplanıb. Topluda 2004-cü ildən 2023-cü ilə qədər Azərbaycan mətbuatında və internet portallarında mövzu ilə əlaqəli Respublikanın tanınmış elm, mədəniyyət xadimləri və ziyalıları tərəfindən qələmə alınmış məqalələr günümüzün tarixindən keçmişə doğru sıralanaraq çap olunub.*

**659.** Hacıbəyli, A. Ailə: Seçimdən uşaq tərbiyəsinə qədər /Ağa Hacıbəyli; red.: S.Ramizoğlu, D.Əliyev; bur. məs. Ə.Aslanoğlu; tərt. H.Abdul. - Bakı: MİMTA Yayımları, 2024. - 200 s. *Kitabda həyat yoldaşı seçimindən başlayaraq ailə həyatının müxtəlif mərhələləri, adət-ənənələr, milli-mənəvi dəyərlər fonunda ailə məsələləri işıqlandırılır. Ailə həyatının incəliklərinə, ailəni səadət ocağına çevirəcək ülvi dəyərlərin mühümlüyünə diqqət çəkilərək ayrı-ayrı mövzular axarlı və anlaşıqlı bir üslubda təqdim olunur.*

**660.** Həziyeva, S. Dünya azərbaycanlılarının həmrəyliyində diaspor təşkilatlarının rolu: XX əsrin sonu, XXI əsrin əvvəlləri: dərs vəsaiti /Səbinə Həziyeva; elmi red. S.İ.Əliyeva; Azərbaycan Dövlət Pedaqoji Universiteti. - Bakı: ADPU nəşriyyatı, 2024. - 168 s.

**661.** II Beynəlxalq Rəsulzadə qiraətləri. Məhəmməd Əmin Rəsulzadənin irsi müstəqillik, demokratiya və döv-

lətçilik dəyərləri sistemində: [toplu: Məhəmməd Əmin Rəsulzadə - 140] /nəşrə hazırl. və red. S.Rüstəmova-Tohidi; rəssam: R.Gülməmmədli; "Rəsulzadə ev-muzeyi" İctimai Qrupu]. - Bakı: Təhsil, 2024. - 864 s. *Kitab Azərbaycan Cümhuriyyətinin qurucusu, ilk dövlət başçısı, görkəmli ictimai-siyasi xadim, jurnalist, yazıçı və alim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr olunub.*

